**X.Ə. Bayramzadə**

# Əməliyyat- axtarış fəaliyyətinə nəzarət

DƏRS VƏSAİTİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Dövlət və hüquq" bölməsinin 09.02.2007-ci il tarixli 6 nömrəli iclas protokolu ilə dərs vəsaiti kimi tövsiyə edilmişdir.**

**Bakı-2007**



downloaded from KitabYurdu.az

**Elmi redaktor:** Bakı Dövlət Universitetinin ”Cinayət hüququ” kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərov

**Rəyçilər**. 1. BDU-nin “Kriminalistika və məhkəmə ekspertizası” kafedrasının müdiri, hüquq elmlər doktoru: Kamil Səlimov

2. BDU-nin “Hüquq” Fakultəsinin “Cinayət prosesi” kafedrasının müəllimi hüquq elmlər namizədi: Midhəd Qəfərov

**Bayramzadə Xanlar Əsgər oğlu**
**Əməliyyat- axtarış fəaliyyətinə nəzarət**

Dərs vəsaiti Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin hüquq fakultələrinin tələbələri, hüquq-mühafizə orqanlarının əməkdaşları və respublikanın hüquq ictimaiyyəti üçün nəzərdə tutulmuşdur.

**B** $\frac{1203020110-11}{M-658(07)-020}-020-2007$

***©Bakı Universiteti nəşriyyatı***



downloaded from KitabYurdu.az

## Giriş

MDB məkanında 90-cı illərdən başlayaraq əməlıyyat-axtarış fəaliyyətinin həyata kecirilməsi qanunların qəbul edilməsi ilə nizamlanmış, bu fəaliyytin müxtəlif istiqamətiləri, prinsipləri, metodları öyrənilməyə başlamışdır. Cinayətlərin qarşının alınması cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi üçün konfidensial, qeyri leqal vasitələrdən istifadə edilməsi ilə bağlı olan əməliyyat axtanş fəaliyyəti Azərbaycan Sovet dövründə tədqiq edilməmişdir. Əməliyyat axtarış fəaliyyəti çox sahəli və mürəkkəb bir fəaliyyət olduğundan, müxtəlif dövlət orqanları tərəfindən həyata keçirildiyindən vahid normativ aktla əhatə edilməsi uzun müddət mümkün olmamışdır. Əməliyyat axtanş fəaliyyətinin qismən leqallaşdırılması bu sahədə illər ərzində toplanmış materialların nəzəri təhlilinə, mövcud nəzəri işlərin işıq üzü görməsinə, bir çox problem məsələlərin diskussiyaya çıxanlmasına və təbii ki, öz düzgün həllini tapmasına şərait yaradacaqdır.

Respublikamızda hüquq islahatlarının geniş vüsət aldığı, yeni qanunvericiliyinin qəbul edildiyi bir dövrdə 28 oktyabr 1999-cu il tarixdə «Əməliyyat axtarış fəaliyyəti haqqında» qanunun qəbul edilməsi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin təşkil edilməsinə idarə nəzarətinin, həmçinin bu tədbirlər həyata keçirilən zaman insan və vətəndaşlarının hüquqlarının pozulmasına prokuror və məhkəmə nəzarətinin müasir tələblərə uyğun elmi səviyyəyə qaldırılması, onun cinayətkarlığa qarşı mübarizə kimi bir şaxəsinin hüquqi, elmi-metodiki əsaslarının tədqiq edilməsi zəruri sayılır.

Təqdim olunmuş dərs vəsaiti müstəqil Azərbaycanın tarixində ilk nəşr olunan hüquq sahəsində ilk addımlarını atmağa cəhd göstərən vəsait olduğundan müəyyən qüsurlar, çatışmamazlıqlar, anlaşılmazlıqlar olmasını mümkün hesab edib öz təkliflərinizi, iradlarınızı, fikirlərinizi bizimlə bölüşməyi xahiş edirik.

Müəllifdən.



downloaded from KitabYurdu.az

## Fəsil 1. Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlər

### § 1. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının mühafizəsi əməliyyat-axtarış fəaliyyətinin əsas prinsipidir

Əməliyyat-axtarış fəaliyyəti hüquqi fəaliyyətinin bir növü olmaqla, insanların, cəmiyyətin və dövlətin cinayətkar qəsdlərdən müdafiəsinə, həmcinin əməliyyat-axtarış orqanlarının üzərinə qoyulmuş müəyyən vəzifələrin həllinə yönəlmişdir. Əməliyyat-axtarış fəaliyyəti hüquqi fəaliyyətin digər növlərini əvəz edə bilməz, lakin onlar arasında zəruri, qırılmaz sıx əlaqələr mövcuddur. Əməliyyat-axtarış fəaliyyəti çox vaxt qeyri aşkar metodlar, qüvvə və vasitələrin tətbiqi ilə həyata kecirildiyi ücün o, vətəndaşların hüquq və azadlıqlarının, dövlət və qeyri dövlət qurumlarının qanuni mənafelərini məhdudlaşdırma təhlükəsini özündə saxlayır. Əməliyyat-axtarış fəaliyyəti insanların, cəmiyyətin və dövlətin həyatı əhəmiyyət kəsb edən mənafelərinin cinayətkar qəsdlərdən qorunması zərurəti ilə əlaqədar hüquq normaları vasitəsi ilə dövlət və vətəndaş arasındakı münasibətləri, əməliyyat-axtarış fəaliyyətinin həyata kecirilməsi ilə əlaqədar hüquqi münasibətləri tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini müəyyən edir.

Əməliyyat-axtarış qanunvericiliyi Azərbaycan Respublikası qanunvericiliyinin kompleks sahəsi olaraq, dövlət tərəfindən müvafiq qanunlarda və qanunqüvvəli aktlarda müəyyən olunmuş və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı baş verən bütün halların nizama salınması üçün öncədən təyin edilmiş hüquq normalarının məcmusudur.

Azərbaycanda əməliyyat-axtarış qanunvericiliyinin real olaraq formalaşması 28 oktyabr 1999-cu ildə, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan



downloaded from KitabYurdu.az

Respublikası Qanununun qəbul edildiyi vaxtdan başlamışdır. O vaxta qədər əməliyyat-axtarış fəaliyyətində yaranan münasibətlər, bir qayda olaraq, idarədaxili normativ aktlar və qismən bəzi qanunvericilik normaları ilə tənzimlənirdi (misal üçün, 2000-ci il sentyabrın 1-dək qüvvədə olunmuş AR CPM-in 41-1, 41-2).

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun insan və vətəndaşların hüquq və azadlıqlarının təminatlarını əks etdirən norması, əməliyyat-axtarış fəaliyyətinin prinsipləri, o cümlədən insan və vətən-daşların hüquq və azadlıqlarına hörmət prinsipi ilə sıx bağlıdır. Həmin prinsiplər qanunun bir sıra normalarında konkretləşdirilmişdir.

Bundan əlavə, həm də Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş "təhlükəsiz yaşamaq hüququ" (31-ci maddə), " Şəxsi toxunulmazlıq hüququ" (32 maddə), «Mənzil toxunulmazlığı» (33-cü maddə), «Şərəf və ləyaqətin müdafiəsi» (46-cı maddə), «Məlumat azadlığı» (50-ci maddə), «Insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı» (71-ci maddə) və s. kimi insan hüquq və azadlıqlarının konkret olaraq reallaşmasını təmin edir.

Konstitusiyanın II fəslində Azərbaycan Respublikasında şəxsiyyətin hüquqi statusunun əsasını təşkil edən, insan və vətəndaş hüquqlarını və azadlıqlarını müəyyənləşdirən normalar cəmləşdirilmişdir. Bu müddəalarda bütövlükdə əməliyyat-axtarış qanun-vericiliyinin əsasını təşkil edən ən prinsipial göstərişlər vardır (hamının qanun və məhkəmə qarşısında bərabərliyi; qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qaşısının alınması, dövlətə qarşı qiyamın yatırılması, dövlət çevrilişinin və ya ölkəyə silahlı basqın edilməsinin qarşısının alınması halları istisna olmaqla insana qarşı silah işlədilməsinin yolverilməzliyi; hər kəsin azadlıq və təhlükəsizlik yaşamaq hüququ; öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın



downloaded from KitabYurdu.az

toplanılmasının, saxlanılmasının, istifadə edilməsinin və yayılmasının yolverilməzliyi; yazışmanın, telefon danışıqlarının, poçt, teleqraf və digər göndərişlərin sirrinin qorunması; mənzil toxunulmazlığı; şəxsiyyətin şərəf və ləyaqətinin müdafiəsi; irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğatın yolverilməməzliyi; təqsirsizlik prezumpsiyası; vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ; qanunla qadağan olunmamış bütün üsul və vasitələrlə, o cümlədən məhkəməyə müraciət etməklə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ və s.).

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunması, bu məqsədlə təminatlar sisteminin nəzərdə tutulması, hər şeydən əvvəl, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunla həmin fəaliyyətin qarşısında qoyulmuş məqsədlərdən irəli gəlir. Belə ki, Qanunun 1-ci maddəsinin II hissəsində deyilir: «Əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlağını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət və hərbi sirri, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədilə həyata keçirilir».

Qanunun həmin maddəsinin III hissəsində isə bu məqsəddən irəli gələn aşağıdakı vəzifələr müəyyən edilmişidir:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;
2) tötədilmiş cinayətlərin aşkar edilməsi və açılması;
3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;
4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;
5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi.

Əməliyyat axtarış fəaliyyəti muvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri aşkar üsullarlar Əməliyyat axtarış fəaliyyətinin qarşısında duran vəzifələri həyata keçirmək üçün



downloaded from KitabYurdu.az

insan və cəmiyyətin cinayətkar qəsdlərdən müdafiə etmək, qanunsuz əməlləri aşkarlamaq, qarşısını almaq məqsədi ilə hayata keçirilən fəaliyyətdir.

Göründüyü kimi, əməliyyat-axtarış fəaliyyəti qarşısında qoyulmuş məqsəd və vəzifələrin dairəsi olduqca geniş və rəngarəngdir. Ona görədə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən dövlət orqanları bu və ya digər şəkildə müxtəlif kateqoriyalardan olan insanlar və vətəndaşlarla təmasda olurlar. Bu vətəndaşların hər birinin müxtəlif qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqları vardır və əməliyyat-axtarış orqanları onlara hörmətlə yanaşmalıdır. Əgər cinayətkarlığa qarşı mübarizə insan hüquq və azadlıqlarının hər hansı formada pozulması ilə müşayiət olunarsa, onda bu onun səmərəsini və sosial mahiyyətini heçə endirmiş olur. Ümumiyyətlə, cinayətkarlığa qarşı mübarizə, onun hər hansı formada qanunların pozulması ilə müşayiət olunması vətəndaşlarda həmin fəaliyyəti tənzimləyən qanunlara və həmin fəaliyyəti həyata keçirən orqanlara qarşı inamsızlıq, etinasızlıq yaradır.

Əməliyyat-axtarış fəaliyyəti zamanı insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsinə xidmət edən təminatların reallığı ilk növbədə onların sistemli şəkildə Qanunun 4-cü maddəsində əks olunmasıdır.

Təminatların əsas hissəsinin sistemli şəkildə qanunun bir maddəsində əks olunması onların mahiyyətinin əlaqəli şəkildə dərk edilməsini asanlaşdırır. Sadə vətəndaşın nəzərində onun üçün əməliyyat-axtarış fəaliyyətinin kimlərin və necə həyata keçirilməsindən çox, onun hüquq və azadlıqlarının həmin fəaliyyət zamanı necə təmin olunması daha maraqlıdır.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 4-cü maddəsinin II hissəsində göstərilir ki, «hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq



downloaded from KitabYurdu.az

qadağandır». Maddənin bu hissəsi Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsində əks olunmuş «Şərəf və ləyaqətin müdafiəsi» hüququ ilə bilavasitə əlaqəlidir və əməliyyat-axtarış fəaliyyətinə münasibətdə onun məzmununu konkretləşdirir və həyata keçirilməsini təmin edir.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini pozmaq qadağandır. Əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız qanunla müəyyən edilmiş qaydada cinayətlərin qarşısının alınması, onların açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər (4-cü maddənin II hissəsi).

Qanunun 4-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulan vətəndaş hüquq və azadlıqlarının müvəqqəti olaraq məhdudlaşdırılması bilavasitə hüququn özünün tənzimetmə funksiyasından irəli gəlir. Bu funksiya isə cəmiyyətdə mövcud olan ictimai münasibətlərin uzlaşdırılmasını nəzərdə tutur. Əks halda cəmiyyətin özünün mövcudluğu qeyri-mümkün olardı. Konkret olaraq hansısa şəxsin (şəxslərin) hüquqlarının müvəqqəti olaraq məhdudlaşdırlması digər şəxslərin, bütünlüklə cəmiyyətin cinayətkar qəsdlərdən müdafiəsi məqsədilə edilir. Özlüyündə bu fəaliyyət ictimai xeyirli olduğundan hüquq və azadlıqların müvəqqəti məhdudlaşdırılması heç də neqativ hal kimi qiymətləndirilməməlidir.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər qrup, partiya mənafelərinə, onların proqram və ideyalarının həyata keçirilməsinə xidmət edə bilməzlər.

Qanunun 3-cü maddəsi aşağıdakı təminatı nəzərdə tutur: «Əməliyyat-axtarış fəaliyyəti subyektinin hər hansı bir siyasi partiyanın və ya digər ictimai birliklərin



downloaded from KitabYurdu.az

mənafeyi naminə hərəkətlər etməsi, qanunvericilik və ya məhkəmə hakimiyyəti orqanlarının, habelə qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş ictimai birliklərin və dini təşkilatların işində onların qanuni fəaliyyətinə təsir etmək məqsədilə məxfi iştirak etməsi qadağandır».

Əməliyyat-axtarış fəaliyyəti zamanı insan hüquq və azadlıqlarının təminatları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 4-cü maddəsi ilə yanaşı, digər maddələrində də nəzərdə tutulmuşdur. Qanunun 13-cü maddəsinin III hissəsinə görə, şəxs tərəfindən cinayətin törədilməsi və ya hazırlanması barədə kifayət qədər əsas olduqda, onun özü və əlaqələri haqqında məlumat almaq məqsədi ilə tədbiq edilən əməliyyat-axtarış tədbirlərində insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır. Bu təminat Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsi ilə nəzərdə tutulmuş sağlamlığın qorunması hüququnu tamamlayır.

Əməliyyat-axtarış tədbirləri vasitəsi ilə əldə olunmuş məlumatlarda konkret cinayət tərkibinin əlamətləri olduqda belə onlar aid olduqları şəxsi təqsirli hesab etmək üçün əsas ola bilməz. Cinayət işi başlandıqdan sonra təhqiqat və istintaq zamanı əməliyyat-axtarış tədbirlərinin nəticələri cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq yoxlandıqdan sonra həmin cinayət işində sübut kimi istifadə edilə bilər. Deməli, ən etibarlı mənbədən alınmış və ən mükəmməl şəkildə yoxlanılaraq əldə olunmuş əməliyyat-axtarış informasiyası sübut kimi istifadə edilə bilməz. Deməli, əməliyyat-axtarış fəaliyyəti cinayət-prosessual fəaliyyəti ilə sıx münasibətdədir və onun funksiyalarından biri olan cinayət təqibi funksiyasını yerinə yetirir.

Insanın şəxsi həyatına, şərəf və ya ləyaqətinə aid olan, lakin tərkibində qanunla qadağan edilməmiş hərəkətlərin törədilməsindən xəbər verən əməliyyat-axtarış



downloaded from KitabYurdu.az

tədbirlərinin nəticəsində əldə edilmiş məlumatlar saxlanıla bilməz və onlar məhv edilməlidir.

Açılmamış cinayətlər üzrə insanların təhlükə-sizliyinə və ya istintaqa ziyan vura biləcək əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatları yaymaq qadağandır.

Əməliyyat-axtarış fəaliyyəti zamanı insan və vətəndaş hüquq və azadlıqları təminatlarının bir qisminin qanunun ayrı-ayrı maddələrində əks olunması onların həmin maddələrin məzmunu ilə üzvi şəkildə bağlı olmasından irəli gəlir. Məsələn, 13-cü maddənin III hissəsində insan səhhətinə və ətraf mühitə ziyan vurulmaması ilə bağlı nəzərdə tutulmuş təminat əməliyyat-axtarış tədbirlərinin tətbiqi şərtlərindən biridir. Bu hüquqi baxımından daha məqsədə-uyğundur və onların mahiyyətinin dərk olunmasına və istifadə edilməsinə kömək edir.

Əməliyyat-axtarış fəaliyyəti zamanı insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsinə təmin edəcək digər mühüm təminatlardan biri də həmin fəaliyyətə idarə, prokuror və məhkəmə nəzarətinin nəzərdə tutulmasıdır. Bunlar Qanunun 19-cu, 19-1 və 20-ci maddələrində əks olunmuşdur.

Cinayət-prosessual qanununun normaları ilə əməliyyat-axtarış tədbirlərinin aparılması zamanı qanunçuluğa, insan və vətəndaşın hüquq və azadlıqlarına, dövlət və qeyri-dövlət qurumların qanuni mənafelərinə riayət olunması üzrə prokuror və idarə, məhkəmə nəzarətinin həyata keçirilməsinin hüquqi mexanizmi qismən müəyyən edilmişdir.



downloaded from KitabYurdu.az

## & 2. Nəzarət və yoxlamanın Əməliyyat-Axtarış Fəaliyyətində mahiyyəti

Nəzarətin mahiyyəti idarəetmə subyektinin idarə olunan obyektin onun göstərişlərini necə yerinə yetirməsini yoxlamaqdan və uçotunu aparmaqdan ibarətdir. Bu funksiyanın əsas məqsədi idarəetmə subyektini onun fəaliyyəti üçün müəyyən olunmuş idarə proqramlarından yayınma hallarından təcrid etmək, həmçinin normadan kənaraçıxma hallarına rast gəlindikdə, bütün sosial tənzimləyicilərdən istifadə edərək idarəetmə sistemlərini sabit vəziyyətə gətirməkdir.[1]

Sosial idarəetmə və nəzarət – bir-biri ilə sıx bağlı olan hallardır. Hər ikisi müstəqil təsisat olsa da, onlar qarşılıqlı münasibətlərində sabit sistem yaradırlar. Sosial idarəetmə prosesində (burada: əməliyyat-axtarış fəaliyyəti) nəzarət (burada: idarə) idarəedici dövrələr arasında əlaqələndirici element kimi çıxış edir. Idarəetmə prosesi aşağıdakı funksional-məntiqi funksiyalardan ibarətdir: idarəedici qərarlar; icranın yoxlanılması və ona nəzarət; nəticələrin qiymətləndirilməsi. Beləliklə, nəzarət idarəetmənin zəruri müstəqil mərhələsidir.

Hüquq ədəbiyyatında nəzarət və yoxlama terminləri arasında fərq müəyyən mübahisə predmetinə çevrilmişdir. Petruxin I. L., Tokareva M.E., Yakupoviç I. A., Solovev A.B., Kolokolov I. A., Ximicova O.N. və digər müəlliflər müxtəlif fikirlər irəli sürmüşlər B. I. Dallın lüğətində qeyd edilir ki, yoxlama anlayışı nəyinsə yoxlanması kimi, nəzarət isə «göz qoymaq» sözünün sinonimi kimi başa düşülür. Bu terminlərin etimoloji şərhinə əsasən prokuror nəzarəti qanunların düzgün icra edilməsinə onların riayət olunmasının dəqiqliyinə «göz qoymaq» yəni nəzarət etmək, məhkəmə nəzarəti isə mübahisəli məsələlərin əsaslı yoxlanılması deməkdir. Yəni məhkəməyə daxil olmuş hər hansı bir ərizə, vəsadət, təqdimat müzakirə obyektinə çevrilir.

---

[1] Bayramzadə X.Ə. Əməliyyat Axtarış Fəaliyyətinə idarə nəzarəti. Bakı, XXİ əsr dircəliş, 94-96, 2006, s.197.



downloaded from KitabYurdu.az

Nəzarət və yoxlama arasında fərqi müəyyən etmək olduqca mürəkkəb bir məsələdir. Çünki yoxlama orqanlarının fəaliyyətində nəzarət elementləri, nəzarət orqanlarının fəaliyyətində isə yoxlama elementləri mövcuddur. Doğrudur, nəzarəti yalnız dövlət orqanları həyata keçirir, yoxlamanı isə ictimai təşkilatlar və birliklər də apara bilərlər.

Icraya nəzarət və yoxlama konkret icraedici qərarların öyrənilməsindən başlayır, fəaliyyət proqramının tərtibi prosesini müşayiət edir, qərarın faktiki icra olunması mərhələsində dolğun və tam şəkildə ifadə olunur. Idarəetmənin ilkin prosesini başa vuran nəzarət fəaliyyəti yeni idarəetmə mərhələsi üçün daha əlverişli perspektivlər yaradır. Nəzarət zamanı aşağıdakılar aşkar olunur: idarə qərarının özünün keyfiyyəti; onun içrası ücün qəbul edilən təşkilati tədbirlərin səmərəliliyi; obyektin təşkilinin idarə qərarında əksini tapmış göstərişlərin müvəffəqiyyətlə həyata keçirilməsi məqsədlərinə uyğunluğu, həmçinin qərarı icra edən kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyələndirilməsi.

Nəzarətdə sosial idarəetmənin funksiyası kimi onun informasiya və korreksiya mahiyyəti özünü aydın büruzə verir. Nəzarət əks əlaqə kanalı ilə informasiya alınmasının universal vasitəsidir. Subyekt və obyekt arasında əks əlaqə mexanizmi olmadan sosial idarəetmə prosesi özünün dəqiqliyini və məqsədyönlülüyünü itirər. Idarəetmənin səmərəliliyi üçün idarə edən, idarə olunan obyektə özünün idarəedici təsirinin nəticələrini bilməlidir. Nəzarət obyektlərin işlərinin vəziyyətini doğru-dürüst əks etdirən operativ informasiya almağa, qəbul olunmuş qərarların məzmununda onların həyata keçirilməsinin təşkilində, bu qərarların reallaşması üçün üsul və vasitələrdə nöqsanları açmağa, işçilərin işgüzarlıqlarını öyrənməyə imkan verir.

Əgər informasiya mərhələsində nəzarətdə olan obyekt haqqında məlumatların axtarılıb toplanması, qəbul olunmuş qərarla, nəzərdə tutulan məqsədlərin faktiki icrasının tutuşdurulması həyata keçirilirsə, korreksiya mərhələsində yoxlama fəaliyyətinin subyekti faktiki vəziyyətlə modelin,



downloaded from KitabYurdu.az

proqramın arasında aşkar olunmuş uyğunsuzluğun aradan qaldırılması üsullarını müəyyən edib, nəzarətdə olan obyektin fəaliyyətinin normallaşdırılması üçün qərar formalaşdırır. Korreksiyanın mahiyyəti və xarakteri nəzarət subyektindən, yəni onun fəaliyyətində tənzimləyici və qoruyucu mənbələrin nə dərəcədə bir-biri ilə bağlılığından asılıdır.

V.Q.Afanasyev qeyd edir ki, nəzarət obyektin fəaliyyət prosesinin qəbul edilmiş idarə qərarlarına – qanun, plan, norma, standart, qayda və əmrlərə uyğunluğunun müşahidə və yoxlanılması, subyektin obyektə təsirinin nəticələri, idarə qərarları tələblərindən yol verilən sapmaların üzə çıxarılması üzrə əməkdir. Kənara çıxmaları və onların səbəblərini aşkarlayan nəzarət işçiləri idarə obyektinin təşkilinin korreksiyası yollarını və kənara çıxmaları aradan qaldırmaq məqsədilə obyektə təsir üsullarını, sistemin optimal fəaliyyətində qarşıya çıxan maneələrin aradan qaldırılmasını müəyyən edirlər.[1]

Nəzarət fəaliyyəti hüquqi forma kimi hüquqi reallaşdırma mexanizminin idarə blokunun tərkib hissəsidir. O, hüquqi reallaşdırma proseslərinə onların dəqiqliyini, qanuniliyin tələblərinə uyğunluğunu təmin etmək məqsədilə daxil olur və hüququn tətbiq edilmə proseslərinin idarə edilməsinin əsas təşkilati-hüquqi üsuludur. Nəzarət fəaliyyəti ideal, konstruktiv qərarların icra prosesini istiqamətləndirən özünəməxsus maneə rolunu oynayır. Nəzarətin aktiv təşkiledici rolu da məhz bununla müəyyənləşir.

Təqdim olunan fəaliyyət ictimai həyatın dinamik prosesləri ilə yanaşı addımlayır, onları müşayiət edir, nəzarətdə olan obyektlərə mümkün olan model çərçivəsində müstəqil, təşəbbüskar hərəkətlər etməyə yardımçı olur və onları təmin edir. Bu baxımdan nəzarətin mahiyyəti bu və ya digər orqanların və şəxslərin fəaliyyətinin (bizim təqdim etdiyimiz halda Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar və onların vəzifəli şəxsləri) onların qarşısında duran tapşırıqlara,

---

[1] Афанасьев В.Г. Научное управление обществом. М., 1983 г., с. 240



downloaded from KitabYurdu.az

idarə subyektlərinin idarə olunan obyektlərə təsirinin nəticələrinə uyğunluğu, qoyulan məqsədlər və onlara nailolma üsullarından, məqsəd və yayınma hallarını, həmçinin onların səbəblərini aşkar etməkdən ibarətdir. Məqsəd idarəetmə proseslərinə dərindən yiyələnmək və təshih etmək ücün ilkin şərait yaratmaqdır. Başqa sözlə, nəzarət fəaliyyəti təshihedici funksiya daşıyır.

F. Məmmədov və M.Mustafayev qeyd edirlər ki, yoxlama və nəzarət olmadan hər hansı bir fəaliyyəti normal hesab edilə bilməz. Hesab edirik ki, müəlliflərin bu fikri ilə razılaşmaq olar.[1]

ƏAF-də nəzarətin mahiyyətindən danışarkən qeyd edilməlidir ki, nəzarətin məqsədi keçirilmiş hər hansı bir ƏAT zamanı insan hüquq və azadlıqlarına təsir edəcək , hüquq pozuntularının qarşısını almaqdan qanun pozuntusu törətmiş vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyinə qəbul edilmiş qərarların qanuniliyi və əsaslığını yoxlamaqdan ibarətdir.

---

[1] Məmmədov F., Mustafayev M. Cinayət Axtarış hüququnun əsasları. Bakı, Hərbi Nəşriyyat, 2002, s.202.



downloaded from KitabYurdu.az

## & 3. Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin təsnifatı.

### Əməliyyat axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin anlayışı.

**Rusiya** Federasiyasının 12.8. 1995-ci il tarixdə qəbul edilmiş "Əməliyyat axtarış fəaliyyəti haqqında" qanunda bilavaisdə əməliyyat axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata kecirən subyektlərin siyahısında ölkənin Prezdenti, Parlamenti, Nazirlər Kabineti, Maliyyə nazirliyi, Prokurorluq orqanı, Idarə nəzarəti göstərilmişdi.[1]

Azərbaycan Respublikası 28 oktyabr 1999-cu il tarixli «Əməliyyat-Axtarış Fəaliyyəti» haqqında qanunda əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata kecirən subyeklərin siyahısı göstərilməsə də qanunun müxtəlif maddələrində bu haqda fikirlər öz əksini tapmişdır. Belə subyektlər qismində qanunveriçiliklə əməliyyat-axtarış fəaliyyətinin təşkilinə, təmin edilməsinə və ya həyata kecirilməsinə nəzarət funksiyasının verildiyi dövlət orqanları və onların vəzifəli şəxsləri, eynilə qanunveriçiliklə nəzərdə tutulmuş əməliyyat-axtarış orqanlarının Azərbaycan Respublikası qanunlarının icra etməsinə nəzarət funksiyasının həvalə olunduğu məhkəmələr, Azərbaycan Respublikası Baş Prokuroru və onun səlahiyyət verdiyi prokurorlar çıxış edir.

Əməliyyat-axtarış fəaliyyətin də spesifik funksiyaları (yoxlama və nəzarət funksiyalarını) realizə edən bu subyektlər qanunveriçiliklə nəzərdə tutulmuş vəzifələri içra edir və müvafiq hüquqlardan istifadə edirlər.

**Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin təsnifatı** üç əsas meyardan asılı olaraq təsnifləşdirilir.

Birinçisi, onları **funksiyalarına görə** iki qrupa ayırırlar:

---

[1] Шумиров А.Ю., Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., 1997 г., с. 31.



downloaded from KitabYurdu.az

1) Əməliyyat-axtarış fəaliyyətin də yoxlamanı həyata keçirən subyektlər (nəzarət funksiyasını realizə edən subyektlər).

2) Əməliyyat-axtarış fəaliyyətin də qanunların icrasına nəzarəti həyata keçirən (prokuror nəzarəti funksiyasını həyata keçirən) orqanlar.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə nəzarətin müxtəlif forma və növlərini qiymətləndirərkən nəzərə almaq lazımdır ki, heç bir forma və növə üstünlük vermək olmaz.[1]

Onların hər birinin həm müsbət, həm də çatışmayan cəhətləri mövcuddur. Buna görə də, yoxlamanın müxtəlif forma və növlərinin məharətlə uyğunlaşdırılması əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində idarə yoxlamasının qarşıya qoyduğu məsələləri yaranmış şəraitlə, real imkanlarla və şərtlərlə həll etmək imkanına malikdir.

Qanunveriçiliyə görə, Əməliyyat-axtarış fəaliyyətin də qanunların icrasını nəzarəti Baş prokuror və onun səlahiyyət verdiyi prokurorlar həyata yetirir.

Ikinçisi, subyektləri **«nəzarətcilərə» verilmiş səlahiyyətlərin həyata keçirilməsi sahəsinə görə** xariçi (başqa sözlə, idarədənkənar) yoxlama və nəzarəti həyata keçirən subyektlərə və daxili (başqa sözlə idarə) nəzarəti (ni) həyata keçirən subyektlərə ayırırlar. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanuna görə, idarə nəzarətini əməliyyat-axtarış orqanlarının rəhbərləri və əməliyyat-axtarış orqanlarının xüsusi nəzarət bölmələrinin (təftiş, təşkilati, kadr və s.) vəzifəli şəxsləri həyata keçirir.

Ücünçüsü, Əməliyyat-axtarış fəaliyyətində yoxlama və nəzarəti həyata keçirən bütün subyektləri **hüquqi və fiziki şəxslərə** ayırırlar. Hüquqi şəxslər qismində müvafiq dövlət orqanları (onların bölmələri), fiziki şəxslər qismində isə

[1] Горяинова К.К., Овчинского В.С., Синирова Г.К., Шумилова А.Ю. Оперативно-розыскная деятельность. Учебник. М., ИНФРА-М., 2004 г., с. 251.



downloaded from KitabYurdu.az

vəzifəli şəxslər (məsələn, Əməliyyat-axtarış orqanının rəhbəri, prokuror, hakim) çıxış edir.

Əməliyyat-axtarış fəaliyyətinə xariçi (idarədənkənar) nəzarəti həyata keçirən subyektlər dedikdə**,** "Əməliyyat axtarış fəaliyyəti haqqında" Qanunda sadalanmış subyektlərin həyata keçirdikləri əməliyyat axtarış fəaliyyətinə dövlət hakimiyyəti orqanları tərəfindən nəzarət başa düşülməlidir. Dövlətin səlahiyyətli orqanlarının və vəzifəli şəxslərinin fəaliyyətinin "Əməliyyat axtarış fəaliyyəti haqqında" Qanunda və onun içrası məqsədilə qəbul olunmuş qanun qüvvəli aktlarda müəyyən olunmuş vəzifələrə, prinsiplərə və qaydalara uyğunluğunun müşahidəsi və yoxlanması sistemində ifadə olunur. Belə nəzarətin son məqsədi ondan ibarətdir ki, əməliyyat axtarış fəaliyyətində müəyyən olunmuş normativlərdən kənaracıxmaya yol verilməsin, zərurət yarandıqda isə müvafiq orqanların və vəzifəli şəxslərin fəaliyyətində düzəlişlər aparılsın, onların səmərəli işi yolundakı maneələr aradan qaldırılsın.

**Əməliyyat axtarış fəaliyyətinə xariçi nəzarətin subyektləri.**[1] Əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun mahiyyətinə görə, Konstitusiya və müvafiq qanunlarla müəyyən olunan səlahiyyətlər daxilində Əməliyyat axtarış fəaliyyətinə bu nəzarəti aşağıdakılar həyata keçirir:

-Azərbaycan Respublikası Prezidenti;

- Azərbaycan Respublikasının Milli Məçlisi;

- Azərbaycan Respublikasının Nazirlər Kabineti;

-Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin maliyyə nəzarətini həyata keçirmək səlahiyyətinə malik nümayəndələri.

-vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına səbəb olan əməliyyat axtarış tədbirlərinin həyata kecirməsinə qərar verən hakim;

-səlahiyyətli prokurorlar;

---

[1] Bayramzadə X.Ə. «Beynəlxalq hüquq» ictimai siyasi elmi təcrübi jurnal. Bakı, № 10, 2005-ci il.



downloaded from KitabYurdu.az

**Qanunveriçi və içraediçi hakimiyyət subyektlərinin əməliyyat axtarış fəaliyyətinə nəzarətinin ümumi müddəaları.**

"Əməliyyat axtarış fəaliyyəti haqqında" qanunun 5-ci maddəsinin 2-ci hissəsində qeyd edilir ki əməliyyat-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyünü Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikasının 507 saylı 19 iyun 2001-ci il tarixli Fərmanı ilə müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektləri arasında səlahiyyət bölgüsü aparılmışdır. Burada nəzərdə tutulan səlahiyyət bölgüsünün hüquqi mahiyyəti ondan ibarətdir ki, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutlan əməliyyat axtarış tədbirləri əməliyyat-axtarış subyektlərinin (Milli təhlükəsizlik Nazirliyi, Daxili Işlər Nazirliyi, Ədliyyə Nazirliyi, Naxçivan Muxtar Respublikasının ərazisində Naxçivan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Xususi Dövlət Mühafizə Xidmati, Dövlət sərhəd xidməti, Fövqəladə Hallar Nazirliyi səlahiyyətləri daxilində, onların tələbatına və müəyyən məhdudiyyətlər nəzərə alınmaqla tədbiq edilir.

**Azərbaycan Respublikasının Prezidenti** əməliyyat axtarış fəaliyyətinə nəzarəti Konstitusiya və qanunlarla müəyyən olunmuş səlahiyyətlər cərcivəsində həyata keçirir. Konstitusiyaya görə, Prezident bu sahədə geniş səlahiyyətlərə malikdir. Azərbaycan Respublikasının Prezidentinin ən mühüm funksiyası bundan ibarətdir ki, o, Konstitusiyanın, insan və vətəndaş hüquq və azadlıqlarının təminatcısı qismində cıxış edir. O, Konstitusiya ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının suverenliyinin mühafizəsi, dövlət müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsi üzrə tədbirlər görür.



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Prezidentinin milli təhlükəsizliyin təmin edilməsi sahəsində əsas səlahiyyətləri dairəsinə aşağıdakı səlahiyyətlər də daxildir:[1]

-Prezident Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını təşkil edir və ona başçılıq edir, Təhlükəsizlik Şurasının statusu isə qanunla müəyyən olunur;

-qanunda nəzərdə tutulmuş hallarda və qaydada Prezident Azərbaycan Respublikasının ərazisində, yaxud onun ayrı-ayrı yerlərində fövqəladə vəziyyət elan edir, bu barədə 24 saat müddətində Azərbaycan Respublikasının Milli Məçlisin təsdiqinə verir.

Azərbaycan Respublikasının Prezidenti dövlətin ali vəzifəli şəxsi kimi funksiyasına əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinin, "Əməliyyat axtarış fəaliyyəti haqqında" Qanunun əməli içrasının daxil olduğu nazirlik və idarələrin fəaliyyətinə strateci nəzarəti həyata keçirir. Bu nəzarətin gedişində aşağıdakılar qiymətləndirilir:

-Qanunun bütövlükdə Azərbaycan Respublikasının ərazisində, o çümlədən ayrı-ayrı nazirlik və idarələr tərəfindən tam və səmərəli içrası;

- əməliyyat axtarış fəaliyyətinin təşkilinin idarə sxemlərinin ölkədə təşəkkül tapan real əməliyyat şəraitində çinayətkarlığa qarşı uğurlu mübarizə vəzifələrinə uyğunluğu;

- əməliyyat axtarış fəaliyyətinin qanun qüvvəli aktlar bazasının vəziyyəti, onun qanunlara uyğunluğu;

-əməliyyat axtarış fəaliyyətinin subyektlərinin ümumi peşəkarlıq səviyyəsi;

-dövlət orqanlarının və yerli özünüidarə orqanlarının əməliyyat axtarış fəaliyyətının subyektləri üçün müəyyən olunmuş hüquqi və sosial müdafiə təminatlarını yerinə yetirməsi.

Prezident həmcinin özünün əməliyyat axtarış fəaliyyəti ilə bağlı qəbul etdiyi hüquqi aktların və verdiyi tapşırıqların içrasına nəzarət edir.

---

[1] Azərbaycan Respublikasının Konstitisiyası. 12 noyabr 1995-ci il.



downloaded from KitabYurdu.az

**Azərbaycan Respublikasının Milli Məclisi** də əməliyyat axtarış fəaliyyətinə nəzarəti həyata keçirən subyektlərdən biri qismində çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyasına görə, Milli Məclis- parlament Azərbaycan Respublikasının ali nümayəndəli qanunveriçi orqanıdır.

Qanunveriçi orqan tərəfindən əməliyyat axtarış fəaliyyətinə nəzarət onun həyata kecirilməsində qanunculuğa riayət olunmasının təmin edilməsi mexanizminin elementlərindən biridir. Lakin Konstitusiyanın göstərişləri nəzərə alınmaqla parlament nəzarəti yalnız aşağıdakı hallarda realdır:

-parlamentarların əməliyyat axtarış fəaliyyəti sahəsində qanun layihələrini qəbul etmək (rədd etmək) hüququna malik olduğu qanunyaratma işinin gedişində;

Əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinə ayrılmış maliyyə vəsaiti xərcləndikdə.

Beləliklə, Azərbaycan Respublikasının Milli Məclisi əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun içrasına ümumi nəzarəti həyata keçirir. O, konkret əməliyyat axtarış fəaliyyətinin həyata kecirilməsinin əsaslarına və qaydasına şamil olunmur (şamil oluna da bilməz), həm bütövlükdə ölkədə, həm də müvafiq nazirlik və idarələr tərəfindən əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun içrası sahəsində yaranan ümumi vəziyyətin qiymətlən-dirilməsi məqsədi güdür.

Əməliyyat axtarış fəaliyyəti haqqında qanunun içra vəziyyəti haqqında analitik informasiya seciçilərlə iş, vətəndaşların ərizə və məktublarına baxılması, müvafiq nazirlik və idarələrin rəhbərlərinin məlumatlarının Milli Məçlisinin, onun komitələrinin içlaslarında dinlənilməsi, əməliyyat axtarış fəaliyyəti haqqında qanunveriçiliyə dəyişiklik və əlavələrin hazırlanması, dövlət hakimiyyəti orqanlarının təqdim etdikləri sənəd və materiallara baxılması əsasında formalaşır.

Azərbaycan Respublikasının Milli Məçlisi hadisələr və vəzifəli şəxslər haqqında müəyyən məlumatların yoxlanması üçün xüsusi komissiyalar yaratmaq hüququna malikdir, lakin



downloaded from KitabYurdu.az

bu komissiyaların fəaliyyəti əməliyyat yoxlamasının və işləməsinin, kecirilməsinin, məxfi əməkdaşlarla işin qanuniliyinin yoxlanmasını əhatə edə bilməz.

Qanunverici idarədənkənar nəzarətin üçüncü subyekti qismində **Azərbaycan Respublikasının Nazirlər Kabinetini** göstərmişdir.

Nazirlər Kabinetinin səlahiyyətləri Konstitusiya ilə müəyyən olunmuşdur. Ona nazirliklərə və ali icra hakimiyyətinin digər orqanlarına ümumi rəhbərlik məsələləri üzrə, eləcə də qanunculuğun, vətəndaşların hüquq və azadlıqlarının, çinayətkarlığa qarşı mübarizənin, Azərbaycan Respublikasının müdafiəsinin və milli təhlükəsizliyinin təmin edilməsi sahəsində geniş səlahiyyətlər verilmişdir.

Bununla birlikdə, nəzərə alınmalıdır ki, qanunverıçiliyə əsasən, müdafiə, təhlükəsizlik, daxili işlər və digər məsələlərə baxan içra hakimiyyəti orqanlarının fəaliyyətinə rəhbərliyi məhz Azərbaycan Respublikası Prezidenti həyata keçirir. Prezident həmin orqanların rəhbərlərini təyin edir, eləcə də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi digər səlahiyyətləri həyata keçirir.

Nazirlər Kabinetini nazirlik və idarələrin cinayət-karlığa qarşı uğurlu mübarizə vəzifələrinin həlli üçün əməliyyat axtarış fəaliyyətinin kecirilməsi üzrə verilmiş səlahiyyətlərindən tam və səmərəli surətdə istifadə etməsini yoxlamaq səlahiyyətinə malikdir. Bu funksiyalar Nazirlər Kabinetinin sərənçamında olan müvafiq informasiyanın təhlili, Nazirlər Kabinetinin iclaslarında müvafiq içra hakimiyyəti orqanlarının rəhbərlərinin məruzə və hesabatlarının dinlənilməsi prosesində realizə olunur.

Nazirlər Kabinetinin nəzarət fəaliyyətinin istiqamət-lərindən birini əməliyyat axtarış fəaliyyətinə aid idarə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunverıçiliyə uyğunluğunun yoxlanması təşkil edir.

Bu nəzarət mexanizmi içra hakimiyyəti orqanlarının vətəndaşların hüquqlarına, azadlıqlarına və qanuni



downloaded from KitabYurdu.az

mənafelərinə toxunan, yaxud idarələrarası xarakterə malik normativ aktlarının dövlət qeydiyyatından ibarətdir.

Nazirlik və idarələrin normativ aktlarının dövlət qeydiyyatı Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı və Nazirlər Kabinetinin müvafiq qərarları ilə tənzimlənir.

Idarə normativ aktlarının dövlət qeydiyyatının mahiyyəti bundan ibarətdir ki, akt nazirlik və idarə rəhbəri tərəfindən imzalandıqdan sonra Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə təqdim olunur.

Burada onun Konstitusiyaya, qüvvədə olan qanunveriçiliyə uyğunluğu yoxlandıqdan sonra həmin akta müvafiq dövlət qeydiyyatı nömrəsi verilir.

Yalnız bundan sonra həmin akt qüvvəyə minir. Qüvvədə olan qanunveriçiliklə ziddiyyətlər aşkar olunduqda normativ akt yenidən işlənməyə qaytarılır.

Nazirlər Kabinetinin əməliyyat axtarış fəaliyyətini həyata kecirmək səlahiyyətinə malik nazirlik və idarələrin qanuna zidd olan və içra hakimiyyəti orqanlarının səlahiyyətləri cərcivəsindən kənara cıxan digər hüquqi aktlarını ləğv etmək hüququ vardır.

Nazirlər Kabinetinin səlahiyyətinə əməliyyat axtarış fəaliyyətinə ayrılan maliyyə vəsaitinin əsaslı surətdə xərclənməsinin yoxlanması daxildir. Belə yoxlamalar Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən bu məqsədlə xüsusi ayrılan əməkdaşlar vasitəsilə həyata keçirilir. Azərbaycan Respublikası "Əməliyyat axtarış fəaliyyəti haqqında" qanunun 18-ci maddənin 2-ci hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyətinin maddi-texniki və maliyyə təminatı Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaitləri hesabından maliyyələşdirilir. Bu vəsaitlərin xərclənməsi qaydalarının və normalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

18-ci maddənin 3-cü hissəsində göstərilir ki, əməliyyat-axtarış subyektlərinin maddi-texniki təminatının qaydalarını və



downloaded from KitabYurdu.az

normalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

Qanunun 10-cu maddəsinin 10-cu hissəsində göstərilir ki, gizli informasıya alınması ücün nəzərdə tutullmuş xüsusi texniki vasitələrin növlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

**Əməliyyat axtarış fəaliyyətində maliyyə nəzarətinin subyektləri, onların içraat predmeti və səlahiyyətləri** qismində aşağıdakılar cıxış edir: 1) Əməliyyat axtarış orqanın rəhbəri və 2) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin maliyyə nəzarətini həyata kecirmək səlahiyyətinə malik nümayəndələri.

Əməliyyat axtarış orqanın rəhbərləri maliyyə nəzarətinin gedişində əməliyyat axtarış fəaliyyəti haqqında qanunla və digər qanunveriçilik aktları ilə onlara verilmiş səlahiyyətlərdən istifadə edirlər.

3 iyun 2005 tarixdə "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prizdentinin fərmanı qəbul edilmişdir.[1]

Azərbaycan Respublikasının 7 sentyabr 2004 tarixli "Dövlət sirri haqqında" qanunun 5.4 maddəsində göstərilir ki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat axtarış fəaliyyəti sahəsində məlumatlar dövlət sirrinin təşkil edir. Həmin qanunun 29.3. maddəsində göstərilir ki, dövlət sirrinin mühafizəsi tədbirlərinin görünməsi ücün ayrılan vəsaitin xərclənməsinə nəzarəti dövlət hakimyyəti orqanlarının, müəssiə, idarə və təşkilatların rəhbərləri, işlərin sifarişləri, habelə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin xüsusi səlahiyət verilmiş vəzifəli şəxsləri həyata kecirirlər.[2]

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndələrinin üzərinə qanunveriçiliyə və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin normativ hüquqi aktlarına müvafiq surətdə vəzifələr qoyulur və onların hüquqları

---

[1] «Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları» Azərbaycan qəzeti, 3 iyun 2005.

[2] "Dövlət sirri haqqında" qanun . Bakı, Hüquq ədəbiyyatı . 2004.



downloaded from KitabYurdu.az

müəyyən edilir. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndələri dövlət sirri təşkil edən məlumatlarla tanışlıq prosedurunu kecməlidir, bundan sonra onlar əməliyyat axtarış fəaliyyətinin maliyyələşdirilməsi haqqında müvafiq sənədlərin tam həcmdə təqdim edilməli olduğu səlahiyyətli vəzifəli şəxslərə çevrilir.

22 dekabr 2006-ci il tarixli "Azərbaycan Respublika-sının 2007-ci il dövlət büdcəsi" haqqında Azərbaycan Respublikasının qanununda qeyd edilir ki, dövlət büdcəsinin xərcləri aşağıdakı kimi bölüşdürülsün. Hüquq mühafizə orqanların saxlanması xərcləri cəmi 368.502.527,0 o cümlədən Milli təhlükəsizlik Nazirliyi 58.113.555,0, Daxili Işlər Nazirliyi 137.000.851,0, Ədliyyə Nazirliyi 11.349.460,0, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi 8.584.170,0, Xususi Dövlət Mühafizə Xidmati 32.482.961, Dövlət sərhəd xidməti 53.832.628,0 Fövqəladə Hallar Nazirliyi 88.642.558,0 manat pul ayrılmışdır. Həmin qanunun 6-cı maddəsində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılmışdır ki, dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda büdcə vəsaitlərinin təyinatı üzrə və səmərəli xərclənməsi üzərində nəzarəti gücləndirilsin. Hal hazırda "Dövlət maliyyə nəzarəti haqqında" qanun lahiyəsi Milli Məclisə müzakirə edilmək ücün təqdim edilmişdir.

Qeyd olunanları nəzərə alaraq təklif edirik ki, əməliyyat axtarış fəaliyyətini yoxlayan və nəzarət edən subyektlərin siyahısı Qanunda öz əksini ayrıca maddədə tapmalıdır.



downloaded from KitabYurdu.az

## Fəsil 2. Məhkəmə nəzarətinin həyata keçirilməsi

### § 1. Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti

Azərbaycan Respublikasında son illər aparılan hüquqi islahatların əsas məqsədlərindən biri cinayətlərin tezliklə və bütünlüklə acmaqdan, təqsirli şəxsləri aşkara cıxarmaqdan və qanunun düzgün tədbiq olunmasını təmin etməkdən ibarətdir ki, cinayət edən hər bir şəxs ədalətli surətdə cəzalandırılsın təqsiri olmayan hec bir şəxs cinayət məsuliyyətinə cəlb edilməsin.

Məhz bu prinsipə əsaslanan Azərbaycan Respublikası Konstitusiyasında məhkəmə nəzarətini həyata keçirən bir sıra müddəalar öz əksini tapmışdır. Hüquq ədəbiyyatında məhkəmə nəzarətinin ayrıca institut kimi fəaliyyət göstərilməsi haqqında son on illər ərzində müxtəlif fikirlər söylənilmişdir. Artıq MDB ölkələrində o cümlədən Azərbaycanda cinayət prosessual qanun-vericiliyində məhkəmə nəzarətinin həyata keçirilməsi ayrıca bölmədə yerləşdirilmişdir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan CPM-nə məhkəmə nəzarətinə aıd olan məsələlər və onların həyata keçirilməsi qaydası müəyyən edilmişdir.[1]
28 oktyabr 1999-cu tarixdə Azərbaycan Respublikası "Əməliyyat axtarış fəaliyyəti haqqında" Qanun qəbul edildiyi vaxt məhkəmə nəzarəti ayrıca müddəa şəkilində verilməmişdir. 5 mart 2004-cü il tarixdə qanuna 19-1 maddəsi əlavə edilmiş və orada göstərilmişdir ki, Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti Azərbaycan Respublikası CPM-si ilə nəzərdə tutulmuş qaydada həyata kecirilir. Qanuna görə, vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına səbəb olan hər bir əməliyyat axtarış tədbirləri yalnız hakimin qərarı ilə kecirilə bilər.

Əməliyyat axtarış tədbirləri həyata kecirilərkən vətəndaşların yazışma, telefon danışıqları, poct, teleqraf və

[1] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. 1 sentyabr 2000-ci il.



downloaded from KitabYurdu.az

poct rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, mənzil toxunulmazlığı barədə konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara baxış, bir qayda olaraq, belə əməliyyat axtarış tədbirləri kecirildiyi yer üzrə, yaxud onların kecirilməsi barədə vəsatət qaldırmış orqanın yerləşdiyi ərazi üzrə məhkəmə tərəfindən baxılır.

Azərbaycan Respublikasının CPM-nın 442.1. maddəsində qeyd edilir ki, məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata kecirildiyi yer üzrə səlahiyyəti daxilində muvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata kecirilir. Hakimin belə materialların təqdim olunması halında onlara baxmaqdan imtina etmək hüququ yoxdur.

Əməliyyat axtarış fəaliyyətinin tətbiq edilməsində hakim geniş səlahiyyətlərə malikdir. Belə ki, əməliyyat axtarış fəaliyyətində hakimin içraat predmetinə aşağıdakılar daxildir:

1) Əməliyyat axtarış tədbirləri həyata kecirilərkən vətəndaşların konstitusion hüquqlarının məhdud-laşdırılması haqqında materiallara baxir. Qeyd olunmalıdır ki, əməliyyat axtarış fəaliyyəti haqqında Qanunda göstərilən 18 əməliyyat axtarış tədbirlərindən, yalnız bir hissəsinin vətəndaşların konstitusion hüquqlarını məh-dudlaşdıran tədbirlərin sanksiyalaşdırılması qaydası təsbit olunmuşdur. Azərbaycan Respublikası CPM-nin 445-ci maddəsində göstərilir ki məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat-axtarış tədbirləri həyata kecirilir:

- telefon danışıqlarına qulaqasma
- poçt, teleqraf və digər köndərişlərin yoxlanılması
- texniki rabitə kanallarından və digər texniki vasitələrdən mə’lumatın çıxarılması
- binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;



downloaded from KitabYurdu.az

- texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin muşahidə edilməsi;

- insanların güdülməsi.

2.) Təxirə salınmış hallarla bağlı əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən məhkəmənin qərarı olmadan aparılmış (aparılan) əməliyyat-axtarış tədbir-lərinin həyata keçirilməsinin qanuniliyinin və əsaslığının yoxlanılması (AR CPM-in 445.2-ci mad., «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 10-cu mad. IV və V hissələri);

3) Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əməliyyat-axtarış tədbirlərinin aparılması ilə əlaqədar qərar və hərəkətlərindən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması (AR CPM-in 122.2.3, 442.2.2, 449-451-ci mad., 4-cü mad. IV və V hissələri, 16-cı mad. III hissəsi);

4) Əməliyyat-axtarış tədbirlərinin aparılması barədə aşağı məhkəmənin (hakimin) qərarlarından fiziki və hüquqi şəxslərin şikayətlərinə yuxarı instansiya məh-kəməsi tərəfindən baxılması (AR CPM-in 122.2.4, 42.4.1, 452-454-cü mad.);

5) Əməliyyat-axtarış tədbirlərinin aparılması ilə əlaqədar əməliyyat-axtarış fəaliyyətinin subyekti və ibtidai araşdırmaya prosessaul rəhbərliyi həyata keçirən prokuror arasındakı mübahisələrin həll edilməsi (AR CPM-in 122.2.3-cü mad., «Prokurorluq haqqında» AR Qanununun 28-ci mad. birinci hissəsi);

6) Əməliyyat-axtarış tədbirlərinin aparılması ilə əlaqədar əməliyyat-axtarış fəaliyyətinin subyekti, ibtidai araşdırmaya prosessaul rəhbərliyi həyata keçirən prokuror və aşağı məhkəmə (hakim) arasındakı mübahisələrin yuxarı



downloaded from KitabYurdu.az

instansiya məhkəməsi tərəfindən həll edilməsi (AR CPM-in 122.2.4, 442.4.2, 452-454-cü mad.)

Cinayət-prosessaul qanununun normalarının yuxarıda qeyd edilmiş göstərişləri əməliyyat-axtarış qanununun 10-cu maddəsinin I, III və IV hissələrində əks olunmuş müddəalara uyğun gəlir. Lakin bu normaların təhlili onlarda bəzi ziddiyyətlərin və qeyri-müəyyən ifadələrin olduğunu göstərir.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanununun 10-cu maddəsinin III hissəsinə əsasən əməliyyat-axtarış tədbirlərinin beş növünün aparılması üçün məhkəmənin qərarı tələb olunmasına baxmayaraq, cinayət-prosessual qanununun 445.1-ci maddəsinin göstərişi onların sayını altıya qədər çatdırır, yəni həyata keçirilməsi üçün məhkəmənin qərarı tələb olunan əməliyyat-axtarış tədbirlərinindaha bir növü (texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino vədigər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi) əlavə olunur.

"Normatif hüququ aklar haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq bu normaların arasında ziddiyətlərin həlli zamanı cinayət prosesual qanununda olan müddəa rəhbər tutulmalıdır. Çünki, həmin normativ hüququ akt əməliyyat-axtarış qanunundan sonra qəbul edilmişdir. Bu nöqteyi nəzərdən qanunvercilik hakimiyəti qarşısında "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunun bu maddəsinə müaviq düzəliş edilməsi ücün müraciət edilməsini zəruri sayırıq.

Qanunverici hakimin üzərinə aşağıdakı bir sıra vəzifələri qoymuşdur:

-hakimin təqdim edilən materiallara baxmaqdan imtina etmək hüququ yoxdur;

-hakim materiallara 24 saat ərzində baxır;



downloaded from KitabYurdu.az

-hakim əməliyyat axtarış tədbirlərinın keçirilməsinə dair əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatının təmin edilməsi və ya rədd edilməsi haqqında əsaslandırılmış qərardad çıxarmağa borcludur;

Qanunvericilikdə, yaxud hər hansı bir normativ hüquqi aktlarda, təlimatlarda, qaydalarda Əməliyyat axtarış orqanlarından və prokurorluqdan daxıl olmuş materialların qeydiyyat məsələsi nəzərdə tutulmamışdır. Hesab edirik ki belə bir qayda kargüzarlıq haqqında təlimatda öz əksini tapmalı və məhkəmə sədrləri üzərinə bir vəzifə kimi qoyulmalıdır.[1]

-məhkəmənin sədrləri tərəfindən hakimə təqdim olunan operativ-xidməti sənədlərdə göstərilən məlumatların məxfiliyinin təmin edilməsi üçün şərait yaradılmalıdır

Bu şəraitin yaradılması vəzifəsini məhkəmə orqanlarının rəhbərlərinə, yəni ilk növbədə, müvafiq məhkəmələrin sədrlərinə həvalə edilməlidir. Müvafiq məhkəmənin sədri əməliyyat axtarış orqanından daxil olmuş materiallara baxmalı olan hakimlərə onlara məlum olmuş məlumatların acıqlanmamasının, eləcə də onun qəbul etdiyi qərarın mahiyyətinin sirr kimi saxlanmasının zəruriliyini izah etməyə borçludur.

Materialların məhkəmə baxışına qədər və istintaq aparılması dövründə, həmçinin təqsirləndirilən şəxs haqqında məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə qədər məhkəmə sədrləri vəsatətin və təqdimatın tədqiqinin kənar şəxslərin onlarla tanış olmasını istisna edən şəraitdə kecirilməsinə, eləçə də onların müvafiq səlahiyyətli vəzifəli şəxslərin sərənçamından sanksiya-laşdırılmamış şəkildə cıxarılmasına görə də məsuliyyət daşıyırlar. Məsələn: makinacıya və digər yardımcı heyət şəxslərinə hakimin qəbul etdiyi qərarın rəsmiləşdirilməsini tapşırmaq olmaz.

---

[1] Bayramzadə X.Ə. Məhkəmə ekspertizası, Kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı, 2006, s. 58.



downloaded from KitabYurdu.az

Sadalanan vəzifələrin reallaşdırılması üçün hakimə müvafiq hüquqlar verilmişdir:

-hakim müvafiq əməliyyat axtarış tədbirlərinin kecirilməsinə içazə vermək, yaxud bundan imtina etmək hüququna malikdir ( CPM 447.7.5, 448.1 mad.)

-hakim şəxsin hüquqlarının məhdudlaşdırılması haqqında qərarın qüvvədə olma müddətini uzatmaq hüququna malikdir;

-hakimin tələbi üzrə ona əməliyyat axtarış tədbirlərinin kecirilməsinin əsaslarına dair əlavə materiallar təqdim oluna bilər; ( CPM-nin 446.4 mad. ƏAF. qanunun 6-cı mad. 3-cü bəndi, 1-cı mad. 7-ci hissəsi)

- əməliyyat-axtarış fəaliyyəti subyektinin insan və vətəndaşın hüquq və azadlıqlarını, yaxud hüquqi şəxslərin qanuni mənafelərini məhdudlaşdıran əməliyyat-axtarış tədbirlərinin aparılması barədə qanunsuz və ya əsasız qərarını ləğv etmək (AR CPM-in 445.2, 451.1.2-ci mad., «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 10-cu mad. V hissəsi);

- əməliyyat-axtarış fəaliyyəti subyektinin qanunsuz və ya əsasız qərarının ləğv edilməsi haqqında öz qərarının surətini təqsirli şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq əməliyyat-axtarış orqanının rəhbərinə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya yuxarı prokurora göndərmək (AR CPM-in 451.3, 451.4-cü mad.);

- dövlət sirrini təşkil edən məlumatların qorunması şərti ilə müvafiq əməliyyat-qeydiyyat işinin məzmunu ilə şikayətçini tanış etməyi əməliyyat-axtarış orqanını öhdəsinə qoymaq («Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 4-cü mad. V hissəsi).

Azərbaycan Respublikası CPM-nin 143.2 maddəsində həmçinin qeyd edilir ki, məhkəmə cinayət prosesi tərəflərinin vəsadəti yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə



downloaded from KitabYurdu.az

əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.

Lakin burada nəzərə almaq lazımdır ki, hakimin əməliyyat-axtarış orqanlarından əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi nəticəsində əldə olunmuş materialları tələb etməsi ilə bağlı hüququ müəyyən məhdudiyyətlərə malikdir.

Əməliyyat-axtarış və əks-kəşfiyyat fəaliyyətinin qüvvələrini, vasitələrini, üsullarını (metodlarını), təşkilini və taktikasını, konkret şəxslərin əməliyyat-axtarış və ya əks-kəşfiyyat orqanlarının kadr heyətinə mənsub-luğunu göstərən, həmçinin əməliyyat-axtarış və əks-kəşfiyyat fəaliyyətinin subyektləri ilə gizli şəkildə əməkdaşlıq etmiş və ya edən şəxslər haqqında məlumatlar məhkəməyə təqdim edilməli deyildir. Cinayətkar qrupların tərkibində tapşırıqlar yerinə yetirmiş və ya yetirən əməliyyat-axtarış və əks-kəşfiyyat orqanlarının əməkdaşları, habelə bu orqanlarla konfidensial əsaslarla əməkdaşlıq etmiş və ya edən şəxslər barəsində məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada aşkarlana bilər («Dövlət sirri haqqında» AR Qanununun 5.4.1, 5.4.2-ci mad., Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 03 iyun tarixli 248 nömrəli fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nın 34, 35-ci bəndləri, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 6-cı mad. 3, 9-cu bəndləri, 14-cü mad. VIII-X hissələri, 16-cı mad. VII hissəsi, 20-ci mad. III hissəsi, «Kəşfiyyat və əsk-kəşfiyyat fəaliyyəti haqqında» AR Qanununun 13.2, 13.5, 19.6, 21.2, 22.7-ci mad.).

Əməliyyat axtarış fəaliyyətində vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı.



downloaded from KitabYurdu.az

Əməliyyat axtarış tədbirləri keçirilərkən yazışma, telefon danışıqları, poçt, teleqraf və poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, eləçə də mənzil toxunulmazlığı barədə vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı qaydası Azərbaycan Respublikası CPM-də nəzərdə tutulmuşdur.

O, aşağıdakı elementləri əhatə edir:

-şəxsin konstitusion hüququnun məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışı üçün əsaslar;

-materialların baxılma yeri;

-qərar qəbul edən subyekt (materiallara baxan vəzifəli şəxs);

-materialların baxılma müddəti;

-materiallara məhkəmə tərəfindən baxılma qaydası;

-materiallara məhkəmə baxışın yekunları;

-təqdim olunmuş materialların mahiyyəti üzrə cıxarılmış məhkəmə qərarın qüvvədə olma müddəti;

-təqdim olunmuş materialların mahiyyəti üzrə cıxarılmış məhkəmə qərarın qüvvədə olma müddətinin uzadılması qaydası.

Şəxsin konstitusion hüququnun məhdudlaşdırılması haqqında materiallara məhkəmə baxışının əsası. Rusiya Federasiyasının 12 avqust 1995 il tarixli əməliyyat axtarış fəaliyyəti haqqında Qanuna görə, vətəndaşın konstitusion hüququnu məhdudlaşdıran əməliyyat axtarış tədbirlərinin kecirilməsi məsələsini həll edərkən əsas kimi əməliyyat axtarış orqanı rəhbərlərindən birinin əsaslandırılmış qərarı hakim tərəfindən məhkəmə iclasında baxılır.

Bu əsas insanın və vətəndaşın bu və ya digər konstitusion şəxsi hüququnun məhdudlaşdırılmasına səbəb olan konkret əməliyyat axtarış tədbirlərinin kecrilməsinə içazə almaq ücün əməliyyat bölməsinin məhkəməyə rəsmi müraçiətidir. Şumirov A.Y. göstərir ki, əsaslandırılmış qərar əməliyyat axtarış orqanının müvafiq vəzifəli şəxsinin qərarı olaraq, hakim üçün vəsatət rolunu oynayır. Bununla əlaqədar o, «Məhkəmə qarşısında( əməliyyat axtarış tədbirlərinin adı göstərilir)



downloaded from KitabYurdu.az

kecirilməsinə içazə verilməsi haqqında vəsatət qaldırılmasına dair Qərar» adlandırılmalıdır.[1]

Azərbaycan Respublikası əməliyyat axtarış fəaliyyəti haqqında qanunda göstərilməsədə Azərbaycan Respublikası CPM-nin 446.1.3 maddəsində qeyd edilir ki, əməliyat-axtarış tədbirinin həyata kecirilməsi üçün əməliyyat-axtarış fəaliyətini həyata kecirən orqanın səlahiyyətli şəxsin vəsatəti və ibtidai araşdırılmaya prosessual rəhbərliyi həyata kecirən prokurorun təqdimatı məhkəmədə baxılmaq üçün əsasdır.

Qanunverİçi əməliyyat axtarış orqanı rəhbərinin vəsatətinin əsaslandırılması üçün bir sıra tələblər irəli sürür.

Vəsatətdə aşağıdakılar göstərilməlidir:

- vəsatətin tərtib edildiyi tarix, vaxt, yer;

- vəsatəti tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

Vəsatətin müvafiq vəzifəli şəxs tərəfindən cıxarılmasına hakim əmin olmaq imkanı əldə etməlidir, buna görə də o, əməliyyat axtarış tədbirlərini həyata keçirilərkən vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması barədə qərar qəbul etmək səlahiyyətinə malik vəzifəli şəxslərin siyahılarının müəyyən olunduğu müvafiq idarə normativ aktları ilə tanış olmaq hüququna malikdir;

- əməliyyat-axtarış tədbirinin həyata kecirilməsi ilə əlaqədar törədilən, qarşısı alınan və ya xəbərdar edilən cinayət haqqında mə'lumatlar;

- əməliyyat-axtarış tədbirinin həyata kecirilməsi nəticəsində kimin və hansı huquq və ya azadlıqlarının məhdudlaşdırıla biləcəyi;

- əməliyyat-axtarış tədbirinin həyata kecirilməsinin zəruriliyinin əsaslandırılması;

- əməliyyat-axtarış tədbirinin həyata kecirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün

[1] Шумиров А.Ю., Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., 1997 г., с. 125.



downloaded from KitabYurdu.az

həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması;

- əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu;

- əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində hansı nəticələrin əldə edilməsinin güman edildiyi və həmin nəticənin hansı üsulla rəsmiləşdiriləcəyi;

- əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu;

- məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər mə'lumatlar;

Əməliyyat axtarış orqanının vəsadətində qeyd olunan müddəalar əsaslandırırmaqla prokurora təqdim edilir. Prokuror öz növbəsində əməliyyat axtarış tədbirinin həyata kecirilməsi haqqında materialları nəzərdən keçirməklə müvafiq qərar qəbul edir, yəni vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarır yaxud zəruriliyini təsdiq edən materialları vəsadətə əlavə edilməklə müvafiq qərarın qəbul edilməsi barədə məhkəməyə təqdimat göndərir. Məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin aparılması barədə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin vəsatət və qərarlarının məzmununa qoyulan tələblər müvafiq olaraq cinayət-prosessual qanununun 446.2-ci maddəsindən və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanununun 12-ci maddəsinin III hissəsində əks olunmuşdur. Bu tələblərin hər birinin ayrı-ayrılıqda nəzərdən keçirilməsinə xüsusi ehtiyyac görməyərək, onların yalnız dövlət sirrini təşkil edən məlumatların mühafizəsi sahəsində Azərbaycan Respublikasının maraqlarına toxunan hissəsinə diqqət yetirmək istəyirik.

Belə ki, cinayət-prosessual qanununun 446.2.2-ci maddəsinə və əməliyyat-axtarış qanununun 12-ci maddəsinin III hissəsinin 1-ci bəndinə əsasən, əməliyyat-



downloaded from KitabYurdu.az

axtarış tədbirinin aparılması barədə vəsatətdə və ya qərarda bu sənədi tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi haqqında məlumatlar mütləq öz əksini tapmalıdır. Bundan əlavə, cinayət-prosessual qanununun 446.2.10-cu maddəsindən göründüyü kimi, əməliyyat-axtarış tədbirinin aparılması haqqında vəsatətdə həmin tədbirin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu göstərilməlidir. Həmin ifadənin məzmunundan ümumiyyətlə başa düşmək mümkün olmur ki, burada söhbət əməliyyat-axtarış tədbirinin aparılması həvalə edilmiş konkret şəxsdən, yaxud orqandan gedir.

Qanunvericinin bu göstərişlərini şərh edərək, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları sistemində əməliyyat-axtarış fəaliyyətini əsasən, əks-kəşfiyyat bölmələri həyata keçirirlər. Hətta sırf əks-kəşfiyyat fəaliyyəti prosesində əməliyyat-axtarış tədbirinin aparılmasına yol verilir («Kəşfiyyat və əks-kəşfiyyat fəlliyyəti haqqında» AR Qanununun 4.3, 11.4, 11.5-ci mad.). Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 03 iyun tarixli 248 nömrəli fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nın 35-ci bəndinə müvafiq olaraq, konkret şəxslərin Azərbaycan Respublikasının əməliyyat-axtarış və ya əks-kəşfiyyat orqanlarının kadr heyətinə mənsubluğunu göstərən məlumatlar dövlət sirrini təşkil edir. Bu məlumatların xarakterini müəyyən edərək, qanunverici onların qorunması məqsədilə preventiv tədbirlər sistemini təyin edir və cəza tətbiq ediləcəyi qorxusu altında həmin məlumatların aşkarlanmasına qadağa qoyulur («Dövlət sirri haqqında» AR Qanununun 30.1-ci mad., «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 21-ci mad. I hissəsi, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyytəi haqqında» AR Qanununun 5.3, 7.3.2, 13.4, 13.5-ci mad., AR CM-in 284-cü mad.).

R.Mansurov göstərir ki, dövlət sirrini təşkil edən məlumatların mühafizəsinə təmin etmək məqsədi ilə



downloaded from KitabYurdu.az

əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi barədə vəsatətdə və ya qərarda bu sənədi tərtib edən əməliyyat işçisinin yalnız soyadını və inisiallarını (məsələn, «Azərbaycan Respublikası MTN əməkdaşı Məmmədov M.M.»), həmin tədbirin icraçısı barədə isə əməliyyat-axtarışı bölməsinin üstüörtülü adını (məsələn, «Azərbaycan Respublikası MTN-in müvafiq bölməsi» göstərmək zəruridir. Hesab edirik ki, R.Mansurovun bu fikiri ilə razılaşmaq olar. [1]

Cinayət-prosessual qanunun 446.2.8-ci maddəsin-də əks olunmuş müddəanı da düzgün təfsir etmək lazımdır. Həmin müddəaya görə, əməliyyat-axtarış tədbiri aparılması barədə əməliyyat-axtarış fəaliyyəti subyektinin vəsatətində bu tədbirin həyata keçirilməsi üsulları göstərilməlidir.

R.Mansurov göstərir ki, «üsullar» anlayışı altında qanunverici, görünür ki, əməliyyat-axtarış tədbirinin növünün adının sadələşdirilmiş ifadəsini nəzərdə tutur (məsələn, telefon danışıqlarına qulaq asma, yaxud texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması). Əgər həmin sözə adi (hərfi) məna verilirsə, onda vəsatətdə müvafiq əməliyyat-axtarış tədbirlərinin aparılmasının qeyri-aşkar üsullarının əks olunması yolverilməzdir, çünki bu, dövlət sirrini təşkil edən məlumatların açıqlanmasına gətirib çıxara bilər. («Dövlət sirri haqqında» AR Qanununun 5.4.1-ci mad., Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 03 iyun tarixli 248 nömrəli fərmanı ilə təsdiq edilmiş «Dövlət sirrinə aid edilən məlumatların Siyahısı»nın 34-cü bəndi, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 4-cü mad. IX hissəsi, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» AR Qanununun 13.2-ci mad.). Hətta, əməliyyat-axtarış qanununun 20-ci maddəsinin IV hissəsindən, «Kəşfiyyat və

---

[1] R. Mənsurov. Azərbaycan Respublikası Millik Təhlükəsizlik Orqanlarının Əmaliyyat axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, "Adiloğlu" Nəşriyyatı, 2005-ci il. 176 səh.



downloaded from KitabYurdu.az

əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 22.7-ci maddəsindən göründüyü kimi, əməliyyat-axtarış və əks-kəşfiyyat fəaliyyətinin təşkili, taktikası, *üsul* və vasitələrinə dair məlumatlar prokuror və məhkəmə nəzarətinin predmetinə daxil deyil. Məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirinin aparılması barədə vəsatət əməlliyyat-axtarış və əks-kəşfiyyat fəaliyyətinin subyektləri tərəfindən ilk növbədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, sonra isə məhkəməyə təqdim olunduğuna görə, Azərbaycan Respublikası qanunvericiliyinin bu göstərişləri xüsusi məna alır. R. Mansurovun bu fikirini gələcək tədqiqat əsərlərində müzakirə obyektinə çevrilməsini zəruri sayırıq.

Cinayət-prosessual qanununun 446.2.9-cu mad-dəsində əks olunmuş tələb də müəyyən suallar doğurur. Həmin müddəaya görə, əməliyyat-axtarış tədbirinin aparılması barədə vəsatətdə həmçinin bu tədbirin nəticələrinin rəsmiləşdirilməsi (sənədləşdi-rilməsi) üsulları göstərilməlidir. Bu normanın məzmu-nundan söhbətin əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin gedişi və nəticələrinin təsbit edilməsinin üsullarından (məsələn, foto və videoçəkilşlərin aparılması, planların, sxemlərin, arayışların, raportların tərtib edilməsi və s.), yoxsa başqa şeydən (məsələn,əməliyyat yolu ilə əldə edilmiş materialların leqallaşdırılması) getdiyini dəqiq başa düşmək mümkün olmur.

R.Mansurov qeyd edir ki,[1] əməliyyat-axtarış fəaliyyətinin gedişi və nəticələrinin sənədləşdirilməsi və ya əməliyyat yolu ilə əldə edilmiş materilların leqallaşdırılması qaydaları əməliyyat-axtarış prosesinin predmetidir. Digər tərəfdən, əgər nəzərə alsaq ki,

---

[1] R. Mənsurov. Azərbaycan Respublikası Millik Təhlükəsizlik Orqanlarının Əmaliyyat axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, "Adiloğlu" Nəşriyyatı, 2005-ci il. 176 səh.



downloaded from KitabYurdu.az

əməliyyat-axtarış tədbirinin gedişi və nəticələrinin təsbit edilməsi üsulları konkret hallardan asılı olaraq müxtəlif ola bilər və onları əvvəlcədən planlaşdırmaq heç də həmişə mümkün olmur, yuxarda göstərilən tələbin vəsatətə daxil edilməsi nə qədər vacib və məqsədə müvafiqdir?

Istintaq təcrübəsindən göründüyü kimi hansı cinayətin baş verə biləcəyini bü cinayəti ifşa etmək üçün hansı üsuldan, formadan istifadə edilməsinin güman edilən nəticənin nə üçün digər üsulla vasitələrlə əldə edilməsinin mümükün olmamasını nəzərdə tutur. Bu insanların hüqüqlarını və azadlıqlarını müəyyənləşdirən normalar çərçivəsində, o cümlədən təqsirsizlik prezumpsiyası nöqteyi nəzərdən zəruri olmaqla, məhkəmə nəzarətinin predmetinə daxil edilməsi vacibdir.

Əməliyyat Axtarış Orqanının əməliyyat axtarış tədbiri həyata keçirilməsi ilə əlaqədar tərtib olunmuş bir qərara nəzər yetirməyi vacib hesab edirik.

*«TƏSDİQ EDİRƏM»*
*Bakı şəhər BPİ NMİ-nin rəisi*
*Polis polkovnik-leytenantı*

***Q Ə R A R***

*Əməliyyat-axtanş tədbirlərinin həyata keçirilməsinə dair*
*«23»fevral 2006 il*
*Bakı şəhər*

*Bakı şəhər BPİ NMİ-nin baş əməliyyat müvəkkili, polis kapitanı, Bakı şəhəri, «Şərq bazarı» deyilən yerdə «Aslan» adlı şəxsin küllü miqdarda narkotik vasitələrin əldə olunması qəbulu və realizəsi ilə məşğul olması barədə Hacıqabul rayonu, M.F.Axundov küçəsi, ev 14-də qeydiyyatda olan , Bakı şəhəri, Keşlə qəsəbəsində kirayəşin yaşayan, 1970-cı il təvəllüdlü, Abdullayeva Şölə Qulam qızından qəbul olınmuş şifahi ərizə protokolunda göstərilən məlumatı, nəzərdən keçirib*

*MÜƏYYƏN ETDİM:*



downloaded from KitabYurdu.az

*Bakı şəhəri, Şərq bazarı deyilən yerdə «Aslan» adlı şəxsin küllü miqdarda narkotiklərin əldə olunması, qəbulu və realizə ilə məşğul olması barədə Hacıqabul rayonu, M.F.Axundov küçəsi, ev 14-də qeydiyyatda olan, Bakı şəhəri, Keşlə qəsəbəsində kirayəşin yaşayan, 1970-cı il təvəllüdlü, Abdullayeva Şölə Qulam qızından qəbul olunmuş şifahi ərizə protokolunda göstərilən məlumat daxil olmuşdur.*

*Həmin şəxsin əməllərini digər təhqiqat üsulları ilə ifşa edilməsi qeyri mümkün olduğundan, onun cinayət başında yaxalanması üçün «Narkotik vasitələr psixotrop maddələrin və onun prekursorların dövriyyəsi» haqqında Azərbaycan Respublikası 28 iyun 2005-ci il Qanunun 24-cü maddəsinə müvafiq olaraq nəzarət qaydasında alışla bağlı tədbirin həyata keçirilməsi zəruridir.*

*Göstərilənləri nəzərə alıb «Əməliyyat - axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanunun 10-cu maddəsinin 1-ci hissəsinin 10-cu bəndini, 11 -ct maddəsinin 2-ci hissəsinin 4-cü bəndini, 12-ci maddəsini və Azərbaycan Respubkası CPM-nin 445.2 maddəsini rəhbər tutaraq*

*QƏRAR VERDİM:*

*1. Hacıqabul rayonu, M.F.Axundov küçəsi, ev 14-də qeydiyyatda olan , Bakı şəhəri, Keşlə qəsəbəsində kirayəşin yaşayan, 1970-cı il təvəllüdlü, Abdullayeva Şölə Qulam qızının öz razılığı ilə nəzarət qaydasında alışla bağlı keçiriləcək tədbirdə şərti alıcı qismində iştirak etsin.*

*2.Qərarın surəti 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuroruna təqdim edilsin.*[1]

*Bakı şəhər BPİ NMİ-nin*
*baş əməliyyat müvəkkili,*
*polis kapitanı* _________

Göründüyü kimi həmin qərarda şəxsin əməllərinin digər tədqiqat üsulları ilə ifşa edilməsi qeyri mümkün olunduğu

---

[1] Bakı Baş Polis İdarəsinin Arxivi. 2006-cı il.



downloaded from KitabYurdu.az

göstərilsə də nəzarət qaydasında mal alınması kimi tədbirin kecirilməsi əsaslandırılmamışdır. Həmcinin, qərarda əsassız olaraq göstərilir ki 48 saat ərzində məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata kecirən prokurora təqdim edilsin. Hansı məhkəməyə və nə ücün göndərilməsi əsaslandırılmamışdır.

Məhkəmə iclasında vəzifəli şəxs nəyə görə konkret qərarı qəbul etdiyini, nəyə görə bu və ya digər arqumentlərdən istifadə etdiyini (istifadə etmədiyini) izah etməlidir, yəni vəsatət vəzifəli şəxsin tutduğu mövqeyi əsaslandıran izahat və mülahizələri təsbit etməlidir. Qeyd edildiyi kimi, əsaslandırılmış vəsatəti əməliyyat axtarış orqanının rəhbərlərindən biri qəbul edir. Onların sırasına, bir qayda olaraq, orqanın rəhbəri və onun müavinləri daxil olur. Lakin hər bir nazirlikdə (idarədə) vətəndaşın konstitusion hüququnun məhdudlaşdırılmasına sanksiya almaq ücün məhkəməyə göndərilən vəsatəti təsdiqləmək səlahiyyətinə malik rəhbərlərin özünəməxsus, başqaların-dan fərqli siyahıları qəbul edilmişdir, buna görə də hakim zərurət yarandıqda müvafiq siyahını müəyyən edən idarə normativ aktı ilə tanış olmaq hüququna malikdir.

Müəllif tərəfindən bir sıra məhkəmə işləri nəzərdənkeçirilməsinə baxmayaraq müəyyən edilmişdir ki, məhkəmə iclaslarında adətən vəsadəti imzalayan şəxslər deyil, əməliyyat-axtarış tədbirlərini bilavasitə həyata keçirən əməliyyatçılar iştirak edirlər.

Hakimin əməliyyat axtarış tədbirinin kecirilməsi haqqında vəsatəti və təqdimatı alması hüquqi fakt olaraq, onun ücün təqdim olunmuş operativ-xidməti sənədlərə baxışa başlamaq vəzifəsini doğurur.

Qanunvericilikdə nəzərdə tutulduğu kimi, əməliyyat axtarış fəaliyyətinin strukturuna daxil olan vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə əlaqədar həyata kecirilən əməliyyat axtarış tədbiri Qanunun 10-cu maddəsinin IV hissəsində göstərildiyi kimi hakimin qərarı olmadan da həyata keçirilə bilər. Əməliyyat axtarış fəaliyyətinin



downloaded from KitabYurdu.az

subyektləri hakimin qərarı olmadan şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alinması üçün telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara, habelə insanları güdə bilərlər; həmçinin cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrum etmə yerlərindən və ya həbsdən qaçmış və gizlənən şəxslərin yaxalanması, yanğın, partlayış və ictimai təhlükəsizliyə qəsd edən və ya qəsd edə biləcək halların aradan qaldırılması üçün binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə baxış keçirə bilərlər. Keçirilmiş əməliyyat axtarış tədbiri haqqında əməliyyat-axtarış fəaliyyətinin subyektləri 48 saat ərzində məhkəməyə əsaslandırılmış qərar təqdim etməlidirlər.

"Əməliytyat-axtarış fəaliyyəti haqqında" qanununun 10-cu maddəsinin V hissəsində göstərilir ki, bu halda «əməliyyat-axtarış fəaliyyətinin subyektləri həyata keçirilmiş tədbirlər barəsində 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessaul rəhbərliyi həyata keçirən prokurora əsaslandırılmış qərarı təqdim etməlidirlər». Bu zaman həmin göstərişin məzmunundan qanunverici tərəfindən müəyyən edilmiş müddətin hansı anda hesablanmalı olduğunu başa düşmək mümkün deyildir. Cinayət-prosessual qanununun 445.2-ci maddəsində isə həmin müddəa müəyyən dəyişikliyə məruz qalaraq, artıq aşağıdakı şəkildə verilmişdir: «Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirlərinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir».

Məhkəmənin qərarı olmadan həyata keçirilmiş əməliyyat-axtarış tədbirlərinin aparılması barədə qərarların əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən cinayət



downloaded from KitabYurdu.az

mühakimə icraatı orqanlarına təqdim edilməsi müddətinin hansı vaxtan hesablan-masının dəqiqləşdirilməsini zəruri hesab edirik. Yuxarıda qeyd olunduğu kimi, cinayət-prosessaul qanunu həmin müddətin əməliyyat-axtarış tədbirlərinin aparılma-sının başa çatdığı andan hesablanmasını təklif edir. Lakin belə qaydanı müəyyən edərkən, qanunverici bəzi əməliyyat-axtarış tədbirlərinin (telefon danışıqlarına qulaqasma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, insanların güdülməsi və s.) uzanan xarakter daşıdığını və bir neçə gün, hətta bir neçə ay ərzində (əməliyyat-axtarış qanunu əməliyyat-axtarış tədbirlərinin ən azı altı ay müddətində həyata keçirilməsinə yol verir) aparıla biləcəyini nəzərə almamışdır.

R.Mansurov göstərir ki, bu əməliyyat-axtarış tədbirləri aparılarkən əməliyyat-axtarış fəaliyyətinin subyektləri onların başa çatmasını gözləməməli, əksinə mümkün olan ən qısa bir müddətdə tələb olunan qərarları cinayət prosesini həyata keçirən orqanlara təqdim etməlidirlər. Bununla, əməliyyat-axtarış tədbirlə-rinin aparılması zamanı insan və vətəndaşın hüquq və azadlıqlarına, dövlət və qeyri-dövlət qurumlarının qanuni maraqlarına əməl edilməsi üzərində məhkəmə və prokuror nəzarətinin həyata keçirilməsi üçün real şərait yaradılar.

Hüquq ədəbiyyatında tə'xirəsalınmaz tədbirlərin anlayışı dəqiq tədqiq edilmədiyi üçün məhkəmə və istintaq təcrübəsində, əməliyyat axtarış tədbirinin həyata keçirildiyi zaman bir sira qanun pozuntularına yol verilir. Bəzən əməlliyyat işçiləri vəzifələrindən sui istifadə edərək bilə-bilə, bəzən də bilmədən qanunu pozurlar. Məsələn 6 avqust 2003-ci il tarixdə Azərbaycan Respublikasının DİN-nin MCMİ-nin müstəntiqi vətəndaş A və B haqqında Azərbaycan Respublikasının CM-nin 204.3.2 maddəsi ilə cinayət işi qaldırılması haqqında qərar qəbul etmiş və onlar mühakimə olunmuşlar. Cinayət işi öyrənilərkən müəyyən olunmuşdur ki, ƏAT-ri həyata keçirilən zaman bir sira qanun pozuntularına yol verilmişdir. Belə ki, 5 avqust 2003-cü il tarixdə ƏAT-nin



downloaded from KitabYurdu.az

həyata keçirilməsi haqqında qərarda göstərilir ki, vətəndaş S ərizə ilə idarəyə müraciət edib göstərmişdir ki, vətəndaşlar A və B saxta 100 ədəd 100-lük ABŞ dollarını satmaq istəyirlər. Qeyd olunan vətəndaşlar ətrafında əməliyyat tədbirlərinin görülməsi və görülmüş tədbirlər barəsində məhkəməyə 48 saat ərzində məlumat verilməsi göstərilsədə hansı tədbirlərin həyata keçirilməsi, hansı məhkəməyə müraciət edilməsi qeyd olunmamışdır. Vətəndaşlar A və B-nin evlərində və maşınlarında axtarış aparılmışdır. Vətəndaş S şərti alıcı olmasına baxmayaraq bu haqda qərar qəbul edilməmişdir.[1] İş məhkəmə tərəfindən baxılarkən buraxılmış nöqsanlar barəsində xüsusi qərardad çıxarılmamışdır. Öyrənilmiş cinayət işlərinin əksəriyyətində belə qanun pozuntularına yol verilmişdir.

Qanunvericilikdə nəzərdə tutulmuş bir sıra əməliyyat-axtarış tədbirləri insanların güdülməsi, telefon danışıqlarına qulaq asılması, nəzarətli göndəriş və.s . həyata keçirilməsi uzun müddət tələb edilir. Qeyd olunan əməliyyat axtarış tədbirlərini, əməliyyat –axtarış tədbirlərinin xüsusi bir növü kimi qəbul edilməlidir. Onların müstəqil əməliyyat-axtarış tədbiri kimi nəzərdə tutulması, ondan irəli gəlir ki, bu tədbirlərin həyata keçirilməsi insanların konstitusion hüquqlarının məhdudularşması ilə müşahidə olunur. Ona görə də bu tədbirlərin həyata keçirilməsi üçün məhkəmənin qərarının olması zəruridir.

Telefon danışıqlarına Qulaq asılması təxirəsalınmaz hərəkət kimi məhkəmənin qərarı olmasını nəzərə alıb hesab edirik ki, burada müəyyən fikir mübadiləsinə ehtiyac vardır. Belə ki, məhkəmə təcrübəsindən göründüyü kimi telefon danışıqlarına uzun müddət Qulaq asılması nəzərdə tutulmuşdur.

*Telefon danışıqlarına qulaq asılması haqqında*
*QƏRAR*[1]

---

[1] Ağır Cinayətlərə Dair İşlər Üzrə hərbi məhkəmələrin arxivi.
[1] Xətai rayon Məhkəməsinin arxivi.



downloaded from KitabYurdu.az

*Bakı şəhər 22 iyun 2005-ci il*

*Xətai rayon məhkəməsinin hakimi _____________*

*Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin ibtidai araşdırılması Departamenti istintaq şöbəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi ədliyyə müşaviri ______ ___ saylı Cinayət işi üzrə telefon danışıqlarına qulaq asılması haqqında 14 iyun 2005-ci il tarixli vəsatətinə və Azərbaycan Respublikasının Baş prokuroru 1 dərəjəli dövlət ədliyyə müşaviri ____ 20 iyun 2005-ci il tarixli təqdimatına baxaraq,*

*Müəyyən etdi:*

*Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında vergi Cinayətlərinin ibtidai araşdırılması Departamenti istintaq şöbəsinin xüsusi ilə mühüm işlər üzrə müstəntiqi ədliyyə müşaviri _________14 iyun 2005-ci il tarixli vəsatətinə əsasən Azərbaycan Respublikasının Baş prokuroru 1 dərəjəli dövlət ədliyyə müşaviri _____ 20 iyun 2005-ci il tarixli təqdimatla məhkəməyə müraciət edərək ____ saylı Cinayət işi üzrə telefon danışıqlarına qulaq asılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.*

*Təqdimatdan görünür ki, Məməmədova Sevil Xanlar qızı bir qrup şəxslə qabaqjadan əlbir olaraq, etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgəsinin küllü miqdarda əmlakını ələ keçirməklə dələduzluq etmiş, tamah niyyəti ilə hüquq verən rəsmi sənədi saxtalaşdıraraq istifadə etmişdir.*

*Azərbaycan Respublikasının DIN-nin Baş əməliyyat Statistik Informasiya Idarəsindən verilən məlumatdan görünür ki, 30 avqust 1967-ci il təvəllüdlü Məməmədova Sevil Xanlar qızı AZE seriyalı P-923051 №-li pasportu ilə 02 may 2005-ci il tarixdə samur Nəzarət Buraxılış Məntəqəsindən Azərbaycan Respublikasının hüdudlarını tərk etmişdir.*

*Istintaq zamanı müəyyən edilmişdir ki, S.Məmmədova istintaqdan gizləndiyi müddət ərzində gizləndiyi yerdən 050 343-85-81, 055-788-75-13 nömrəli mobil telefonlara zəng edib əlaqə saxlaya bilər.*



downloaded from KitabYurdu.az

*Ona görədə S.Məmmədovanın gizləndiyi yer və onun əlaqələri barədə məlumatları əldə etmək məqsədi ilə 3 ay ərzində yuxarıda qeyd olunan telefonlar vasitəsi ilə struktur təşkilatı vasitəsi ilə qulaq asılması zərurəti yaranmışdır.*

*Göstərilənlərə əsasən, «Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanunun» 10-ju və AR CPM-nin 442-443, 446-448 və 454-cü maddələrini rəhbər tutaraq*

*Q Ə R A R A  A L D I M:*

*___ saylı Cinayət işi üzrə AR CPM-nin 178.3.2-ci və 320.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində jəlb edilmiş və axtarışda olan L.X.Məmmədova gizləndiyi yeri və və onun əlaqələri barədə məlumatları əldə etmək məqsədi ilə 3 ay ərzində 050 443-85-81, 055-688-75-13 nömrəli mobil telefonları ilə aparılan danışıqlara qulaq asılsın.*

*Aparılan danışıqları qulaq asılması Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə həvalə edilsin.*

*Qərardaddan Xətai rayon məhkəməsi vasitəsi ilə qərar elan edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikası Apellyasiya məhkəməsinin Cinayət və Inzibati hüquqpozmalara dair işlər üzrə Məhkəmə Kollegiyasına apellyasiya şikayəti və protesti verilə bilər.*

Qeyd olunan qərarın məzmunundan göründüyü kimi telefon danışığına 3 ay qulaq asılmalı və tədbir həyata kecirildikdən sonra məhkəməyə və prokurora məlumat verilməlidir.

Hesab edirik ki, «üğüdşnnfe-fçefkgj aüfdşnnüeştşt ıqinuledükş rünfef luöşkşdğşj eüvişkdük ifküıştvü **üğüdşnnfe-fçefkgj tədbirinin həyata kecirilməsi başlandığı dəqiqədən 48 ıffe ükəştvü** ğürlüğü tüəfküeştş rünfef luöşküt ğürlüğünü mü şieşvfş fkfjvgkğfnf zkhıuıı fqd küriükdşnş rünfef luöşküt zkhlqkhkf üıfıdftvgkgdğgj yükfkg eüyvşğ ueğüdşvşkdük».



downloaded from KitabYurdu.az

İ.A.Kolokolov göstərir ki, tə'xirəsalınmaz tədbirlər anlayışı geniş anlayış olduğu üçün və belə hallarda yol verilmiş nöqsanları yalnız prokuror nəzarəti vasitəsi ilə müəyyən etmək lazımdır.[1] Ona görə ki, belə hərəkətlərdən məhkəməyə şikayət etmək işlənilməmişdir. Bu fikirlə hesab edirəm ki, razılaşmaq olmaz. Mövcud cinayət mühakimə icraatına görə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlər məhkəmə nəzarətinin predmetinə daxildir. Məhkəmə ədalət mühakiməsini həyata keçirən yeganə orqan olsa da istintaq, prokurorluq və ƏAO-nın fəaliyyəti məhkəmə qarşısında duran vəzifələrin yerinə yetirməsinə yaxından kömək etməlidir.

Rusiya Ali Məhkəməsinin Plenumu 24 dekabr 1993-cü ildə məhkəmələrə töfsif etmişdir ki, vətəndaşların hüquq və azadlıqlarının pozulması ilə əlaqədar həyata keçirilən əməliyyat axtarış tədbirlərindən və tədbirləri həyata keçirən vəzifəli şəxslərin hərəkətlərində şikayətləri icraatlarına qəbul etsinlər.

Materiallara baxış yeri. Əməliyyat axtarış tədbiri kecirilərkən vətəndaşların şəxsi həyat sirri barəsində konstitusion hüquqlarının məhdudlaşdırılması haqqında materiallara baxış, bir qayda olaraq, belə tədbirlərin kecirildiyi yer üzrə, yaxud onların kecirilməsi haqqında vəsatət qaldırmış orqanın yerləşdiyi yer üzrə məhkəmə tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının CPM-nın 442.1. maddəsində qeyd edilir ki, məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata kecirildiyi yer üzrə səlahiyyəti daxilində muvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata kecirilir. Hakimin belə materialların təqdim olunması halında onlara baxmaqdan imtina etmək hüququ yoxdur.

Bu normativ göstərişdən üc qayda irəli gəlir:

---

[1] Колоколов Н.А. Судебный контроль в стадии предварительного расследования М., 2004 г., с. 80.



downloaded from KitabYurdu.az

1) daxil olmuş materiallara Qanunveriçi, yaxud içraediçi hakimiyyət orqanları deyil, məhkəmə (yəni qanunla müəyyən olunmuş qaydada çinayət, mülki və inzibati işlərə baxış və onların həlli formasında ədalət mühakiməsini həyata keçirən Azərbaycan Respublikası məhkəmə sisteminin müvafiq orqanı) tərəfindən baxılmalıdır;

2)vətəndaşın konstitusion hüquqlarının məhdud-laşdırılması haqqında vəsatətlə birlikdə materiallara, ümumi qaydaya görə, birinçi instansiya məhkəmələri (yəni rayon məhkəmələri və onlara bərabər tutulan məhkəmələr) tərəfindən baxılmalıdır;

3) əməliyyat axtarış orqanı rəhbəri əməliyyat axtarış tədbiri kecirilməsinə vəsatət ücün birinci növbədə konkret əməliyyat axtarış tədbirinin həyata kecirildiyi yer üzrə məhkəməyə müraciət etməlidir.

Müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə «sanksiya» almaq üçün həmin tədbirlərin aparılması nəzərdə tutulan rayonda fəaliyyət göstərən məhkəməyə müraciət olunmalıdır. Lakin burada yenə də belə bir sual yaranır ki, bu göstəriş, məsələn, həyata keçirilməsi üçün məhkəmənin qərarı tələb olunan insanların güdülməsi kimi əməliyyat-axtarış tədbirnin aparılması ilə bağlı əməliyyat-axtarış fəaliyyəti təcrübəsinə cavab verirmi?

Məlumdur ki, həmin tədbirin aparılması planlaş-dırılarkən, obyektin hansı istiqamətdə hərəkət edəcəyini öncədən görmək praktiki olaraq mümkün deyildir. Məsələn, məxfi müşahidə həyata keçirilən zaman o, şəhərin bir rayonundan digərinə keçə, yaxud ümu-miyyətlə yaşayış məntəqəsinin hüdudlarından kənara çıxa bilər. Bu səbəbdən, məxfi müşahidə obyektinin hərəkət marşrutu barədə səhih məlumatlara malik olmayan əməliyat işçinin "sanksiya" alınması üçün tələb olunan materialların təqdim edilməli olduğu məhkəməni müəyyən etmək real imkanı yoxdur. Digər tərəfdən, göstərilən əməliyyat-axtarış tədbirinin məhkəmənin qərarı olmadan həyata keçirildiyi və məxfi müşahidə obyektinin, misal üçün, Bakıdan Qazaxa kimi,



downloaded from KitabYurdu.az

yəni Azərbaycan Respublikasının bir neçə inzibati vahidinin ərazisi ilə hərəkət etdiyi təqdirdə əməliyyat-axtarış orqanının qərarı hansı rayonun (şəhərin) məhkəməsinə təqdim edilməlidir? Hazırda qüvvədə olan cinayət-prosessual və əməliyyat-axtarış qanunvericiliyinin normaları bu suallara cavab vermir.

N.A.Kolokolov göstərir ki, vətəndaşların konstitusion hüquqları ilə əlaqədar əməliyyat axtarış tədbirinin keçirilməsinə məhkəmə qərarının alınması Rusiyanın bütün ərazisində mümkündür. Belə ki, əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqan və onun bölmələri ölkənin bütün ərazisində fəaliyyət göstərir.[1]

R.Mansurov göstərir ki, yaranmış vəziyyətdən çıxış yolu cinayət-prosessaul qanununun 442-ci maddəsinə məhkəmə nəzarətinin həyata keçirilməsinin və müvafiq əməliyyat-axtarış tədbirlərinin aparılmasına «sanksiya» verilməsinin əməliyyat-axtarış orqanlarının yerləşdiyi rayonda fəaliyyət göstərən məhkəmənin üzərinə qoyulmalı olduğu barədə dəyişikliklər edilməlidir. Nəzərə alsaq ki, Azərbaycan unitar dövlətdir, həmin məhkəmə tərəfindən qəbul edilmiş qərar respublikanın bütün ərazisində hüquqi qüvvəyə malik olacaqdır.[2]

Hesab edirik ki, belə tədbirin kecirilməsi haqqında **vəsatət qaldırmış orqanın yerləşdiyi yer üzrə** fəaliyyət göstərən məhkəmə tərəfindən həyata keçirilməlidir

Hakim tərəfindən əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi barədə materiallara baxılması qaydası və bununla əlaqədar onun qəbul etdiyi qərarlar cinayət-prosessaul qanununun 447-ci və 448-ci maddələri ilə nəzərdə tutulmuşdur. Qərar qəbul edən subyekt (ma-teriallara baxan

---

[1] Колоколов Н.А. Судебный контроль в стадии предварительного расследования М., 2004 г., с. 70.

[2] R. Mənsurov. Azərbaycan Respublikası Millik Təhlükəsizlik Orqanlarının Əmaliyyat axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, “Adiloğlu” Nəşriyyatı, 2005-ci il. 176 səh.



downloaded from KitabYurdu.az

vəzifəli şəxs). Azərbaycan Respublikası CPM-nin 442.3 maddəsinə görə vəsatət, təqdimat və şikayətlərə məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəmənin hakimi tərəfindən təkbaşına baxılır. Bununla birlikdə, hakim daxil olmuş operativ-xidməti sənədlərə baxılması üzrə konkret səlahiyyətləri, bir qayda olaraq, müvafiq məhkəmənin sədrindən alır. Materiallara növbətci hakim tərəfindən baxılması variantı da istisna olunmur.

Hakim əməliyyat axtarış orqanının vəsatətinə və prokurorun təqdimatına mahiyyəti üzrə baxaraq hüquqi əhəmiyyətli qərar qəbul etmək vəzifəsinə və hüququna malikdir. Onun razılığı ilə operativ-xidməti sənədlərin öyrənilməsində ƏAT-nin kecirilməsi haqqında vəsatət qaldırmış əməliyyat axtarış orqanının nümayəndəsi iştirak edərək, zəruri izahatlar verir.

Azərbaycan Respublikası CPM-nin 447.1, 447.2 maddəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirməsinə dair muraciətlərə materiallar məhkəməyə daxil olduqdan sonra 24 saat müddətinə qapalı məhkəmə iclasında baxılır. F.Məmmədov və M.Mustafayev göstərirlər ki, məhkəməyə materiallar daxil olduqdan sonra dərhal baxıılmalıdır.[1] Rusiya Federasiyasının əməliyyat axtarış fəaliyyəti haqqında qanunda da materiallara dərhal baxıılması göstərilmişdir. Materiallara hakim tərəfindən dərhal baxılması o deməkdir ki, əməliyyat axtarış orqanının vəzifəli şəxsi, prokuror dərhal, təxirə salınmadan hakim tərəfindən qəbul edilməli, hakim ƏAT-nin kecirilməsinə dair operativ-xidməti materialları qəbul etməli və onlara baxmalıdır. Hesab edirik ki, qanunda 24 saat müddət göstərilməsi məqsədə müvafiq olmaqla zəruridir.

Həmin iclasda yalnız hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi və ibtidai araşdırmaya prosessual

---

1 Məmmədov F., Mustafayev M. Cinayət Axtarış hüququnun əsasları. Bakı, Hərbi Nəşriyyat, 2002, s. 66.



downloaded from KitabYurdu.az

rəhbərliyi həyata keçirən orqanın səlahiyyətli şəxsi və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror iştirak edirlər (mad. 447.4).

Materiallara baxışın gedişi. Azərbaycan Respublikası CPM-nin 447.7 maddəsində qeyd edilir ki, ƏAT-nin həyata keçirməsinə dair məsələlərə üzrə məhkəmə icrası aşağıdakı ardıcıllıqla aparılır:

-hakim məhkəmə ıclasını açır, hansı müraciətə baxılmasını e'lan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır, onlara huquq və vəzifələrini izah edir

- vəsatət vermiş şəxs öz vəsatətini şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir

- ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz yekun sözündə məhkəmədə vəsatətin tə'min və ya rədd edilməsini təklif edir, bu zaman prokuror özünün məhkəməyə göndərdiyi təqdimatdan imtina etmək hüququna malikdir

Qeyd olunduğu kimi məhkəmə iclasında ilk növbədə prokuror və əməliyyat axtarış orqanı rəhbərinin hakimə daxil olmuş qərarının əsaslılığının öyrənilməsindən ibarətdir. Bununla birlikdə, əməliyyat axtarış fəaliyyəti haqqında Qanuna və CPM-nə görə hakimin tələbi üzrə ona əməliyyat axtarış tədbiri kecirilməsinin əsaslarına aid digər materiallar da təqdim oluna bilər (siyahısı müəyyən olunmuş məlumatlar istisna olmaqla).

Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələsinə dair məhkəmə iclasının nəticələri üzrə hakim verilmiş vəsatətin təmin və ya rədd edilməsi barədə qərar çıxarır və onu həmin iclasda iştirak edən şəxslərə dərhal elan edir (mad. 447.7.5, 448.1).

Azərbaycan Respublikası CPM-nin 448.1 maddəsində qeyd edilir ki, əməliyyat axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim müvafiq əməliyyat axtarış tədbirinin keçirilməsinə icazə verir



downloaded from KitabYurdu.az

və ya onun kecirilməsindən imtina edir, bu barədə əsaslandırılmış qərar qəbul edir.

Göstərilən qərarın surəti bu qərar çıxarıldıqdan sonra üç gündən gec olmayaraq vəsatəti vermiş əməliyyat işçisinə və ibtidai araşdırmaya prosessaul rəhbərliyi həyata keçirən prokurora göndərilir (mad. 448.6). Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair vəsatətin rədd edilməsi barədə hakim tərəfindən qərar çıxarılarsa, məhkəməyə təkrar müraciətə bu tədbirin aparılmasının zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir (mad. 448.8).

Beləliklə, istənilən qərarı qəbul etdikdə hakim əsaslandırılmış qərardad cıxarmalıdır. Məsələn, onun təqdim olunmuş qərarın operativ bölməsində (istər içazə verən, istərsə də qadağan edən) dərkənar qoymaqla kifayətlənmək hüququ yoxdur.

Hakimin qərarında aşağıdakılar göstərilməlidir:

- qərarın tərtib edildiyi tarix vaxt və yer;

- hakimin soyadı, adı, atasının adı və vəzifəsi;

- vəsatət vermiş şəxsin və prokurorun soyadları, adları, atalarının adları və vəzifələri;

- qərarın mahiyyəti (müvafiq əməliyyat axtarış orqanı hansı konkret əməliyyat axtarış tədbirinin keirilməsinə icazə verməyi xahiş edir; hansı materiallar təqdim olunub; onların əsasında əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun müvafiq maddələri ilə nəzərdə tutulmuş şərtlərin mövcudluğu nəticəsinə gəlmək olarmı və s.)

-Qərarın qüvvədə olma müddəti;

Rusiya Federasiyası əməliyyat axtarış fəaliyyəti haqqinda Qanun tələb edir ki, qərarın əsli və əməliyyat axtarış orqanından alınmış operativ-xidməti sənədlər istisnasız olaraq qaytarılmalıdır. Özü də möhürlə təsdiqlənmiş qərar ƏAT-nin kecirilməsinin təşəbbüsçüsü-nə verilərək, eyni zamanda, təqdim olunmuş materiallar da qaytarılır.

Zərurət yarandıqda qərarın surətləri çıxarıla bilər (onların sayı faktiki tələbatla müəyyən olunur), həmin surətlər məxfi kargüzarlıq qaydaları əsasında qeydiyyata götürülür və



downloaded from KitabYurdu.az

saxlanılır. Hesab edirik ki, bu fikirlə tam razılaşmaq olmaz. Məhkəmədə baxılan bütün işlərin əsilləri məhkəmədə saxlandığı üçün, bu kateqoriya üzrə çıxarılmış məhkəmə qərarları məhkəmənin arxivində qalmalıdır.[1]

Qərar mütləq qaydada möhürlə təsdiqlənməlidir, yəni onun mətninin üzərində (bir qayda olaraq, hakimin imza etdiyi yerdə) hakim əməliyyat axtarış tədbirinin keçirilməsinə sanksiya vermiş məhkəmənin gerbli möhürünün aydın görünən ottiski qoyulmalıdır.

Təqdim olunmuş materialların mahiyyəti üzrə qərarın (qərardadın) qüvvədə olma müddəti. "Əməliyyat axtarış fəaliyyəti haqqında" Qanunun 14-ci maddəsinə görə, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti sutka ilə onun qəbul edildiyi gündən etibarən hesablanır və qərarın özündə başqa hal nəzərdə tutulmadıqda, altı aydan artıq ola bilməz. Bu zaman müddətin gedişi dayandırılmır.

Hakimin çıxardığı qərarın qüvvədə olduğu müddət dedikdə əməliyyat axtarış fəaliyyəti haqqında qanuna görə əməliyyat bölməsinin vətəndaşın konstitusion hüququnu məhdudlaşdıran konkret əməliyyat axtarış tədbirini həyata keçirmək səlahiyyətinə malik olduğu müddət başa düşülür. Müddətin həm sutka ilə, həm də ayla hesablanması nəzərdə tutulmuşdur.

Hakimin çıxardığı qərarın qüvvədə olma müddəti, ilk növbədə, onun qəbul edildiyi gündən etibarən sutka ilə hesablanır. Bu halda hakimin qərarı çıxardığı saat və gün hesaba alınmır. Qərarın qüvvədə olma müddəti sonuncu sutka gecə saat 12-də başa çatır.

Əməliyyat axtarış tədbirinin içrası müddətinin gedişi nə onun keçirilməsinin təşkilindən, nə də cinayət işi üzrə cinayət-prosessual içraatdan asılı deyildir. Bu, o deməkdir ki, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti icazə verilmiş əməliyyat axtarış tədbirinin təxirə salınması, dayandırılması,

[1] Рушайло В.Б. Основы оперативно - розыскной деятельности Санк-Петербург 2002.



downloaded from KitabYurdu.az

yaxud onun həyata keçirilməsinə xitam verilməsi və ya cinayət işi üzrə içraat müddətinin başa çatması (cinayət hadisəsi, yaxud tərkibi olmadığına görə işə xitam verilməsi istisna olmaqla) ilə əlaqədar kəsilə (dayandırıla, uzadıla) bilməz.[1]

Bundan başqa, hakimin çıxardığı qərarın qüvvədə olma müddəti, qərarın özündə başqa hal nəzərdə tutulmadıqda, altı aydan artıq ola bilməz. Bu halda müddət ayın istənilən günündə, ayın müvafiq günü olmadıqda isə həmin ayın sonuncu sutkasında başa çatır.

Qanunverici qərarın özündə müvafiq göstərişin bilavasitə göstərilməsi şərtilə müddətin altı aydan artıq olmasına yol verir. Bir qayda olaraq, vətəndaşın konstitusion hüququnun adi müddətdən daha artıq müddətə məhdudlaşdırılması davamlı cinayətlər araşdırıl-dıqda, həmçinin konkret əməliyyat-axtarış vəziyyəti üçün xarakterik olan digər hallar nəzərə alınmaqla baş verir. Özü də bu halda hakimin çıxardığı qərarın qüvvədə olma müddətinin son həddi əməliyyat axtarış fəaliyyəti haqqında Qanunda müəyyən olunmamışdır.

Təqdim olunmuş materialların mahiyyəti üzrə qərarın (qərardadın) qüvvədə olma müddətinin uzadılması qaydası. Azərbaycan Respublikası CPM-nin 448.8 maddəsinə görə, əməliyyat axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə dair vəsatətin rədd edilməsi barədə hakim tərəfindən qərar çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq əməliyyat axtarış tədbirlərinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir. Hesab edirik ki, qərarın qüvvədə olma müddətinin uzadılması zərurəti yarandıqda yeni təqdim olunmuş materiallar əsasında məhkəmə qərarı çıxarılmalıdır. Belə materiallar dedikdə, ilk növbədə, müəyyən müddət ərzində əməliyyat axtarış tədbirinin davam etdirilməsinin zəruriliyi haqqında əsaslı və əsaslandırılmış vəsatətin açıqlandığı qərar başa düşülməlidir. Qərarla yanaşı, hakimə qərarın qüvvədə olma müddətinin

---

[1] Хамкоров В.П. Организация управленя оперативно-розыскной деятельностью: системный подход. Москва, «Закон и право», Юнити, 1999 г.



downloaded from KitabYurdu.az

uzadılması tələbatının həqiqətən mövcud olduğunu təsdiqləyən operativ-xidməti sənədlərin təqdim edilməsi zəruridir. Ona o cümlədən keçirilən əməliyyat axtarış tədbiri nəticəsində əldə olunmuş faktiki informasiyanın göstərildiyi arayış təqdim olunur.

Bundan başqa, hakimə mütləq qaydada əvvəl ona ünvanlanmış operativ-xidməti sənədlər (əməliyyat axtarış tədbirinin keçirilməsi haqqında qərar və s.) təqdim olunur.

Prokurorluq orqanlarının məlumatları əsasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış bülletendə göstərilir ki, 2004-ci ilin 1-ci yarısında axtarış və götürmə aparılmasına icazə üçün məhkəməyə 362 təqdimat verilmiş və 356-sı təmin edilmişdir. Prokurorluğun müstəntiqləri tərəfindən 59 təqdimat verilmiş 55-şi təmin edilmişdir. DİN-nin müstəntiqləri tərəfindən 270 təqdimat verilmiş 268-i təmin edilmişdir. Sanksiyasız axtarış və götürmə aparılmasına icazə üçün məhkəməyə 85 təqdimat verilmişdir. Prokurorluğun müstəntiqləri tərəfindən 43 təqdimat və DİN-nin müstəntiqləri tərəfindən 27 təqdimat verilmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış Azərbaycanda cinayətkarlıq və hüquq pozmalar 2004-ci il statistik məcmuədə göstərilir ki, 2001-ci il tarixdə axtarış və götürmə aparılmasına icazə üçün MTN-nin müstəntiqləri tərəfindən 36 təqdimat verilmiş 36-sı təmin edilmişdir. DGK-nin müstəntiqləri tərəfindən 1 təqdimat verilmiş 1-i təmin edilmişdir.Vergilər nazirliyi tərəfindən 40 təqdimat verilmiş 40-ı təmin edilmişdir. 2002-ci il tarixdə axtarış və götürmə aparılmasına icazə üçün MTN-nin müstəntiqləri tərəfindən 31 təqdimat verilmiş 31-ri təmin edilmişdir. DGK-nin müstəntiqləri tərəfindən təqdimat verilməmişdir.Vergilər nazirliyi tərəfindən 50 təqdimat verilmiş 50-sı təmin edilmişdir. 2003-ci il tarixdə axtarış və götürmə aparılmasına icazə üçün MTN-nin müstəntiqləri tərəfindən 46 təqdimat verilmiş 46-sı təmin edilmişdir. DGK-nin müstəntiqləri tərəfindən 3 təqdimat verilmiş 3-ü təmin edilmişdir.Vergilər nazirliyi tərəfindən 34 təqdimat verilmiş



downloaded from KitabYurdu.az

34-dü təmin edilmişdir. Sanksiyasiz axtarış və götürmə aparılmasına icazə üçün 2001-ci il tarixdə MTN-nin müstəntiqləri tərəfindən 5 təqdimat verilmişdir.[1]

Statistik məlumatlardan göründüyü kimi təqdimatlar əsasən DİN tərəfindən verilir. Lakin verilmiş təqimatlardan məlum olmayır ki, hansı səbəblərdən təqdimatlar təmin və ya təmin edilməmişdir. Yuxarıda qeyd edildiyi kimi həm Azərbaycan Respublikası Ali Məhkəməsində. həm Azərbaycan Respublikası Prokururluğunda , həm də əməliyyat- axtarış fəaliyyətini həyata keçirən nazirlik və komitələrdə əməliyyat-axtarış tədbirlərinin keçirilməsi ilə əlaqədar statistik rəqəmlər, hesabatlar kargüzarlıq sənədlərində öz əlksini tapmamışdır. Qeyd edildiyi kimi əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin gələcəkdə təkmilləşdirilməsi ilə əlaqədar verilən təkliflər nəzərə alınıb çatışmamazlıqlar aradan qaldırılacaqdır.

[1] Azərbaycan Respublikası Statistika Komitəsi 2004 məcmuəsi.



downloaded from KitabYurdu.az

## § 2. Məhkəmə nəzarəti qaydasında işlərə yenidən baxılması

Əməliyyat-axtarış tədbirinin aparılması məsələsinə dair qərarından şikayət verilməsi, habelə onun qanuni-liyinin və əsaslığının yoxlanılması cinayət-prosessual qanununun 122, 452, 453 və 454-cü maddələrindən nəzərdə tutulmuş qaydada həyata keçirilir. Sadalanan normalara müvafiq olaraq, birinci instansiya məhkə-məsinin (hakimin) qərarından yuxarı məhkəməyə şikayət verilə bilər. Ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əməliyyat-axtarış tədbirinin aparılması barədə vəsatətlərin müdafiə edilməsindən imtina haqqında qərarlarından, əməliyyat-axtarış fəaliy-yətinin subyektləri tərəfindən şikayət verilməsinə gəl-dikdə isə, bu məsələ cinayət-prosessual qanununun 122-ci maddəsində və «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinin birinci hissə-sində nəzərdə tutulan qaydada həll olunur. Həmin qay-daya əsasən, prokurorluq işçilərinin hərəkətlərindən (hərəkətsizliyindən) və aktlarından müvafiq olaraq yuxarıda prokurora və ya məhkəməyə şikayət verilə bilər.

Məhkəmə nəzarətinin həyata keçirilməsi haqqında işlərə baxılması qaydası Azərbaycan Respublikası CPM- də nəzərdə tutulmuş qaydada həyata keçirilir. Barəsində qərar çıxarılımış fiziki şəxs, onun müdafiəçisi çıxarılmış qərarlardan şikayət, prokuror isə protest verə bilər.[1] Məhkəmə nəzarəti qaydasında olan işlər üzrə qərarlardan şikayət və protest şəklində hakimin qərarından Apellyasiya instansiya məhkəməsinə aşağıdakı qaydada verilir:

1.Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından yuxarı səlahiyyətli orqana vəzifəli şəxsə həmçinin məhkəməyə şikayət və protest verilə bilər.

2.Məhkəmə nəzarətini həyata keçirən işlər üzrə qərardan verilən şikayət və prokurorun protesti həmin qərarı qəbul etmiş

---

[1] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. 1 sentyabr 2000-ci il.



downloaded from KitabYurdu.az

hakimə ( səlahiyyətli orqanının vəzifəli şəxsinə) verilir. CPM –nin452-ci maddəsinə görə məsələnin baxılmasına aid olan materiallar təxirə salınmadan Apellyasiya məhkəməsinə göndərilməlidir.

Hakim, səlahiyyətli orqan, vəzifəli şəxs qərarın çıxardığı gündən yaxud qərar təqdim edildiyi vaxtdan 3 gün müddətinə şikayəti və protesti iş üzrə bütün materiallarla birlikdə Apellyasiya məhkəməsinə yaxud yuxarı səlahiyyətli orqana göndərilməsini məqsədə müvafiq sayırıq.

3.Azərbaycan Respublikası CPM-nin 442.4.1də göstərilir ki, hakimin çıxardığı qərarlara, yəni əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hüquq və azadlıqları məhdudlaşdırılan şəxsin şikayəti üzrə; 442.4.2 maddəsində isə qeyd edilir ki, ibtidai araşdırmaya prosessual rəhbərliyi və ya əməliyyat -axtarış fəaliyyəti üzərində nəzarəti həyata keçirən prokurorun protesti üzrə apellyasiya instansiya məhkəməsi işlərə yenidən baxa bilər.

4.Məhkəmə nəzarəti haqqında olan işlər üzrə qərardan verilən şikayətin və ya protestin baxılmasına hazırlıq zamanı hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən aşağıdakı məsələlər həll olunur:

- Məhkəmə nəzarəti haqqında olan iş həmin hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) aiddirmi;
- Məhkəmə nəzarəti haqqında olan işlər üzrə icraatı rədd edən hallar mövcuddurmu;
- Vəsatətlərə baxılıb, şikayətin və protestin baxıl-ması üçün lazımı şəxslər çağırırlar.
- Məhkəmə nəzarəti haqqında olan işlər üzrə verilmiş şikayət və protest apellyasiya instansiya məhkəmsində Cinayət və Inzibati hüquqpozmalara dair işlər üzrə Məhkəmə Kollegiyasında baxılır. Azərbaycan Respublikası CPM-nin 454-cü maddəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair məhkəmə qərarlarından hakimin qərarından şikayət verilməsi və onun qanuniliyinin, əsaslılığının yoxlanılması Məcəllənin 452-ci və 453-cu maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.



downloaded from KitabYurdu.az

Hesab edirik ki, Qanunvericiliyin bu tələbi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar çıxarılmış qərarlardan şikayət və protest verilməsi arasında müəyyən fərqlər olunmalıdır. Azərbaycan Respublikası CPM-nin 452-ci maddəsində göstərilir ki, qərar elan olunduqdan sonra 3 gün müddətində təqsirləndirilən şəxsin müdafiəçisi, habelə zərərçəkmiş şəxsin qanuni nümayəndəsi tərəfindən isə şikayət və prokuror tərəfindən protest verilə bilər. Məhkəmə təcrübəsinə nəzər salsaq aydın olar ki, Qanunvericiliyin bu tələbinin həyata keçirilməsi qeyri mümkündür. Məsələn aşağıda göstərilən məhkəmə Qərarının müzakirə edilməsini zəruri hesab edirik.

*QƏRAR*[1]
*(telefon danışıqlarının kompüter çıxarışlarının götürülməsi haqqında)*

*Bakı şəhəri 22 iyun 2005-ci il.*

*Xətai rayon Məhkəməsinin hakimi*

*Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması Departamenti istintaq şöbəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi ədliyyə müşaviri _________ N°-li cinayət işi üzrə telefon danışıqlarının kompüter çıxarışlarının götürülməsi haqqında 14 iyun 2005-ci il tarixli vəsatətinə və Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri _____ 20 iyun 2005-ci il tarixli təqdimatına baxaraq*

***MÜƏYYƏN ETDİM:***

*Azərbaycan Respublikası Vergilər Naziriiyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması Departamenti istintaq şöbəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi ədliyyə müşaviri ________ 14 iyun 2005-ci il tarixli vəsatətinə əsasən Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri _________ 20 iyun 2005-ci il tarixli təqdimatla məhkəməyə müraciət edərək ______ N°-li cinayət*

[1] Xətai rayon Məhkəməsinin arxivi. 2005-ci il.



downloaded from KitabYurdu.az

*işi üzrə telefon danışıqlarının kompüter çıxarışlarının götürülməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.*

*Təqdimatdan görünür ki, Məmmədova Sevil Xanlarqızı bir qrup şəxslə qabaqcadan əlbir olaraq, etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgəsinin külli miqdarda əmlakını ələ keçirərək dəfəduzluq etmiş, tamah niyyətilə hüquq verən rəsmi sənədi saxtalaşdıraraq istifadə etmişdir.*

*Sevil Məmmədovanın istintaqa dəvət olunması üçün hələ 30 aprel, 01 may və 02 may 2005-ci il tarixlərdə dəfələrlə onun 050-443-85-81 N°-li, əri Fərid Məmmədovun 055-688-75-13 N°-li mobil və 8-100-6-15-48 N°-li ev telefonuna zəng olunmasına baxmayaraq, telefonlara cavab verən olmamış, istintaqa çağırılması barədə xəbərdar edilməsinə baxmayaraq Sevil Məmmədova istintaqdan gizlənmişdir.*

*Azərbaycan Respubiikası DİN-nin Baş Əməliyyat Statistik informasiya İdarəsindən verilən məlumatdan görünür ki, 30 avqust 1967-ci il təvəllüdlü Məmmədova Sevil Xanlar qızı AZE seriyalı P-923051 N°-li pasportu ilə 02 may 2005-ci il tarixdə Samur Nəzarət Buraxılış Məntəqəsindən Azərbaycan Respublikasının hüdudlarını tərk etmişdir.*

*İstintaq zamanı müəyyən edilmişdir ki, Məmmədova Sevil Xanlar qızı istintaqdan gizləndiyi müddət ərzində gizləndiyi yerdən 050-443-85-81 N°-li, 055-688-75-13 N°-li mobil və 8-100-6-15-48 N°-li nömrəli Sumqayıt şəhər telefonlarına zəng edib əlaqə saxlamaqla gizləndiyi yer barədə məlumat verə bilər.*

*Ona görə də 30 aprel 2005-ci il tarixdən hazırkı dövrədək olan müddət ərzində050-443-85-81 N°-li, 055-688-75-13 N°-li mobil və 8-100-6-15-48 N°-li ilə aparılmış danışıqların kompüter çıxarışları götürülməlidir.*

*Göstərilənlərə əsasən, «Əməliyyat-axtarış fəaliyyəti» haqqında Azərbaycan Respublikası Qanunun 10-cu və Azərbaycan Respublikası CPM-nin 442-443, 446-448 və 454-cü maddələrinəi rəhbər tutaraq*

***QƏRARA ALDIM:***



downloaded from KitabYurdu.az

*___ N°-li cinayət işi üzrə Azərbaycan Respublikası CM-nin 178.3.2-ci və 320.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş və axtarışda olan Məmmədova Sevil Xanlar qızının gizləndiyi yeri və onun əlaqələri barədə məlumatları əldə etmək məqsədi ilə 30 aprel 2005-ci il tarixdən hazırkı dövrədək olan müddət ərzində 050-443-85-81 N°-li, 055-688-75-13 N°-li mobil və 8-100-6-15-48 N°-li ilə aparılmış danışıqların kompüter çıxarışları götürülsün.*

*Götürmənin aparılması Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması Departamentinin əməkdaşlarına həvalə edilsin.*

*Qərardan Xətai rayon Məhkəməsi vasitəsi ilə qərar elan edildiyi gündən sonra 3 gün müddətində Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin Cinayət və İnzibati hüquqpozmalara dair işlər üzrə Məhkəmə Kollegiyasına apellyasiya şikayəti və protesti verilə bilər.*

***Xətai rayon məhkəməsinin hakimi:______***

Qərarın məzmunundan göründüyü kimi təqsirləndirilən şəxs olan S.X.Məmmədova məhkəmə iclasında iştirak etməmiş, verilmiş məhkəmənin qərarından xəbəri olmamış, ona qərar təqdim edilməmişdir. Belə bir halda qərardan onun şikayət etmək hüququ pozulmuş sayılmalıdır. Qanunvericilikdə belə olan halda nə vaxt şikayət edilməsi, hansı müddətdə edilməsi öz əksini tapmamışdır. Məhkəmənin hökmü olmadan təqsirsizlik prezumpsiyasını əsas götürərək hesab edirik ki, Qanunvericilikdə olan bu boşluq insanların hüquq və azadlıqlarının mənafeyinə toxunur.

Məhkəmə nəzarəti haqqında işlər üzrə qərardan verilən şikayət və protest apellyasiya instansiya məhkəməsində qapalı məhkəmə iclasında 3 hakimdən ibarət tərkibdə baxılır.[1] Məhkəmə iclası başlananadək apellyasiya məhkəməsi ona təqdim olunmuş bütün materialları əvvəlcədən öyrənir. Burada şikayətin və protestin baxılması kim tərəfindən verilməsi

---

[1] Abdullayev F.S. Apellyasiya Məhkəməsində cinayət mühakimə icraatının təkmilləşdirilməsi problemləri. Aftoreferat. 2006, s. 15.



downloaded from KitabYurdu.az

müəyyən edilməlidir. Azərbaycan Respublikası CPM-nin 453.5.1.-ci maddəsində göstərilir ki, hakimin qərarının qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:

1.Məhkəmə iclasında sədrlik edən məhkəmə iclasını açır, hansı qərardan verilmiş hansı şikayətə və ya protestə baxıldığını elan edir. Məhkəmə iclasının iştirakçılarının səlahiyyətlərini yoxlayır və onlara hüquq və vəziəfələrini izah edir.

2. Şikayəti və protesti vermiş şəxs öz müraciətini şifahi əsaslandırır, hakimlərin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir.

3. Hakimlər məhkəmə iclasının iştirakçılarına dəqiqləşdirmək üçün zəruri olan suallar verir.

4. şikayəti və protesti vermiş şəxslərin gəlməməsi halları olduğu zaman onun səbəbləri aydınlaşdırılır.

5. şikayətin və protestin həmin şəxslərin iştirakı olmadan baxılması məsələsini həll edir, yaxud işin baxılması təxirə salınır, zəruri hallarda şikayətin baxılması üçün zəruri hesab edilən sənədlərin və şəxslərin gətirilməsi barədə qərardad qəbul edilir.

6. Məhkəmə nəzarəti qaydasında işlər üzrə prokuror iştirak etdiyi hallarda prokurorun rəyi dinlənilir.

Hakimin qərarının qanuniliyinin və əsaslılığının yoxlanılması üzrə məhkəmə iclasının yekununda apellyasiya instansiya məhkəməsi aşağıdakı qərarlardan birini qəbul edir.

1. birinci instansiya məhkəməsinin qərarının dəyişdi-rilmədən saxlanılması barədə .
2. qərarın dəyişdirilib yeni qərar qəbul edilməsi haqqında.

Qərarın dəyişdirilib yeni qərar qəbul edilməsi haqqında Qanunvericilikdə konkret müddəa olmamasına baxmayaraq hesab edirik ki, belə bir qərar qəbul edilməlidir. Bu fikir əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar qəbul edilmiş qərarlara alimlər və hüquq mühafizə orqanı işçiləri arasında fikir mübadiləsi aparılmasını zəruri hesab



downloaded from KitabYurdu.az

etməklə Qanunvericilik qarşısında məsələ qaldırılması məqsədə müvafiqdir.

Məhkəmə təcrübəsi göstərir ki, əməliyyat-axtarış tədbirlərini həyata keçirilməsi ilə əlaqədar çoxlu sayda qanun pozuntularının olmasına baxmayaraq məhkəmələr tərəfindən xüsusi qərardadlar cüzi qaydada çıxarılır. Çıxarılmış xüsusi qərardadlar isə formal xarakter daşımaqla ciddi tədbirlər görülməyir. Aşağıdakı xüsusi qərara diqqət yetirməsini zəruri hesab edirik.

*Ağır Cinayətlərə Dair Işlər Üzrə*
*Azərbaycan Respublikasının Hərbi Məhkəməsi*
*Cinayət icraatı üzrə məhkəmə*
*baxışının nəticələrinə dair.*
*X Ü S U S I Q Ə R A R*[1]
*Bakı şəhər 13 mart 2001-ci il*
*Hakimlər*___________________________________
*Dövlət ittihamçısı*_____________________________

*Əhmədov Elməddin Adil oğlunun Azərbaycan Respublikası CM-nin 334.1 maddəsi ilə təqsirlən-dirilməsinə dair işə açıq məhkəmə iclasında baxaraq,*

*MÜƏYYƏN ETDI:*

*Əhmədov Elməddin Adil oğlu Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Hərbi məhkəməsinin 13 mart 2001-ci il tarixli hökmü ilə CM-nin 334.1 maddəsi ilə təqsirli bilinərək məhkum edilmişdir.*

*Məhkəmə istintaqı zamanı müəyyən edilmişdir ki, Əhmədov istintaq orqanından qaçıb gizləndiyinə görə Gəncə qarnizonu hərbi prokurorluğunun 8 noyabr 2000-ci il tarixli*

---

1 Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi.



downloaded from KitabYurdu.az

*qərarı ilə onun barəsində axtarış elan edilməklə, tutulduqda istintaqa təqdim olunması qərara alınmışdır.*

*Həmin qərar icra edilməsi ücün 8 noyabr 2000-ci il tarixdə Yardımlı rayon polis şöbəsinə göndərilmişdir.*

*Cinayət işinin materiallarından göründüyü kimi Əhmədov Yardımlı rayon polis şöbəsinin əməkdaşı ______ tərəfindən 13 dekabr 2000-ci il tarixdə Bakı şəhərində tutularaq, həmin gün saxlanılması üçün Yardımlı rayon polis şöbəsinə təhvil verilmişdir.*

*Yardımlı rayon polis şöbəsinin rəisi polis podpolkovniki ________Gəncə qarnizonu hərbi prokuroru _________ünvanlanmış 25 dekabr 2000-ci il tarixli məktubunda axtarışda olan ________13 dekabr 2000-ci il tarixdən tutularaq Yardımlı rayon polis şöbəsində saxlandığı qeyd edilməklə, onun prokurorluğun təcridxanasına qəbul edilməsi xahiş edilmişdir.*

*Əhmədovun 13 dekabr 2000-ci il tarixdən 25 dekabr 2000-ci il tarixədək, yəni 12 gün müddətində məhkəmənin bu barədə qərarı olmadan qanunsuz olaraq Yardımlı rayon polis şöbəsində saxlanılmış. 25 dekabr 2000-ci il tarixdə o, gəncə rayonu hərbi prokurorluğuna gətirilərək istintaqa təqdim edilmiş, bir sutka orada saxlanıldıqdan sonra, 26 dekabr 2000-ci il tarixdən Gəncə qarnizonu hərbi prokuroru _________tərəfindən Gəncə hərbi məhkəməsinə Əhmədovun haqqında həbs qətiimkan tədbirinin seçilməsinə dair qərar qəbul edilməsi barədə təqdimatla müraciət edilmişdir.*

*Gəncə hərbi məhkəməsinin 26 dekabr 2000-ci il tarixli qərarı ilə Əhmədovun barəsində həbs qətiimkan tədbiri seçilməklə həbsdə saxlanılma müddətinin əvvəli 13 dekab 2000-ci ildən hesablanmışdır.*

*Istintaq materiallarından və məhkəmənin qərarından göründüyü kimi Əhmədovun əsassız olaraq qeyri-qanuni 12 gün Yardımlı rayon polis şöbəsində, bir gün isə Gəncə qarnizonu hərbi prokurorluğunda saxlanılmışdır.*

*Halbuki Azərbaycan respublikası CPM-nin 150-ci maddəsinə əsasən ittihamı elan etmək üçün şübhəli şəxsin*



downloaded from KitabYurdu.az

*tutulması 48 saatdan artıq davam edilə bilməz. Tutulmuş şəxs barəsində həbs qətiimkan tədbirin seçilməsi məsələsi həll olunarkən o, tutulduğu andan 48 saat keçənədək məhkəməyə gətirilməlidir. Bu halda Yardımlı raon polis şöbəsinin rəisi və eləcə də həmin rayonun prokuroru tərəfindən Əhmədovun vaxtında istintaqa təqdim edilməsi üçün tədbir görülməli, bunu 48 saat müddətində etmək mümkün olmadığı təqdirdə dərhal onu həbsdən azad etməli idilər.*

*Məhkəmə Yardımlı rayon polis şöbəsinin rəisi __________təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən həmin rayonun prokuroru______, Gəncə qarnizonu hərbi prokuroru________, həmin prokurorluğun müstəntiqi ___________yuxarıda qeyd edilən qeyri-qanuni hərəkət və hərəkətsizliklərini Azərbaycan Respublikasının Baş prokuroruna və eləcə də Azərbaycan Respublikasının Daxili Işlər Nazirliyinə çatdırmağı məqsədəmüvafiq hesab edir.*

*Azərbaycan Respublikası CPM-nin 355-ci maddəsini rəhbər tutaraq məhkəmə*

*Q Ə R A R A A L D I:*

*Əhmədov Elməddin Adil oğlunun Azərbaycan Respublikası CM-nin 334.1 maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işinin istintaqı zamanı kobud qanun pozuntusuna yol vermiş Yardımlı rayon prokuroru______, Gəncə qarnizonu hərbi prokuroru _______, həmin prokurorluğun müstəntiqi________, Yardımlı rayon polis şöbəsinin rəisi ________hərəkətləri Azərbaycan Respublikası Baş prokuroruna və Azərbaycan Respublikası Daxili Işlər Nazirinə çatdırılsın.*

*Qərar qanunla müəyyən edilmiş qaydada müzakirə edilib tədbir görülməsi üçün Azərbaycan respublikasının Baş prokuroruna və Daxili Işlər Nazirinə göndərilsin.*

*Görülmüş tədbirlər barədə bir ay müddətinə Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsinə məlumat verilsin.*



downloaded from KitabYurdu.az

R.Mansurov göstərir ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə materiallara hakim tərəfindən baxılmasının yuxarıda göstərilən qaydası əməliyyat-axtarış fəaliyyətindəki prinsipinə tam dərəcədə cavab vermir (materiallara baxılmasının və onlara dair qərarın qəbul edilməsinin zaman etibarı ilə uzadılmış proseduru əməliyyat-axtarış tədbirinin vaxtında aparıl-masına mənfi təsir göstərə və əhəmiyyət kəsb edən məlumatların itirilməsinə gətirib çıxara bilər) və bu zaman yaranan bir sıra suallara da cavabsız qoyur. Məsələn, nəyə görə məhkəmənin qərarı elan edildikdən sonra müvafiq sənədin surəti əməliyyat işçisinə dərhal verilmir, əksinə olaraq *üç gündən gec olmayan müddətə* əməliyyat-axtarış orqanına göndərilir? Bu göstəriş əməliyyat-axtarış qanununun 13-cü maddəsinin II hissəsində əks olunmuş müddəa ilə də uzlaşmır. Həmin normaya görə, vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı əməliyyat işçisində bu tədbirlərin tətbiqinə dair müvafiq qərarın olması məcburidir. Digər tərəfdən, məhkəməyə təqdim edilmiş materiallara məhkəmədə qalmalı, yoxsa əməliyyat işçisinə qaytarılmalıdır? Məhkəmənin qərarı əsasında aparılan əməliyyat-axtarış tədbirlərinin müddətinin uzadılması hansı qaydada həyata keçirilir? Hazırda qüvvədə olan qanunvericilikdə bu suallara cavab olmadığı səbəbindən,yuxarıda göstərilən normativ hüquqi aktlara müvafiq dəyişiklik və əlavələrin edilməsini zəruri sayır.

F.Məmmədov və M.Mustafayev hesab edirlər ki, konstitusion hüquq və azadlıqların məhdudlaşdırılması ilə bağlı materiallara məhkəmə baxışı ədalət mühakiməsi hesab edilə bilməz. Çünki onun həyata keçirilməsi üçün aşkarlıq, çəkişmə və s. prinsiplər nəzərdə tutulmur. Obyektiv olaraq məhkəmə işin bütün hallarını bilavastə tədqiq etmək imkanina malik



downloaded from KitabYurdu.az

olmur. Bu fikirlə razılaşmaq olmaz.[1] Belə ki, Azərbaycan Respublikasinin 127-ci maddəsində qeyd edildiyi kimi məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Məhkəmə icrası qapalı aparılsada məhkəmədə tərəflər iştirak edir və ya etməlidir. Məhkəmə nəzarəti də əsasən ona görə lazımdır ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi təmin edilsin. "Məhkəmələr və hakimlər haqqında" qanunun 12-ci maddəsində göstərilir ki, bütün hallarda məhkəmənin qərarları aciq elan edilir. Bu mülahizələr alimlər arasında fikir ayrılıqına səbəb olduğu üçün ayrıca mövzunun predmetidir.[2]

ƏAF-ti haqqında qanun 1999-cu ildə qəbul edil-məsinə baxmayaraq, apardığımız müşahidələr göstərir ki, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitə-sində, Azərbaycan Respublikasının Daxili Işlər Nazirliyində, Azərbaycan Respublikasının Ali Məhkəmə-sində və digər məhkəmələrdə əməliyyat axtarış tədbirləri ilə əlaqədar ümumiləşdirmələr aparılmadığı ücün bu tədbirlərin aparılması ilə əlaqədar müəyyən materiallar alimlərə təqdim edilməməyini nəzərə alıb, hesab edirik ki, məhkəmə nəzarətinin həyata keçirilməsi ilə əlaqədar yol verilmiş pozuntular gələcəkdə aradan qaldırılacaq, qanunlarda olan müəyyən boşluqlar elmi təkliflər verilməklə öz həllini tapacaqdır.

---

[1] Məmmədov F., Mustafayev M. Cinayət Axtarış hüququnun əsasları. Bakı, Hərbi Nəşriyyat, 2002, s. 210.
[2] "Məhkəmələr və hakimlər haqqında" qanun. Bakı, 2000-ci il.



downloaded from KitabYurdu.az

## III Fəsil Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti
## § 1. Prokuror əməliyyat axtarış fəaliyyətinin subyekti kimi.

Azərbaycan Respublikası «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 20-ci maddəsində göstərilir ki, Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən Qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş Prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər.

Azərbaycan Respublikasının cinayət-prosessual və bəzi digər qanunlarının normalarına müvafiq olaraq, əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarəti aşağıdakı yollarla həyata keçirilir:

- hazırlanan, törədilən və ya törədilmiş cinayətlərə dair ərizə və məlumatların təhqiqat orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində cinayət-prosessual qanunun tələblərinə əməl olunması vəziy-yətinin yoxlanılması (AR CPM-in 84.5.1-ci mad., «Prokurorluq haqqında» AR Qanununun 18-ci mad. birinci hissəsi);

- insan və vətəndaşın hüquq və azadlıqlarını məh-dudlaşdıran əməliyyat-axtarış tədbirlərinin aparılmasına dair əməliyyat-axtarış fəaliyyəti subyektlərinin yazılı vəsatətlərinə baxılması (AR CPM-in 446.3, 446.4, 447.7.4-cü mad.,«Prokurorluq haqqında» AR Qanununun 18-ci mad. ikinci hissəsi);

- əməliyyat-axtarış orqanları tərəfindən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə qəbul edilmiş qərarların qanuniliyinin və əsaslığının yoxlanılması (AR CPM-in 445.2-ci mad.,) «Prokurorluq haqqında» AR Qanununun 18-ci mad. ikinci hissəsi);

- cinayət təqibi orqanlarının və ya məhkəmənin icraatında olan işlər üzrə onların tapşırıq və qərarlarının əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən icra olunmaması və ya lazımi səviyyədə icra olunmaması faktlarının yoxlanılması (AR CPM-in 319.3-cü mad.,)



downloaded from KitabYurdu.az

«Prokurorluq haqqında» AR Qanununun 18-ci mad. ikinci hissəsi);

- fiziki və hüquqi şəxslərin onların hüquq və qanuni mənafelərinin əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən pozulmasına dair müraciətlərinə baxılması (AR CPM-in 122-ci mad., «Prokurorluq haqqında» AR Qanununun 20-ci mad., «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR Qanununun 4-cü mad. IV və V hissələri, 20-ci mad. II hissəsi).

Prokurorluq nəzarətinin tərkibinə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı prokuror tərəfindən Azərbaycan Respublikasının müvafiq qanunları ilə nəzərdə tutulmuş təsir tədbirlərinin tətbiq edilməsi də daxildir. Bu funksiyanı həyata keçirmək üçün prokurora aşağıdakı hüquqlar verilmişdir:

-qanun pozuntularından çəkindirmək məqsədi ilə rəsmi xəbərdarlıq etmək («Prokurorluq haqqında AR Qanununun 22-ci mad.»);

- qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair təqdimat vermək («Prokurorluq haqqında AR Qanununun 23-ci mad.»);

-əməliyyat-axtarış fəaliyyəti subyektlərinin hərəkətlərində cinayətin əlamətlərini aşkar etdikdə, cinayət işi başlamaq (AR CPM-in 84.2.1-ci mad.,) «Prokurorluq haqqında» AR Qanununun 24-cü mad.);

- məhkəməyə müvafiq təqdimat verməklə əməliyyat-axtarış orqanının insan və vətəndaşın hüquq və azadlıqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirlərinin aparılması barədə vəsatətini dəstəkləmək, yaxud həmin vəsatətin müdafiə edilməsindən imtina haqqında qərar çıxarmaq (AR CPM-in 446.1.3, 446.3-cü mad., «Prokurorluq haqqında» AR Qanununun 24-cü mad.);



downloaded from KitabYurdu.az

- əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə özü tərəfindən məhkəməyə göndərilmiş təqdimatdan məhkəmə iclası zamanı imtina etmək (AR CPM-in 447.7.4-cü mad.);

- əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi haqqında əməliyyat-axtarış orqanının qanunsuz və əsassız qərarını ləğv etmək («Prokurorluq haqqında» AR Qanununun 24-cü mad.);

- əməliyyat-axtarış orqanının əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatətinin həm təmin olunması, həm də təmin olunmasının rədd edilməsi ilə bağlı məhkəmənin (hakimin) qərarı ilə razı olmadıqda, həmin qərarlardan protest vermək (AR CPM-in 84.6.11, 454-cü mad., «Prokurorluq haqqında» AR Qanununun 27-cü mad.);

- icrası məcburi olan yazılı göstəriş, habelə cinayət işləri üzrə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə təhqiqat orqanlarına tapşırıq vermək (AR CPM-in 84.5.17-ci mad., «Prokurorluq haqqında» AR Qanununun 25-cü mad.);

Azərbaycan Respublikasının Baş Prokurorunun 14 mart 2001-ci il tarixli 02/54 saylı «Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin təşkili haqqında» əmri ilə şəhər və rayon prokurorlarına, hərbi prokurorlara, Baş Prokurorluqda isə Baş Prokurorun müavinlərinə, Hərbi prokurora və onun müavinlərinə, idarə və şöbə rəsilərinə və onların müavinlərinə, özlərinin funksional vəzifələrinə müvafiq surətdə əməliyyat-axtarış orqan-larına nəzarəti həyata keçirmək barədə göstəriş təsbit olunmuşdur. Həmin əmrdə göstərilir ki, Azərbaycan Respublikasının Ədliyyə, Milli Təhlükəsizhlik, Vergilər və Fövqəladə Hallar Nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət Baş Prokurorluğun ədliyyə, milli təhlükəsizlik, sərhəd xidməti, fövqəladə hallar,



downloaded from KitabYurdu.az

vergi və gömrük orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Azərbaycan Respublikasının Daxili Işlər Nazirliyinin bu sahədə fəaliyyətində qanunların icrasına nəzarəti Baş Prokurorluğun Daxili Işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Azərbaycan Respublikasının Xüsusi Dövlət mühafizə xidmətinin əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti Respublika hərbi Prokurorluğu və qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində müvafiq tabe prokurorlar həyata keçirsinlər.

29 sentyabr 2006-ci il tarixdə **"Azərbaycan Respublıkası Baş Prokurorluğu strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Azərbaycan Respublıkasın Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublıkasın Prezidentinin Sərəncamı ilə** "Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi ", həmcinin "Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi" yaradılmışdır. Azərbaycan Respublıkası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin fəaliyyəti sərəncamla dəyişilməmişdir. Yəqin ki, Azərbaycan Respublikasının Baş Prokuror-luğunun 14 mart 2001-ci il tarixli 02/54 saylı «Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin təşkili haqqında» əmrdə düzəlişlər aparılacaqdır.

Səlahiyyətli prokurorların təyin edilməsi haqqında əmrlərin surətləri əməliyyat axtarış fəaliyyəti həyata keçirən müvafiq nəzarət olunan orqanlara göndərilir. Səlahiyyətli prokuror təyin olunana qədər onun barəsində dövlət sirrini təşkil edən məlumatlara buraxılış proseduru keçirilməlidir. Azərbaycan Respublikpsı Cinayət Prosessual Məcəlləsinin



downloaded from KitabYurdu.az

200.4.cü maddəsinə əsasən Dövlət sirrinin özündə əks etdirən məlumatlarla bağlı cinayət işlərinin icraatı bu cür məlumatların yayılmaması barədə öhdəçilik götürmüş müstəntiqlərə, prokurorlara və ya hakimlərə həvalə edilir. Cinayət Prosessual Məcəlləsinin 200.5-ci maddəsinə əsasən məhkəmə və prokurorluq orqanlarında dövlət sirrinin mühavizəsinin təmin olunmasına nəzarət bu orqanların rəhbərləri tərəfindən təşkil edilir.

**Əməliyyat axtarış fəaliyyətinin subyekti kimi prokurorun fəaliyyətinin normativ-hüquqi əsaslan-dırması** qanunvericilikdə, ilk növbədə, əməliyyat axtarış fəaliyyətində haqqında Qanunda və Prokurorluq haqqında Qanunda açınqlanmışdır.

Əməliyyat axtarış fəaliyyətinə prokuror nəzarətinin təcrübi aspektlərini açıqlayan əsas sənəd Azərbaycan Respublikası Baş Prokurorunun müvafiq əmridir.

Bundan başqa, bəzi digər normativ hüquqi aktlarda da normativ səciyyəli bir sıra göstərişlər təsbit olunur.

**Əməliyyat axtarış fəaliyyətində prokurorun icraat predmeti, vəzifələri və hüquqları.** Prokurorun əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun icrasına nəzarət üzrə səlahiyyətləri onların icraat predmeti və müvafiq vəzifə və hüquqları dairəsini təşkil edir.

Prokurorluq haqqında Qanuna görə, əməliyyat-axtarış orqanları tərəfindən qanunların icrasına nəzarətin predmetini insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsi, törədilmiş və hazırlanmaqda olan cinayətlər haqqında ərizə və məlumatların həlli, əməliyyat axtarış tədbirinin həyata keçirilməsi və araşdırmanın aparılması qaydasına riayət olunması, eləcə də əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların qəbul etdikləri qərarların qanuniliyi; Əməliyyat-axtarış orqanlarından şikayətlərə baxılması; Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların vəzifəli şəxslərinin qəbul etdikləri qərarların qanuniliyi və əsaslılığı təşkil edir.

Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Prokurorluq Haqqında Qanunun 18-ci maddəsində göstərilir ki,



downloaded from KitabYurdu.az

prokuror təhqiqat orqanlarının fəaliyyətində qanunların eyni cür və dürüst icrasının tədbiqini təmin etmək məqsədi ilə aşağıdakı nəzarəti həyata keçirir:

- cinayətlər və digər qanuna zidd hərəkətlər barədə təhqiqat orqanlarına daxil olmuş ərizə və məlumatların qeydə alınması, onlara baxılması və muvafiq tədbirlər görülməsinə dair qanunvericiliklə müəyyn olunmuş qaydalara əməl edilməsi;
- təhqiqat orqanları tərəfindən Azərbaycan Respublikasının Qanunlarında nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsi və bu fəaliyyət prosesində qəbul olunan qərarların qanuniliyi.

Prokuror əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən təmin etmək məqsədi ilə bu orqanlar tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi və onların qəbul etdiyi qərarların qanuniliyi üzərində nəzarəti həyata keçirir.

Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin predmetinə aid məsələlər «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu ilə də müəyyən edilir.

Nəzarət fəaliyyətinin məzmununa həmçinin prokurorun müəyyən edilmiş qanun pozuntuları barəsində qanunla nəzərdə tutulmuş tədbirləri görməsi daxildir.

«Əməliyyat axtarış fəaliyyəti haqqında» Qanunda prokurora müvafiq məlumatların verilməsi haqqında ümumi qaydadan istisna nəzərdə tutulmuşdur, yəni prokuror nəzarətinin predmetinə daxil olmayan məlumatların dairəsi göstərilmişdir. əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun bu göstərişi ƏAF-nin konspirasiyası prinsipini açıqlayır və ona konkret məzmun verir. Belə ki, konspirasiyaya riayət olunması məqsədilə qanunverici əməliyyat axtarış orqanı tərəfindən məxfi əməkdaşlar haqqında məlumatların mümkün açıqlanmasının xüsusi əlavə şərtini nəzərdə tutmuşdur. Əməliyyat-axtarış orqanlarının əməkdaşları ilə əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasını tələb edən hallar istisna



downloaded from KitabYurdu.az

olmaqla, həmin şəxslər haqqında informasiya müvafiq prokurorlara yalnız özlərinin yazılı razılığı ilə verilir. Yazılı materialda konkret konfidentin prokurorun əməliyyat axtarış orqanında olan onun barəsindəki operativ-xidməti sənədlərlə tanış edilməsinə açıq könüllü razılığı birmənalı ifadəsini tapmalıdır.

Prokurorların üzərinə vəzifələr, ilk növbədə, Prokurorluq haqqında Qanunla və CPM-lə, eləcə də əməliyyat axtarış fəaliyyəti haqqında Qanunla qoyulmuşdur. Belə ki, əməliyyat axtarış fəaliyyəti haqqında Qanuna görə, prokuror aşağıdakı vəzifələri daşıyır: şikayətlərə baxmaq, şəxslərin hüquqlarının bərpası üçün tədbirlər görmək, Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi qaydasını və Əməliyyat – axtarış orqanlarının qərarlarının qanuniliyini yoxlamaq, prokurora təqdim edilən sənəd və materiallardakı məlumatların məxfiliyini təmin etmək. Məlumatların məxfiliyi zərurəti onların xüsusi məzmunu ilə şərtlənir. Məlumatların məxfiliyini təmin edilməsi qaydası prokurorluq orqanlarının normativ hüquqi aktlarında açıqlanmışdır. Yuxarıda qeyd olunan əmrin 6-cı bəndində göstərilir ki, əməliyyat axtarış fəaliyyətinə nəzarət həyata keçirilərkən prokurorlar məlumatların məxfiliyinə tam riayət etməlidirlər. Prokuror həmçinin ayda bir dəfədən az olmayaraq cinayətlər haqqında, həmçinin şəxslərin itkin düşməsi haqqında ərizə və məlumatların qəbulu, qeydiyyatı və reallaşdırılması barədə tələblərin icrasını yoxlamağa, onun nəticələrinin təhlil edilməsi, qanunsuzluq halları aşkar edildiyi halda, buna yor verən şəxslər barəsində qanuna müvafiq tədbirlər görməyə borcludur.

Baş prokurorun «Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin təşkili haqqında» 14 mart 2001-ci il tarixli 02/54 saylı əmrinin icra vəziyyəti 2004-cü il ərzində tabe prokurorluq orqanlarında DIO-nın istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi tərəfindən öyrənilərək ümumiləş-dirilmişdir.



downloaded from KitabYurdu.az

Qeyd olunan əmrin icrası ilə əlaqədar DIO-nın istintaq, təhqiqat, əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi tərəfindən tabe prokurorluqlarda bu sahədə prokuror nəzarətinin təşkili və səmərəli həyata keçirilməsi, axtarışda olan təqsirləndirilən şəxslərin tapılması, təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən edilmədiyindən icraatı dayandırılmış cinayət işləri üzrə açılmış əməliyyat-qeydiyyat işlərinin yoxlanılması üçün tabe prokurorluqlara tövsiyyə sorğular göndərilmişdir.

Onun icrası zamanı Baş prokurorun qeyd edilən əmrinə uyğun olaraq tabe prokurorluqlar tərəfindən 2004-cü ildə daxili işlər orqanlarında «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa əməl edilməsi vəziyyətinin yoxlanılması əsasən təmin etmişlər və bu sahədə görülmüş işlərin səmərəliliyi əvvəlki illərə nisbətdə yaxşılaşmışdır.

Tabe prokurorluqlarda 2004-cü ildə 6221 əməliyyat qeydiyyat işi öyrənilmiş, bu da keçən ilə müqayisədə 136 iş az olmuşdur.

2004-cü ildə əməliyyat qeydiyyat işlərinin öyrənilməsi nəticəsində 2002 və 2003-cü illərə nisbətən daha az qanun pozuntusu aşkar edilmişdir.

Belə ki, 2002-ci ildə 803, 2003-cü ildə 692, 2004-cü ildə isə 605 qanun pozuntusu aşkar edilmişdir. Qanun pozuntularının aradan qaldırılması üçün 2002-ci ildə 266 təqdimat, 2003-cü ildə 163 təqdimat. 2004-cü ildə isə 145 təqdimat verilmişdir. Təqdimatların baxılması nəticəsində 2002-ci ildə 196, 2003-cü ildə 151 nəfər 2004-cü ildə isə 187 polis əməkdaşı intizam qaydasında cəzalandırılmışlır. Qanun pozuntularının ildən-ilə sayca azalması rayon prokurorlarının əməliyyat-axtarış sahəsində gündəlik nəzarətinin gücləndirilməsinin təzahürü kimi qeyd etmək olar.

Həmçinin müəyyən edilmişdir ki, 2004-cü ildə tabe prokurorlar tərəfindən əməliyyat-axtarış işləri öyrənilərkən



downloaded from KitabYurdu.az

işlər üzrə yazılı göstəriş verilməsi halları keçən illərlə müqayisədə təxminən bərabər olmuşdur.

08 fevral 2003-cü il tarixdə keçirilmiş geniş kollegiya iclasında Baş Prokuror qeyd etmişdir ki, «tabe prokurorlar əməliyyat axtarış fəaliyyətinə prokuror nəzarətinin səmərəliliyinin və kəsərliliyinin artırılması üçün qısa müddətdə zəruri tədbirlərin görülməsini təmin etməlidirlər. Axtarışda olan şəxslərin tutulması ilə əlaqədar fəaliyyət sahəsində yol verilən qanunsuzluq hallarına münasibətdə barışdırıcı və liberal mövqe tutmaq olmaz». Lakin bəzi rayon prokurorluqlarından qeyd edilən əmrin icrası ilə əlaqədar daxili işlər orqanlarının əməkdaşlarının əməliyyat-axtarış fəaliyyətləri təhlil edilməmiş, hansı qanun pozuntularına yol vermələri, tərtib edilmiş arayışlarda yalnız statistik rəqəmlər göstərilmişdir.

Bununla bərabər təhlil göstərir ki, hələ də ayrı-ayrı polis orqanlarında hazırlanan və törədilən cinayətlərin qarşısının alınması, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi, məhkəmə istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkmədən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması sahəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı nöqsanlara yol verilir.

01.01.2005-ci il tarixə kimi respublikanın rayonları üzrə son illərdə odlu silahla törədilmiş açılmayan 139 quldurluq cinayətlərindən Bakı şəhər rayonları üzrə 67-si, digər rayonlar üzrə isə 72-si, 9 adam oğurluğundan Bakı şəhər üzrə 7-si, 2-si isə digər rayonlar üzrə, 25 qəsdən adam öldürmə və öldürməyə cəhd cinayətlərindən 8-i Bakı şəhər rayonları üzrə, 17-si isə digər rayonlar üzrə açılmamışdır. Həmin cinayətlərin bağlı qalmasına baxmayaraq, bu işlər üzrə açılmış əməliyyat qeydiyyat işlərinin gedişatına nəzarət lazımı səviyyədə həyata keçirilməmişdir.

Açılmayan cinayət işləri üzrə əməliyyat-qeydiyyat işlərinin açılmasına baxmayaraq, onlar bəzi rayon prokurorları



downloaded from KitabYurdu.az

tərəfindən öyrənilmir. Rayon prokurorları tərəfindən təqdim edilmiş arayışların təhlili göstərir ki, bəzi rayon prokurorları Azərbaycan Respublikasının CPM-nin 84.5.7 –ci maddəsi və Baş Prokurorun qeyd edilən əmri ilə axtarış işləri üzrə yoxlama apararkən bir dənə də olsun yazılı göstəriş verməmişdir.

Məsələn, Balakən, Qobustan, Qax, Qubadlı, Dəvəçi, Yevlax, Mingəçevir, Neftçala, Sumqayıt, Ucar, Cəlilabad rayon prokurorları tərəfindən açılmamış ağır və xüsusi ilə ağır cinayət işləri üzrə 2004-cü il ərzində ümumiyyətlə göstəriş verilməmişdir.

Bu da onu göstərir ki, rayon prokurorları açılmamış cinayət işlərini öyrənmir və həmin işlər üzrə əməliyyat-qeydiyyat işlərinin vəziyyətini təhlil etmirlər. Belə vəziyyətin yaranmasına səbəb əməliyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən prokurorluğun əməkdaşının işi lazımı səviyyədə olmamışıdır.

Respublika prokurorluğu tərəfindən aparılmış ümumiləşdirilmədə əməliyyat axtarış fəaliyyətinin subyektlərinin neçə qərarının ləğv edilməsi, subyektlərin hərəkətlərindn şikayət verilməsi, nəzarət qaydasında protest verilməsi, əməliyyat axtarış tədbirinin həyata keçirilməsinin dayandırılmasına göstəriş verilməsi, prokuror tərəfindən əməliyyat axtarış fəaliyyətinin subyektindən hər hansı bir sənədin tələb edildikdə imtina hallarının olub-olmaması və s. öz əksini tapmamışdır.

Prokurorluq haqqında Qanuna görə, prokuror qanunu pozmuş müvafiq vəzifəli şəxslərdən, eləcə də pozuntu hallarının məlum olduğu digər şəxslərdən izahat tələb etmək hüququna malikdir. Belə izahat həm şifahi, həm də yazılı formada alınır (yazılı izahat onu vermiş şəxs tərəfindən imzalanır, şifahi izahat isə prokurorun tərtib etdiyi arayışda əks olunur).

Əməliyyat axtarış fəaliyyəti haqqında Qanuna görə, prokurorun əməliyyat-axtarış orqanına onun icraatında olan



downloaded from KitabYurdu.az

cinayət işinə dair, onun icraata qəbul etdiyi cinayət işi üzrə əməliyyat axtarış tədbiri keçirilməsi haqqında yazılı formada göstərişlər vermək hüququna malikdir. O, həmçinin zəruri operativ-xidməti sənədləri, uçot-qeydiyyat sənədlərini və idarə normativ hüquqi aktlarını tələb etmək hüququna malikdir.

Bundan başqa, prokuror aşağıdakı tədbirləri görə bilər:

-əməliyyat axtarış orqanı rəhbərlərinin əməliyyat axtarış fəaliyyəti haqqında qanuna zidd qərarlarından protest vermək;

-əməliyyat axtarış fəaliyyəti haqqında Qanunu pozmuş şəxsin başqa hüquqi məsuliyyət növünə cəlb olunmasını tələb etmək.

Bundan başqa, nəzərə alınmalıdır ki, Baş Prokurorun müvafiq əmri ilə səlahiyyətli prokurorlara vətəndaşların pozulmuş hüquq və azadlıqlarının bərpası, Əməliyyat axtarış fəaliyyətini həyata keçirən vəzifəli şəxs-lər tərəfindən pozuntulardan konstitusion təminatların müdafiəsi və digər əsaslar üzrə yoxlamaların keçirilməsi zamanı qanunla müəyyən olunmuş prokuror nəzarəti tədbirlərindən istifadə etmək barədə göstəriş verilmişdir:

-cinayət işlərinə dair əməliyyat axtarış tədbirinin həyata keçirilməsi, onların həyata keəirilməsi haqqında yazılı göstərişlər vermək və ya onların xitamını tələb etmək;

-əməliyyat axtarış fəaliyyətini həyata keçirən və əməliyyat axtarış tədbirini keçirərkən qanun pozuntularına yol verən vəzifəli şəxslərdən yazılı izahat tələb etmək;

-əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların rəhbərlərinin qanuna zidd idarə aktlarından, eləcə də göstərilən rəhbərlərin, o cümlədən bu fəaliyyətin nəticələrinin müstəntiqə, təhqiqat orqanına, məhkəməyə verilməsi haqqında qanunsuz və əsassız qərarlarından protest vermək;

-əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların vəzifəli şəxslərinin yol verdikləri qanun pozuntularının aradan qaldırılması haqqında təqdimatlar vermək;

- əməliyyat axtarış orqanı rəhbərlərindən onlara tabe olan əməliyyatçıların qanunu pozması halında həmin şəxslərin



downloaded from KitabYurdu.az

əməliyyat yoxlamalarının sonrakı gedişindən kənar edilməsini tələb etmək.

Xüsusi qeyd olunmalıdır ki, prokurorun nəinki hansısa ƏAT-nin hazırlanmasında, yaxud keçirilməsində iştirak etmək, yaxud onu şəxsən keçirmək hüququ, həm də hansısa konkret əməliyyat axtarış tədbirinin keçirilməsinin zəruriliyi haqqında göstəriş vermək hüququ yoxdur.

Bundan başqa, prokurorların hüquqları əməliyyat axtarış fəaliyyəti haqqında Qanunla nəzərdə tutulmuşdur. Həmin qanunun göstərişlərinə əsasən, əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların rəhbərləri onlara operativ-xidməti sənədləri, operativ-texniki vasitələrdən istifadə etməklə əməliyyat axtarış tədbirinin keçirilməsi haqqında materialları, eləcə də uçot-qeydiyyat sənədlərini və əməliyyat axtarış tədbirinin keçirilməsi qaydasını müəyyən edən idarə normativ-hüquqi aktlarını təqdim etməyə borcludur.

Həmin göstərişdə prokurorun əməliyyat axtarış fəaliyyətinə nəzarət hüquqlarından biri konkretləş-dirilmişdir. Qeyd edək ki, prokurora məsələnin mahiyyətinə dair onun tələb etdiyi bütün materiallar (o cümlədən onların əsli) təqdim olunmalıdır.

Baş Prokurorun müvafiq əmri ilə müəyyən olunmuşdur ki, sənədlərin təqdim edilməsindən qanunsuz imtina halında belə imtina prokurorun tələblərinin yerinə yetirilməməsi, yaxud onun qanuni fəaliyyətinə maneçilik törətmə kimi qiymətləndirilməlidir. Bu hallarda prokuror əsaslar mövcud olduqda təqsirli vəzifəli şəxslərin müəyyən olunmuş məsuliyyətdə, o cümlədən cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək hüququna malikdir.

Prokurorun tələbi yalnız yazılı formada ifadə oluna bilər. Bir qayda olaraq, o, əməliyyat axtarış orqanı rəhbərinə ünvanlanmalıdır.



downloaded from KitabYurdu.az

## § 2. **Əməliyyat axtarış fəaliyyətinə prokuror nəzarətinin əsasları.**

Prokuror nəzarətinin iki əsası fərqləndirilir: 1) prokurorluğa əməliyyat axtarış orqanı tərəfindən qanunun pozulması haqqında informasiyanın (vətəndaşın ərizəsi, müraciəti və s.) daxil olması və 2) səlahiyyətli prokurorun təşəbbüsü. Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanu-nun 4-cü maddəsinin 4-cü bəndinə əsasən, əməliyyat axtarış fəaliyyətinin subyektinin hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş hər bir şəxs əməliyyat axtarış fəaliyyətinin subyektinin tabe olduğu yuxarı orqanının rəhbərinə, prokurora, məhkəməyə şikayət etmək hüququna malikdir.

Baş prokurorun müvafiq əmrinin 4-cü bəndinə əsasən qanun pozuntularına yol verilməsi barədə materiallar, vətəndaşların müraciətləri olduqda, habelə əməliyyat-axtarış tədbirlərinə dair qəbul edilmiş qərarların qanuniliyini yoxlamaq zərurəti yarandıqda, prokurorlar əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin əsaslığını yoxlamalıdırlar. Prokurorluğun idarə aktı ilə aşağıdakı hallarda əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinin müəyyən olunmuş qaydasının və bu zaman qəbul edilən qərarların qanuniliyinin yoxlanılması barədə göstəriş müəyyən olunmuşdur:

-vətəndaşların şikayətləri və vəzifəli şəxslərin müraciətləri əsasında nəzərdən keçirilən sahədə prokuror nəzarətinin ən mühüm elementlərindən birini əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsi prosesində insan və vətəndaşların, eləcə də hüquqi şəxslərin hüquq və azadlıqlarına riayət olunması təşkil edir. Bununla əlaqədar vətəndaşların və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulması ilə əlaqədar şikayət, ərizə və müraciətlərlə iş böyük əhəmiyyətə malikdir. Onlara bir ay müddətində baxılır (zərurət yarandıqda həmin müddət müəyyən olunmuş qaydada uzadıla bilər). Şikayəti həll edərkən, prokuror onda göstərilən bütün məsələləri diqqətlə yoxlamalıdır, bununla əlaqədar, adətən, konkret halların dəqiqləşdirilməsi məqsədilə ərizəçi dəvət



downloaded from KitabYurdu.az

olunur, zəruri operativ-xidməti sənədlər tələb olunur və öyrənilir. Göstəriş vermiş, yaxud bu və ya digər əməliyyat axtarış tədbirini yerinə yetirmiş vəzifəli şəxslərdən izahat tələb olunur. Daxil olmuş şikayət üzrə qərar qəbul edilir. Qərardan yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər. Baxılması qanunla məhkəmənin müstəsna səlahiyyətinə aid edilmiş şikayətlər daxil olduqda onlar bu barədə ərizəçi xəbərdar edilməklə dərhal müvafiq məhkəməyə göndərilir;

-açılmamış cinayətlər haqqında cinayət işlərinin materiallarının öyrənilməsinin nətcələri üzrə, yaxud təhqiqat orqanının, müstəntiqin və məhkəmənin icraatında olan cinayət işlərinə dair tapşırığa lazımi münasibət göstərməməsi haqqında informasiya daxil olduqda, həmçinin səlahiyyətli prokurorun göstərişlərinin lazımi surətdə icra olunmaması ilə əlaqədar;

-planlı qaydada, o cümlədən yuxarı səlahiyyətli prokurorun göstərişi ilə;

-bu sahədə fəaliyyətin qanuniliyi və hazırlanan, törədilən, yaxud törədilmiş cinayətlərin aşkara çıxarılması üzrə müsbət nəticələrin olmaması nəzərə alınmaqla digər hallarda, cinayətlərin açılması, cinayət işləri üzrə təqsirləndirilən, yaxud şübhəli şəxslərin və xəbərsiz itkin düşmüş şəxslərin axtarılması.

Beləliklə əməliyyat axtarış fəaliyyətinə prokuror nəzarətinin müdaxiləsi üçün əsaslar mahiyyəti üzrə müəyyən edilmişdir.

«Əməliyyat axtarış fəaliyyəti haqqında»Qanunun pozulması haqqında xəbərdaretmə və prokurorun pozuntuya münasibət bildirmə üsulları. əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun normalarının lazımi surətdə icra edilməməsi ilə bağlı hüquq pozuntularının (xətaların) qarşısının alınmasının mühüm vasitəsini qanunun pozulmasının yolverilməzliyi haqqında xəbərdarlıq təşkil edir, o, müvafiq prokuror tərəfindən Prokurorluq haqqında qanunla nəzərdə tutulmuş hallarda və qaydada həll edilə bilər.

Prokurorun əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun pozulmasına münasibət bildirməsi üsulları bir çox



downloaded from KitabYurdu.az

cəhətdən yoxlanılan materialların məzmunundan asılıdır. Belə üsullardan birini prokurorun əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun pozulmasının aradan qaldırılması barədə təqdimat təşkil edir. Prokuror bu təqdimatı qanun pozuntusunu aradan qaldırmaq səlahiyyətinə malik əməliyyat axtarış orqanına (onun vəzifəli şəxslərinə) göndərir (bir ay ərzində yol verilmiş pozuntunun aradan qaldırılması, onu doğurmuş səbəb və şərtlərin aşkara çıxarılması və aradan qaldırılması üzrə tədbirlər görülməli, nəticələr yazılı surətdə prokurora çatdırılmalıdır).

Bununla əlaqədar prokuror nəzarətinin səmərəli-liyinin aşağı düşməsinə yol verməmək üçün əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun bir sıra normalarının blanket (ünvanlayıcı) xarakteri nəzərə alınmalıdır. Belə ki, əməliyyat axtarış fəaliyyəti haqqında Qanunda əməliyyat axtarış fəaliyyətinin bu və ya digər aspektinin həyata keçirilməsi qaydasının idarə normativ hüquqi aktları ilə tənzimlənməsi müəyyən olunduqda belə aktların icrası da prokuror nəzarətinin predmetinə daxil olmalıdır.

Lakin əməliyyat axtarış fəaliyyətinin digər aspektləri, məsələn, vətəndaşların özlərinin razılığı ilə məxfi əmək-daşlığa cəlb edilməsinin təşkili prokuror nəzarətinin predmetinə daxil olmamalıdır.

Baş Prokurorun müvafiq əmri yoxlamalar aparı-larkən aşağıdakılara diqqət yetirilməsini tələb edir:

Prokurorlar əməliyyat-qeydiyyat işinin açılması, aşkar və qeyri aşkar üsullarla əməliyyat-axtarışın həyata keçirilməsi zamanı qanunlara nəzarət edilməsinin vəziyyətini yoxlayarkən:

Qərarı çıxaran və icra edən subyektin səlahiyyətli olması, təhqiqat orqanlarının müvəkkil olunmuş şəxslərinin öz vəzifələrini yalnız bu orqanlarının səlahhiyyətləri daxilində həyata keçirə bilmələri;

- Əməliyyat-qeydiyyat işinin açılmasına əsasların mövcudluğu.



downloaded from KitabYurdu.az

- həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin qanunda nəzərdə tutulması, bu tədbirlərin aparılması üçün səbəb və əsasların olub olmaması;
- Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə qəbul edilmiş qərarların qanuniliyi və əsaslığı;
- Əməliyyat-axtarış tədbirlərinin tədbiqi şərtlərinə, prinsiplərinə o, cümlədən qanunçuluğa, humanistliyə, konspirasiyaya, aşkar və gizli iş üsullarının uzlaşdırılmasına əməl edilməsini;
- tədbiq edilən əməliyyat-axtarış tədbirlərində insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitələrdən və maddələrdən istifadə edilmsinə yol verilməməsini;
- əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə kömək göstərilərkən qanuna riayət edilməsini;
- əməliyyat-axtarış tədbirləri uçot hesabat (kartoçkalar) sənədlərinin tərtib edilib verilməsi zamanı qanuna əməl olunmasını;
- insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin müdafiəsi, ictimai və dövlət təhlükəsizliyinin təmin olunması;
- şəxsin əməliyyat-axtarış fəaliyyətinə məcburi cəlb edilməsinə yol verilməməsini;
- əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə, istintaq və əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarının və ya cinayət işləri üzrə yazılı göstərişlərinin yerinə yetirilməsini;
- baxılması məhkəmələrin müstəsna səlahiyyətlərinə aid olan müraciətlərin məhkəmələrə göndərilməsini;
- respublikanın tərafdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatların rəsmi sorğularına əsaslı cavablar verilməsini;
- əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən təxirə salınmaz tədbirlərin keçirilməsini;



downloaded from KitabYurdu.az

- əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına və məxfilik recimінə riayət edilməsini;
- qulluq mövqeyinə görə məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə şəxslərin buraxılmasının əsaslığını yoxlanılmasını;
- əməliyyat-axtarış fəaliyyətinin subyektlərinin, cinayət prosesi iştirakçılarının və ya onların yaxın qohum-larının şəxsi təhlükəsizliyini və onların əmlakının qorunmasını;
- əməliyyat-axtarış tədbirlərinə son qoyulmasının əsaslığı və müəyyən edilmiş müddətlərə əməl edilməsini;
- hadisələrin, faktların, əşyaların, və digər informasiya mənbələrinin əməliyyat uçotunun aparılması zamanı qanunlara əməl edilməsi vəziyyətinin tam və hərtərəfli araşdırılması və müəyyən edilmiş qanun pozuntu-larının aradan qaldırılması üçün prokuror təsiri tədbirlərinin görülməsini təmin etsinlər.

Burada bəzi qeydlər zəruridir. əməliyyat axtarış tədbirinin keçirilməsi, yaxud ona xitam verilməsi haqqında qərarın qanuniliyinin qiymətləndirilməsi prinsipial çətinliklər doğurmur, çünki belə qərarların qəbul edilməsi kifayət qədər ətraflı hüquqi tənzimini tapmışdır. Göstərilən qərarların əsaslılığına gəlincə isə, əməliyyat axtarış tədbirinin keçirilməsi, yaxud xitamı üçün əsasların mövcud olub-olmaması barədə mülahizə yürütməyə imkan verən meyarların qəti siyahısının olmadığı bir şəraitdə qiymətləndirmə çox subyektiv prosesə çevrilir və daha artıq dərəcədə səlahiyyətli prokurorun şəxsi təcrübəsindən asılı olur.

Bununla birlikdə, inkar etmək olmaz ki, qəbul edilmiş qərarın əsassızlığının aşkar göründüyü hallar mövcud olur.

Qeydiyyatın və iş açılmasının məcburiliyi tələbi əməliyyat axtarış fəaliyyəti haqqında Qanunun belə bir müddəasına uyğundur ki, əməliyyat axtarış orqanı həmin qanunla ona həvalə olunmuş vəzifələrin həlli üçün informasiya sistemləri yarada və onlardan istifadə edə, həmçinin iş aça



downloaded from KitabYurdu.az

bilər. Aydındır ki, qanunun imperativ xarakterli göstərişi təsbit etməyən müddəası iş açılması qaydası məsələsini əməliyyat axtarış orqanunun mülahizəsinə buraxır.

Yoxlamanın nəticələrinin qiymətləndirilməsi aşa-ğıdakı meyarlar əsasında həyata keçirilir: yoxlamanın tamlığı, yoxlanmış materialın həcmi, aşkara çıxarılmış qanun pozuntularının sayı, pozuntuda təqsirli olan konkret şəxslərin müəyyən edilməsi yoxlama zamanı aşkara çıxarılmış qanun pozuntularının sayı müəyyən dərəcədə əməliyyat axtarış fəaliyyətinə idarə nəzarətinin vəziy-yətini xarakterizə edə bilər. Hər bir pozuntu onun ağırlıq dərəcəsi baxımından qiymətləndirilməlidir. Çünkü prokurorun düzgün qərar seçməsi bundan aslıdır. Aşkara çıxarılmış pozuntularda təqsiri olan bütün şəxslər müəyyən olunmalı, hər bir vəzifəli şəxsin maksimum dərəcədə təqsiri konkretləşdirilməlidir ki, prokurorun qəbul etdiyi aktda adekvat qiymət verilə bilsin.

Insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan Dövlətinin ali məqsədi elan olunduğundan (Azərbaycan Respublikası Konstitu-siyasının 12 maddəsi ) mühüm dövlət orqanı kimi, qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tədbiq olunmasına nəzarət edən prokurorluq orqanlarının başlıca vəzifələrindən biridir.

Insan və vətəndaş hüquqlarının və azadlıqlarının mühafizəsinə prokuror nəzarətinin təşkili və səmərəli-liyinin artırılması bütövlükdə prokuror nəzarətinin təkmil-ləşdirilməsinin başlıca şərtidir.

Bu sahədə prokuror nəzarəti həyata keçirilərkən hər şeydən əvvəl, insan və vətəndaş hüquqlarının və azadlıqlarının Konstitusiya prinsipləri rəhbər tutulmalıdır. Belə ki. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları vardır.

Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.



downloaded from KitabYurdu.az

Prokurorluq orqanları insan və vətəndaş hüquqlarının və azadlıqlarının mühafizəsi sahəsində qanunların qanunla nəzərdə tutulmuş qaydada və hallarda icra və tədbiq olunmasına nəzarəti həyata keçirərkən hamının qanun qarşısında bərabərliyini təmin etməlidirlər, irqindən, milliyyətindən, dilindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Prokurorluq orqanları, eləcə də digər hüquq mühafizə orqanları insan və vətəndaş hüquqlarını və azadlıqlarını yalnız qanunda nəzərdə tutulmuş hallarda və əsaslarla, eləcə də qanunla müəyyən olunmuş qaydada olunmuş qaydada məhdudlaşdıra bilər. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində birbaşa göstərilmişdir ki, müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərtilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər.Həyata keçirilmsi məhdudlaşdılılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

Prokurorluğun dövlət hakimiyyətini həyata keçirən qanunverici, məhkəmə, icra hakimiyyəti o cümlədən hüquq mühafizə orqanları sistemində mühüm yer tutması prokurorluğun funksiyaları qanunvericilkdə nəzər tutul-muş fəaliyyət istiqamətlərinə uyğun olaraq prokuror nəzarəti bu və ya digər formada insan və vətəndaş hüquqlarının azadlıqlarının demək olar ki bütün sahələrini əhatə edir.

Hüquq ədəbiyyatında insan və vətəndaş hüquq və azadlıqlarını adətən 3 qrupa bölürlər.Birinci qrupa şəxsi hüquq və azadlıqlara aid olan yaşamaq hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ və s. hüquqlar və azadlıqlar daxildir.



downloaded from KitabYurdu.az

Ikinci qrupa siyasi hüquqlar və azadlıqlar aiddirlər. Bunlar cəmiyyətin və dövlətği siyasi həyatında iştirak hüququndan,dövəltin idarə olunmasında iştirak etmək hüququndan, sərbəst toplaşmaq. Fikir və söz azad-lığından, vicdan azadlığından, seçki hüqüqundan, birləş-mək hüququndan və s. ibarətdir.

Üçün qrupa isə insan və vətəndaşların sosial iqtisadi hüquqları və azadlıqları daxildirlər. Bunlara azad sahibkarlıq hüququ, əmək hüququ, sosial təminat hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ və s. aiddirlər[1].

Insan və vətəndaş hüquqlarına və azadlıqlarına prokuror nəzarətinin təşkilində vətəndaşların prokurorluq orqanlarında qəbulu və müraciətlərinə baxılması mühüm rol oynayır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv müraciət etmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Prokurorluq orqanlarının vətəndaşların qəbulunun həyata keçirilməsi qanunla müəyyən edilmiş qaydada ərizə, şikayət və digər müraciətlərinə baxılması «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanunun 20-ci maddəsi ilə tənzimlənir.

Vətəndaşların müraciətlərinə prokurorluq orqanla-rına qayğı və yüksək məsuliyyətlə yanaşıması onların müraciətlərinin qanuni və ədalətli həll olunması, bu işin qanunvericiliyin tələblərinə uyğun təşkil etməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında vətəndaşların müraciətlərinə baxılması işinin daha da təkmilləşdirilməsi haqqında» 09.02.2001-ci il tarixli 02/35 № əmr imzalamışdır.

---

[1] Aslanov S. X. Azərbaycan prokurorluğunun təşkili və fəaliyyətinin əsas istiqamətləri. Bakı, Hüquq ədəbiyyatı . 2003-cü il.



downloaded from KitabYurdu.az

Əmrdə göstərilir ki, bütün prokurorluq orqanları Azərbaycan Respublikası Konstitusiyasını və qanunları ilə müəyyən edilən və təminat verilən qaydada vətəndaşların yazılı və şifahi formada müraciət etmək, dövlət və yerli özünüidarə orqanlarının ictimai birliklərin vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüquqlarının dolğun həyata keçirilməsi üçün zəruri şərait yaradılmasını təmin etsinlər.

Əmaliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin məqsədi bu fəaliyyəti həyata keçirərkən qanunun aliliyini, insanların hüquq və azadlıqlarını təmin etmək, Azərbaycan respublikası vətəndaşlarının, dövlətinin milli təhlükə-sizliyini hər cür cinayətkar qəsdlərdən qorumaq, hüquq münasibətlərinin subyektlərinin qanuni mənafelərini müdafiə etmək olduğunu nəzərə alıb mütəmadı elmi fikirlər irəli sürməklə, daim təkmilləşdirilməsini zəruri sayırıq.



downloaded from KitabYurdu.az

## Fəsil 4. Əməliyyat axtarış fəaliyyətinə idarə nəzarəti.
## § 1. Əməliyyat-axtarış fəaliyyətinə idarə nəzarətinin həyata keçirən orqanların hüquq və vəzifələri.

Əməliyyat axtarış fəaliyyətinə idarə nəzarəti «Əməliyyat axtarış fəaliyyəti haqqında» Qanunun 19-cu maddəsi ilə nəzərdə tutulmuşdur. Həmin maddədə deyilir: «əməliyyat axtarış fəaliyyəti subyektlərinin rəh-bərləri əməliyyat axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi zamanı qanunçuluğa əməl olunmasına nəzarət edir və buna görə fərdi məsuliyyət daşıyırlar». Çünki, idarə nəzarəti əməliyyat axtarış fəaliyyətinin təşkili və taktiki məsələlərini əhatə edir. Ona görə də, idarə nəzarətinin digər tərəfləri idarədaxili normativ aktlarda öz əksini tapmışdır.

Azərbaycan Respublikası CPM-na əsasən əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanlar-təhqiqat orqanlarının dairəsi müəyyənləşdirilib.

"Əməliyyat-axtarış tədbirlrinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinn səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikasının 507 saylı 19 iyun 2001-ci il tarixli Fərmanı ilə müvafiq əməliyya-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektləri arasında səlahiyyət bölgüsü aparılmışdır. Burada nəzərdə tutulan səlahiyyət bölgüsünün hüquqi mahiyyəti ondan ibarətdir ki, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulan əməliyyat axtarış tədbirləri əməliyyat-axtarış subyektlərinin Milli təhlükəsizlik Nazirliyi, Daxili Işlər Nazirliyi, Ədliyyə Nazirliyi, 24 avqust 2002-ci tarixdən Prezidentin fərmanına əsasən Naxçivan Muxtar Respublikasının ərazisinda Naxçivan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Xususi Dövlət Mühafizə Xidməti, 12 dekabr 2002-ci il tarixdən Prezidentin fərmanı ilə əsasnaməsi təsdiq edilmiş Dövlət sərhəd xidməti, 28 fevral 2006-ci il tarixdən Prezidentin fərmanı ilə təşkil edilmiş Fövqəladə Hallar Nazirliyi



downloaded from KitabYurdu.az

səlahiyyətləri daxilində, onların tələbatına və müəyyən məhdudiyyətlər nəzərə alınmaqla tədbiq edilir.
Bu məhdudiyyətlər Fərmanla aşağıdakı kimi müəyyən edilmişdir :

-poçt teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi, beynəlxalq göndərişlərin yoxlanılması isə həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilir.

-telefon danışıqlarına qulaq asma, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili Işlər Nazirlikləri tərəindən həyata keçirilir.

İnsanların güdülməsi, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikintilərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili Işlər Nazirlikləri, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilir.

-məhbusların məktublarının yoxlanılması Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçivan Muxtar Respublikasının ərazisinda Naxçivan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

-hərbi hissələrdə və hərbi idarələrdə əməliyyat-axtarış tədbirinin tədbiqi təhlükəsizlik orqanları üçün müəyyən edilmiş həcmdə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilir.

-mühafizə edilən şəxslərin və obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Xususi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri yuxarıda sadalanan tədbiqi məhdudlaşdırılmış əməliyyat-axtarış



downloaded from KitabYurdu.az

tədbirlərini qanunvericiliklə müəyyən edilmiş qaydada, onların icrası həvalə edilmiş orqanlara sorğu göndər-məklə həyata keçirirlər.

Fərmanla yuxarıdakılardan əlavə aşağıdakı daha iki məhdudiyyət müəyyən edilmişdir.

Əməliyyat-axtarış fəaliyyəti prosesində hüquq şəxsin yaradılması Azərbaycan Respublikasının Milli Təhlükə-sizlik və Daxili Işlər Nazirlikləri tərəfindən həyata keçirilir.
rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təminatına dair texniki təşkilati şərtlərin müəyyənləş-dirilməsi və bu tədbirlərin həyata keçiriomasini təmin edən avadanlıqların istismarı Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası  Rabitə haqqında qanunu 31-1 maddəsində  göstərilir ki, rabitə müəssisələrinin  əməliyyat-axtarış fəaliyyətini  həyata keçirən orqanlarla  qarşılıqlı əlaqəsi mövcuddur. Belə ki təşkilati-hüquqi  və  mülkiyyət formasindan asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində  fəaliyyət göstərən rabitə müəssisələri və rabitə operatorları  rabitə şəbəkələri yaradarkən və istismar edərkən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməliyyat- axtarış tədbirlərinin  həyata keçirilməsinin  təşkilatı və taktiki üsullarını  gizli saxlanması üçün  tədbirlər görməlidirlər. Əməliyyat- axtarış fəaliyyətinin  təşkilatı və taktiki üsullarının  gizli saxlanılması üçün  tədbirlərin görülməməsi  Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Elektrik rabitə sistemləri yaradılarkən (ümumi şəbəkəyə çıxışı olmayan idarələrin və müəssisələrin şəbəkələrindən başqa) onlar məlumat çıxarılması üçün  xüsusi avadanlıqlarla komplektləşdirilməlidir.

Beləliklə, əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanlar olaraq, DIN, MTN, vergi, fövqəladə hallar, gömrük orqanları, hərbi hissə komandirləri, hərbi idarə rəisləri,



downloaded from KitabYurdu.az

cəzaçəkmə müəssisələrinin rəisləri, həbsdə saxlanma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər, hərbi əks-kəşfiyyat xidməti rəisləri ayrı-ayrı əməliyyat axtarış fəaliyətini həyata keçirərkən idarədaxili nəzarəti həyata keçirirlər. Bununla yanaşı, həmin orqanların rəhbərləri kimi həyata keçirdikləri fəaliyyətə görə tam məsuliyyət daşıyırlar.

Əməliyyat axtarış orqanlarının fəaliyyətinə idarə nəzarəti «Əməliyyat axtarış fəaliyəti haqqında» Qanunun 19-cu maddəsi ilə yanaşı, həmçinin, həmin fəaliyyəti həyata keçirən orqanlar haqqında qanunveri-cilik aktlarında da dəqiqləşdirilmişdir.

Məsələn, «Polis haqqında» Qanunun 12 maddəsinə əsasən, qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir. Polisin fəaliyyətinə idarədaxili nəzarət Azərbaycan Respublika-sının Daxili Işlər Nazirliyi, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyinin təsis edilməsi ilə bu mühüm dövlət orqanının tarixində yeni dövr başlanmışdır. Yeni dövrün və ictimai-siyasi formasiyanın mahiyyətinə uyğun olaraq təhlükəsizlik orqanlarının qarşısında duran vəzifələrin mahiyyəti dəyişmiş, ölkənin suverenliyi, konstitusiya quruluşu, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyat əhəmiyyətli maraqlarına qarşı daxili və xarici təhdidlərin müəyyənləşdirilməsi və bu istiqamətdə mübarizə sahəsində mühüm tədbirlərin görülməsi zərurəti yaranmışdır.

"Azərbaycan Respublikasında milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" Dövlət proqramının (2007-2011-ci illər) təsdiq edilməsi haqqında 17 oktyabr 2006-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərir ki, müstəqillik əldə edildikdən sonra Azərbaycanda dövlətçilik ənənələrinə əsaslanan milli təhlükəsizlik sistemi formalaşdırılmış,



downloaded from KitabYurdu.az

təhlükəsizlik orqanlarının fəaliyyətini təmin etmək məqsədi ilə əsaslı normativ hüquqi baza yaradılmış, milli maraqların xarici və daxili təhdidlərdən qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının siyasi, iqtisadi, sosial və digər sahələrdə sürətli inkişafı və dünya birliyinə inteqrasiyası milli təhlükəsizlik sisteminin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun qurulmasını zəruri edir. Qlobal və regional təhlükəsizliyin təmin edilməsində ölkəmizin iştirakı, milli təhlükəsizliyə təhdid-lərin aşkarlanması və qarşısının alınması təhlükəsizlik orqanlarının yeni texnologiyalardan və informasiya-kom-munikasiya sistemlərindən, son elmi nailiyyətlərdən geniş istifadə etməsini, əməkdaşlarının peşəkarlığının artirilma-sını və digər dövlətlərin xüsusi xidmət orqanları ilə tərəf-daşlıq münasibətlərinin inkişaf etdirilməsini şərtləndirir.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, habelə aqressiv separatizm, terrorizm və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə və milli maraqların digər təhdidlərdən qorunması sahəsində təhlükəsizlik orqanlarının fəaliyyətini daha da təkmiləş-dirmək, maddi-texniki bazasını və əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədi ilə qərara alınmışdır:

Azərbaycan Respublikasında milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkminləşdirilməsinə dair dövlət proqramı (2007-2011-ci illər) təsdiq edilsin.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini tənzimləyən normativ hüquqi aktda həmin fəaliyyətin həyata keçirilməsinə nəzarət məsələsi əks olunmuşdur. Qeyd olunur ki, xüsusi xidmət orqanları tərəfindən öz vəzifələrini lazimi səviyyədə yerinə yetirilməsi, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin təşkili və keçirilməsi zamanı qanunçuluğa əməl olunması məqsədilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.



downloaded from KitabYurdu.az

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətləri çərçivəsində bu fəaliy-yətin subyektləri həyata keçirilir. 29 iyun 2004 il tarixdə qəbul edilmiş 7 avqust 2004 tarixdə mətbuatda dərc edildiyi gündən qüvəyə minmiş "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu 22 maddəsi Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə nəzarətdən bəhs olunur.

Xüsusi xidmət orqanları tərəfindən öz vəzifələrinin lazımı səviyyədə yerinə yetirilməsi, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin təşkili və keçirilməsi zamanı qanun-çuluğa əməl olunması məqsədilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərcivəsində bu fəaliyyətin subyektləri, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezdenti həyata kecirir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezdentinə öz fəaliyyətləri barədə mütəmadi hesabat verirlər. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin rəhbərləri məlumatların etibarlılığına, obyektifliyinə və Azərbaycan Respublika-sının Prezdentinə vaxtında catırılmasına görə şəxsi məsuliyyət daşıyırlar. Əks Kəşfiyyat fəaliyyətində əməliyyat-axtarış tədbirlərinin tətbiqinə nəzarətin həyata kecirməsi "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. Əks Kəşfiyyat fəaliyyə tinin təşkili, taktikası, üsulları və vasitələri, o cümlədən bu subyeklərə kömək edən və ya etmiş şəxslər barədə məlumatlar bu fəaliyyətin subyektləri rəhbərlərinin və Azərbaycan Respublikasının Prezdentinin nəzarəti istisna olmaqla, digər nəzarətin predmetinə daxil deyildir.

31 mart 2004-cü il tarixdə təsdiq olunmuş Azərbaycan Respublikasının **Milli Təhlükəsizlik Nazirliyi Haqqında**



downloaded from KitabYurdu.az

**Əsasnamədə** əməliyyat axtatrış fəaliyyətini həyata kecirən Milli Təhlükəsizlik Nazirliyinin subyekt kimi hüquq və vəzifələri öz əksini tapmışdır. Əsasnamədə qeyd edilir ki, Milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə kəşfiyyat, əks-kəşfiyat və əməliyyat-axtarış fəaliyyətini təşkil edir və həyata keçirir, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparır; Kəşfiyyat, əks-kəşfiyat və əməliyyat-axtarış fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasıya mənbələrinin əməliyat uçotunu aparır, əməliyyat-qeydiyyat işini başlayır və onu qeydiyyata alır; Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarını, istintaq orqanlarının qərarlarını və ya cinayət işləri üzrə yazılı tapşırirqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin subyeklərinin qərarlarını yerinə yetirir; Əməliyyat-axtarış fəaliyyətinin digər subyeklərinin səlahiyyətlərinə aid informasiyalar əldə edildiyi təqdirdə zəruri hallarda təxirəsalınmaz tədbirlər kecirməklə həmin orqanları dərhal məlumatlandırır və onlara lazımı kömək göstərir; maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil edir, onların istifadəsinə nəzarət edir, struktur bölmələrin fəaliyyətini yoxlayır və təftişini həyata keçirir; Milli təhlükəsizliyin təmin olunması, səlahiyyətləri daxilində cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması məqsədi ilə kəşfiyyat, əks-kəşfiyat, və bununla  əməliyyat-axtarış və digər tədbirlərin planlaşdırmaq, həyata kecirmək və bununla bağlı məsələləri həll etmək; Dövlət sirrinin mühafizəsi, vəziyyəti, hərbi obyektlərə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxsləri müşahidə etmək, silah və sursatın, talanması və ya onların istifadıəyə yararsız vəziyyətə gətirilməsi, hərbi təlimlər, hərbi texnika və sılahın sınaqdan kecirilməsi, qoşunların və hərbi hissələrin dislokasıyası yerlərinin dəyişdirilməsi barədə Silahlı Qüvvələr və başqa silahlı birləşmələrdən məlumat almaq; Könüllülük və konspirasiya əsasında milli təhlükəsizlik orqanlarına kömək edə bilən şəxslərlə məxfi əməkdaşlıq münasibətləri qurmaq; Əməliyyat- məlumat, Əməliyyat-sorğu, axtarış məlumatlarının və digər informasıyaların, hesabatların



downloaded from KitabYurdu.az

məlumat banklarını yaratmaq, bu məlumatların təhlilini və onlardan istifadəni təşkil etmək, arayış-məlumat fəaliyyətini həyata kecirmək; İnformasıya sistemlərindən radioelektron, video, audio, kino, foto çəkilişlərdən, digər metod və vasitələrdən istifadə etmək; Rabitə müəssisələrinə əməliyyat-axtarış tədbirlərinin texniki-təşkilatı təminatına dair şərtləri müəyyənləşdirmək və onların icrasına nəzarət etmək; Səlahiyyətləri daxilində Nazirlikdə kargüzarlıq işinin, habelə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin sənədləşdirilməsi, əməliyyat, arxiv və istifadəsi qaydalarını müəyyən etmək, arxiv işinin aparılmasına dair tələbləri müəyyənləşdirmək, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərini özündə əks etdirən əməliyyat-qeydiyyat işlərinin növlərini, qeydiyyatı və aparılması qaydalarını təsdiq etmək; Azərbaycan Respulikasının Dövlət Sərhəd Xidməti ilə razılaşdırılmış qaydada Azərbaycan Respulikasının dövlət sərhədində əməliyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərini həyata keçirmək; Xarici xüsusi xidmət və hüquq mühafizə orqanları ilə əlaqələr qurmaq, qanunvericiliklə müəyyən edilmiş qaydada onlarla əməliyyat məlumatlarının və xüsusi texniki vasitələrin mübadiləsini həyata həyata keçirmək; Nazirliyin baş idarə, şöbə və digər qurumlarının əsasnamələrini təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir; Qanunvericiliklə müəyyən edilmiş qaydada milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Nazirliyin hərbi qulluqçularını hərbi xidmətdə saxlanılmaqla Azərbaycan Respublikasının dövlət orqanlarına ezam edir;

Udüsü vü üğüdşnnfe fçefkgj aüfdşnüeştş rünfef luöşküt vşpük hkyftdfkgt aüfdşnnüeştş tşəfğdfnft yftqtmukşşşdşl fledfkgtvf vf iq aüfdşnnüeü şvfküvfçşdş tüəfküeşt rüğşt hkyftdfkgt küriüdükş eüküaştvüt nəzarət edilir.

**11 iyul 2000-ci il tarıxdə təsdiq edilmiş Azərbaycan Respublikası vergi məcəlləsinin 20-ci** maddəsində qeyd olunur ki, Vergi orqanları yerli vergilər (bələdiyyə vergiləri), habelə tutulması dövlət, gömrük orqanlarının səlahiyyətlərinə



downloaded from KitabYurdu.az

aid edilmiş yol vergisi, ƏDV və aksiz istisna olmaqla, vergilərin tam vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər.

Azərbaycan Respublikasında dövlət vergi orqanlarını müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir. Vergi orqanları öz səlahiyyətləri çərcivəsində hüquq mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirirlər. Vergi orqanları öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirirlər. Vergi orqanları tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

Azərbaycan Respublikası vergi məcəlləsinin 23-cü maddəsinə əsasən Vergi orqanlarının hüquqları aşağıdakılardır: kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini kecirmək; vergi ödəyicilərindən bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvercilikłə müəyyən edilmiş qaydada yoxlamaq, habelə yoxlamaların kecirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımı izahatlar, arayışlar və məlumatlar almaq; vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) qanunvercilikłə müəyyən edilmiş qaydada xronometraj metodu ilə müşahidə aparmaq və baxış keçirmək, sənədləri və əşyaları götürmək, mülkiyyətində və ya istifadəsində olan əmlakın (yaşayış sahələri istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qaydada invertarizasiyasını aparmaq; vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, habelə vergi ödəyicisi auditor tərəfindən yoxlanmalı olduğu halda auditor rəyini tələb etmək; qanunla müəyyən edilmiş qaydada vergi qanunverciliyinin pozulması



downloaded from KitabYurdu.az

ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxsələrin vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək; müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək; Vergi ödəyicilərinin hesablaşma, valyuta və ya digər hesablarından qanunverciliyə müvafiq olaraq hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara və ya digər kredit təşkilatlarına icra (ödəniş) sənədi olan sərən-cam vermək, inzibati cərimələrin alınmasını təşkil etmək;

Vergi orqanları öz səlahiyyətləri çərcivəsində Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu həyata keçirtmək; "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada binalara (yaşayış sahələri istisna olmaqla) qurğulara və torpaq sahələrinə daxil olmaq və baxış kecirmək. Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada nəzarət qayda-sında mal alqısını həyata keçirtmək; Azərbaycan Respub-likasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq;
aksiz markası ilə markalanmalı olan malların markalanmadan satışının həyata keçirməsi aşkar edildikdə, həmin malları siyahiya almaq və vergi ödəyicisində və ya onun razılığı ilə vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə məsul saxlamaya qoymaq; mütəxəssisləri, ekspertləri, tərcüməçiləri, müşahidəçiləri cəlb etmək;
məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışını qanunverciliyə uyğun olaraq təşkil etmək;



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikası vergi məcəlləsinin 24-cü maddəsinə əsasən Vergi orqanlarının vəzifələri aşağıdakılardır:

Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etməyə; vergi qanunverciliyinə tam və dəqiq riayət etməyə; vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləməyə və müdafiə etməyə; vergi qanunverciliyinin pozulması hallarına dair məlumatları toplamağa, təhlil etməyə və qiymətləndirməyə, belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər verməyə; vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etməyə və onu təmin etməyə; vergi ödəyiciləri vergi yoxlamalarının nəticələri haqqında aktın, habelə qanunve-riciliklə müəyyən edilmiş hallarda vergi orqanının qərarınlın surətini verməyə; tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirməyə və s.

**Azərbaycan Respublikasının 18 aprel 2006 tarixli Prezidentin fərmanı ilə təsdiq edilmiş Ədliyyə Nazirliyi haqqında Əsasnamədə** Nazirliyin fəaliyyət istiqamətləri göstərilmişdir. Orada qeyd edilir ki, Ədliyyə Nazirliyi penitensial müəssisələrin fəaliyyətini təşkil edir və nəzarəti həyata kecirir, həmcini qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaqı aparır. Nazirliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublika-sının Ədliyyə Naziri rəhbərlik edir. Nazir nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata kecirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Nazirlik Əsas-namə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıda qeyd olunan vəzifələri həyata kecirir.

Penitensiar xidmətin fəaliyyətini təşkil etmək və penitensiar müəssisələrin idarə olunmasını, o cümlədən rejim qaydalarının, təhlükəsizlik tədbirlərinin, əməliyyat- axtarış fəaliyyətinin həyata kecirilməsini təmin etmək;



downloaded from KitabYurdu.az

Cəzaları icra edən müəssisə və orqanların fəaliy-yətinə, cəzaların icrası və həbsdə saxlama zamanı normatif hüquqi akların tələblərinə, o cümlədən cəzaların çəkilməsi şərtlərinə əməl olunmasına nəzarəti həyata keçirmək;

Cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını, azadlıqdan məhrumetmə, azadlığın məhdudlaşdırılması, habelə barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin saxla-nılması, mühafizəsi və müşayiət olunmasını təşkil etmək və bu sahələrdə nəzarəti həyata keçirmək;

Məhkumların hüquqlarının müdafiəsini, onların maddi-məişət təminatının həyata kecirilməsini, habelə onlara tibb xidmətinin göstərilməsinin təmin olunmasını təşkil etmək;

Nazirliyin sistemində maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, stuktur bölmələrin fəaliyyətinin səmərəliliyinin artırılması ilə əlaqədar müvafiq tədbirlər görmək;

Qanunverciliyə uyğun olaraq, dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini görmək;

**Nazirlik öz vəzifələrini həyata kecirmək üçün bi sıra hüquqlara malikdir.** Nazirlik sisteminə daxil olan qurumların fəaliyyətini yoxlamaq və təftişini həyata kecirmək.

Ədliyyə sahəsi üzrə dövlət və yerli özünü idarə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar barədə sorğu vermək və onlardan məlumatlar, sənədlər almaq; Məhkumların və həbsdə sağlanılan şəxslərin müşayiətini təşkil etmək və penitensial müəssisələrin mühafizəsini həyata kecirmək məqsədi ilə xüsusi bölmələr yaradmaq; Penitensial müəssisələrdə təhlükəsizliyin təmin edilməsi məqsədi ilə tədbirlər həyata kecirmək; Məhkümların təhlükə-sizliyini və mühafizəsini təmin edən obyektlərin kino, foto və video cəkilişlərinə icazə vermək; Ibtidai istindaq və əməliyyat-axtarış fəaliyyəti ilə əlaqədar qanunvericiliklə müəyyənləşdirilmiş hüquqlar həyata kecirmək;



downloaded from KitabYurdu.az

**Azərbaycan Respublikasının 19 aprel 2006 tarixli Prezidentin fərmanı ilə təsdiq edilmiş Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamədə** Nazirliyin fəaliyyət istiqamətləri göstərilmişdir. Orada qeyd edilir ki, Fövqəladə Hallar Nazirliyi Mülki müdafiəni, əhalinin və ərazilərin fövqəladə hallardan və yanğınlardan qorunmasını, fövqə-ladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasını, su hövzələrində insanların təhlükəsizliyinin, sənayedə və dağ mədən işlərində texniki təhlükəsizliyinin, tikintidə təhlükəsizliyin təmin olunmasını, dövlət material ehtiyatları fondlarının yaradılmasını və idarə olunmasını, təbii, texnogen və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, obyektlərin və qurğuların mühafizəsini, fövqəladə hallarda çevik reaksiya verilməsini və humanitar yardımların idarə olunmasını təşkil edir və həyata keçirir;

Nazirliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının Fövqəladə Hallar Naziri rəhbərlik edir. Nazir nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata kecirilməsi ücün şəxsən məsuliyyət daşıyır. Nazirlik Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıda qeyd olunan vəzifələri həyata kecirir.

Müvafiq dövlət orqanları ilə birlikdə öz səlahiyyətləri daxilində ölkənin milli təhlükəsizliyi üçün mühüm infrastruktur obyektlərinin siyahısını;

Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyasının və digər dövlət proqramlarının yerinə yetirilməsini təmin etmək;

Təhlükə doğura biləcək obyektlərdə qanunvericiliklə və normativ-texniki sənədlərlə müəyyən edilmiş texniki təhlükəsizlik tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;



downloaded from KitabYurdu.az

Nazirliyin yağından mühafizə, yanğın-xilasetmə, axtarış-xilasetmə, qəza-xilasetmə birləşmələrinin, aviasiya dəstəsinin və başqa qüvvələrinin fəaliyyətini təşkil etmək;

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən mülki müdafiə, yanğın təhlükəsizliyi, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması ilə bağlı müəyyən olunmuş tələblərin yerinə yetirilməsinə öz səlahiyyətləri daxilində nəzarət etmək;

Mülki müdafiə sahəsində vəzifələrin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunverciliyə uyğun olaraq yaradılmış digər hərbi birləşmələrin və qurumların qarşılıqlı fəaliyyətini əlaqələndirmək;

Mülki müdafiə qoşunlarının, yanğından mühafizə xidməti və digər hərbiləşdiriliş qurumların hərbi və səfərbərlik hazırlığı səviyyəsinin saxlanmasını təmin etmək;

Fövqəladə hallarda və müharibə zamanı mülki müdafiə və hərbiləşdirilmiş xüsusi mühafizə xidməti qüv-vələrinin, yanğından mühafizə xidməti hissələrinin və digər qurumların maddi-texniki və insan resurslarının səfərbər edilməsi imkanlarının cari və perspektiv planlaşdırılmasını öz səlahiyyətləri daxilində həyata keçirmək;

Mülki müdafiənin texniki idarəetmə sisteminin və əhalinin hərbi əməliyyatlar zamanı və ya bunun nəticəsi olaraq yaranmış və yarana biləcək təhlükələr barədə xəbər-dar edilməsi sisteminin yaradılmasını və daim hazır və-ziyyətdə saxlanmasını təmin etmək;

Potensial təhlükəli obyektlərin yerləşdiyi ərazilərdə lokal xəbərdarlıq sisteminin yaradılmasını təmin etmək;

Sığınacaqların və mülki müdafiənin digər obyek-tlərinin, o cümlədən ikili təyinatlı obyektlərin yaradılması və hazırlıq vəziyyətində saxlanmasına, əhalinin radiasiya, kimyəvi və bioloji müdafiəsinin təşkilinə metodiki rəhbərlik etmək və bu sahədə nəzarəti həyata keçirmək;

Əhalinin içməli su təminatının təhlükəsizliyi məqsədi ilə içməli su mənbələrinin istismarı zamanı təhlükəsizlik, sanitar-



downloaded from KitabYurdu.az

gigiyena qaydalarına və normalarına əməl olun-masına müvafiq dövlət orqanları ilə birgə nəzarət etmək;

Öz səlahiyyətlərini həyata keçirərkən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin etmək və onların pozulmasının qarşısını almaq;

Nazirlik sistemində maddi və maliyyə vəsaitlərindən istifadəyə nəzarət etmək, müəyyən olunmuş qaydada uçotunu və təftişini təşkil etmək;

**Nazirlik öz vəzifələrini həyata kecirmək üçün bi sıra hüquqlara malikdir.**

Mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən mülki müdafiə tədbirlərinin həyata keçirilməsi hazırlığını müəyyən olunmuş qaydada yoxlamaq;

Mərkəzi, yerli icra hakimiyyəti və yerli özünü-idarəetmə orqanları tərəfindən fövqəladə hallar zamanı əhalının və ərazilərin müdafiəsi üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi hazırlığını müəyyən edilmiş qaydada yoxlamaq;

Dövlət orqanları, fiziki və hüquqi şəxslər tərəfindən Nazirliyin nəzarət funksiyalarına aid edilmiş məsələlərlə bağlı qanunverciliyin tələblərinə riayət olunmasını müəyyən olunmuş qaydada yoxlamaq və pozuntu aşkar olunduğu təqdirdə, qanunvericliklə müəyyən edilmiş tədbirlər görmək;

Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər barədə lazım olan məlumatları və sənədləri əldə etmək üçün dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

Qanunvercikliklə müəyyən edilən hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək, təhqiqat və ibtidai istintaq aparmaq;

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin stukturunda müəyyən əməliyyat-axtarış tədbirlərinin həyata kecirilməsi əsasən əməliyyat istintaq idarəsinə tapşırılmışdır.

**Azərbaycan Respublikasının 27 oktyabr 1998-ci il tarixli Prezidentin fərmanı ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında Əsasnamədə** Komitənin



downloaded from KitabYurdu.az

fəaliyyət istiqamətləri göstərilmişdir. Orada qeyd edilir ki, Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyəti orqanı olmaqla öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyni və təhlükəsizliyini qoruyur, gömrük siyasətini həyata keçirir.Gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və diqər qanunvericiliyinə əməl olunmasını təmin edir.

Komitəyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri rəhbərlik edir. Sədr komitəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata kecirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Dövlət Gömrük Komitəsi Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıda qeyd olunan vəzifələri həyata kecirir.

Qaçaqmalçılıga və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat, ibtidai istintaq aparılmasını və əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir.

Gömrük qaydalarının pozulmasına və Azərbaycan Respublikasının gömrük orqanlarının nominal fəaliyyətinə qəsd edən inzibatı hüquqpozmalara qarşı mübarizəni təşkil edir.

Narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sər-hədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir.

Azərbaycan Respublikasının dəmir yolu vağzal-larında, hava və dəniz limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və



downloaded from KitabYurdu.az

beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir.

Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalarının pozulması işləri və Azərbaycan Respublikasının gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati hüquqpozmalar haq-qında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aşağıdakı hüquqları vardır:

Ona həvalə edilmis vəzifə və funksiyaları yerinə yetirmək üçün mərkəzi icra hakimiyyəti orqanları da daxil olmaqla hüquqi-təşkilati formasından asılı olmayaraq, müəssisələrdən və təşkilatlardan, habelə vəzifəli şəxslərdən və fiziki şəxslərdən sənədlər və məlumatlar tələb etmək.

Tabeçiliyindəki idarələrin, müəssisələrin və təşkilatların fəaliyyətinə rəhbərlik etmək, onların əsasnamələrini və nizamnamələrini təsdiq etmək, onların rəhbərlərini təyin etmək, maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını və təftişini həyata keçirmək.

**"Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının ( 2004 – 2006-ci illər ) təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü 3 sentyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Dövlət Qullugunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya tapşırılmışdır ki, Korrupsiyaya** qarşı mübarizə üzrə Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini təhlil etsin və bu barədə altı ayda bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

Dövlət Proqramı üzrə tədbirlərin 3.7-ci bəndində nəzərdə tutulmuş korrupsiyaya qarşı mübarizə məqsədi ilə hüquq-



downloaded from KitabYurdu.az

mühafizə orqanları aparatlarında daxili nəzarətin təşkil edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezi-dentinin 2004-cü il 30 iyun tarixli fərmanı ilə Daxili İşlər Nazirliyinin strukturunda Daxili Təhlükəsizlik İdarəsi yara-dılmışdır. Həmçinin Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində korrupsiya cinayətləri üzrə əməliyyat-axtarış tədbirləri şöbəsi yaradılmışdır. Vergilər Nazirliyinin Daxili Nəzarət Baş İdarəsinin strukturu və funksiyaları təkmilləşdirilərək onun bazasında Daxili Audit Baş İdarəsi və Daxili Təhlükəsizlik İdarəsi yaradılmışdır. Dövlət Gömrük Komitəsinin Daxili Təhqiqat-lar İdarəsi Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli fərmanı ilə Daxili Təhlükəsizlik İdarəsi adlandırılmışdır. Milli Təhlükəsizlik Nazirliyində, Dövlət Sərhəd Xidmətində daxili nəzarətin həyata keçirilməsi ayrıca struktur bölmələrə həvalə olunmuşdur.

**12 dekabr 2002-ci ildə Azərbaycan Respublika-sının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamədə** göstərilir ki, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (bundan sonra Dövlət Sərhəd Xidməti) Azərbaycan Respublikası prezidentinin 2002-ci il 31 iyul tarixli Fərmanı ilə yaradılmış, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Dövlət Sərhəd Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbay-can Respublikasının qanunlarını, Azərbaycan Respub-likası prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Əsasnaməni və Dövlət Sərhəd Xidmətinin normativ hüquqi aktlarını rəhbər tutur. Dövlət Sərhəd Xidməti ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyindəki hərbi hissələr və digər orqanlar vasitəsilə həyata keçirir. Dövlət Sərhəd Xidmətinin strukturuna baş idarələr, idarələr, şöbələr və



downloaded from KitabYurdu.az

digər qurumlar daxildir. Dövlət Sərhəd Xidmətinin mərkəzi aparatı, sərhəd dəstələri, hərbi dəniz və hərbi aviasiya hissələri, sərhəd nəzarəti dəstələri, hərbi hissələr, habelə digər struktur bölmələr Dövlət Sərhəd Xidmətinin vahid sistemini təşkil edir. Dövlət Sərhəd Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azad-lıqlarına riayət, qanunçuluq, humanistlik və Silahlı Qüv-vələr quruculuğunun təşkilat prinsipləri əsasında qurur.

Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin təşkili ümümiyyətlə, Dövlət Sərhəd Xidməti bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabedir və ona hesabat verir. Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Dövlət Sərhəd Xidmətinə rəhbərlik edir. Dövlət Sərhəd Xidmətinin rəisi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

Dövlət Sərhəd Xidmətinin rəisi Dövlət Sərhəd Xidmətinin işini təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir. Həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata kecirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Dövlət Sərhəd Xidmətinin baş idarə, idarə, şöbə və digər qurumlarının əsasnamələrini, nizamnamələrini təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir; işçilərlə əmək müqavilələrinin bağlanılması və onlara xitam verilməsi məsələlərinə dair vəzifəli şəxslərin səlahiyyətlərini müəyyən edir; Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıda qeyd olunan vəzifələri həyata kecirir. Azərbaycan Respublikasının dövlət sərhədində real və potensial təhdidlərin dəf edilməsini, sərhəd boyu zonada əhalinin, mülkiyyətin hər cür əməllərdən qorunmasını, onların qarşısının alınmasını təşkil edir; səlahiyyətləri daxilində sərhəd münaqişələrinin nizama salınması üçün tədbirlər görür, zəruri hallarda həmin münaqişələrin həlli məqsədilə aidiyyəti dövlət orqanlarına müraciət edir; Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hava hücumundan müdafiə qoşunları və hərbi



downloaded from KitabYurdu.az

hava qüvvələrinə onlar tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin havadan mühafizə olunması ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsinə kömək göstərir; şəxslərin və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçməsinin qarşısının alınmasını təmin edir, səmərəli sərhəd nəzarətini həyata keçirmək məqsədilə şəxsiyyəti təsdiq edən və digər sənədlərin saxtalaşdırılması və ya onlardan qanunsuz istifadə edilməsini qabaqlamaq üçün terrorçuların və terrorçu qrupların, habelə qeyri-leqal miqrantların yerdəyişməsinin qarşısının alınması üzrə tədbirlər görür; qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sənədlər olduqda şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın müəyyən olunmuş məntəqələrdə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılmasını təmin edir; qanunvericiliklə müəyyən edilmiş qaydada narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması qadağan edilən digər əşyaların, habelə Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrindən kənarda əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qarşısının alınmasını təmin edir; Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirir. qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparır, inzibati xətalar haqqında işlər üzrə icraatı həyata keçirir; Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslərin Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək hüququna dair sənədlərinin yoxlanılmasını, həmin sənədlərdə müvafiq qeydlərin edilməsini, qanun pozuntusu aşkar edildiyi hallarda



downloaded from KitabYurdu.az

qanunvericiliklə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir; kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparır, əməliyyat-qeydiyyat işini başlayır və onu qeydiyyata alır; əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətlərinə aid informasiyalar əldə edildiyi təqdirdə zəruri hallarda təxirəsalınmaz tədbirlər keçirməkdə həmin orqanları dərhal məlumatlandırır və onlara lazımi kömək göstərir; Dövlət Sərhəd Xidmətində rabitə sistemi və vasitələrinin inkişaf etdirilməsini və təkmilləşdirilməsini, məlumat təhlükəsizliyini təmin edir; Azərbaycan Respublikasının sərhədboyu zonasında tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınması və onların aradan qaldırılması üzrə dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edir; daxili təhqiqatların aparılmasını təşkil edir; Dövlət Sərhəd Xidməti qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir. Dövlət Sərhəd Xidməti öz təyinatını və vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin və toxunulmazlığının təmin olunması sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək; Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslərin qeydiyyatının aparılmasını, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə buraxılmasını və ölkə hüdudlarından kənarlaşdırılmasını təmin etmək; xidməti vəzifələri icra edərkən qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada plomblanmış vaqonların, avtomobillərin, konteynerlərin, gəmi anbarlarının, xaricə gedən və xaricdən gələn dəniz və hava gəmilərinin başqa yerlərinin gömrük və digər aidiyyəti orqanlarla birlikdə (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində milli maraqlara



downloaded from KitabYurdu.az

təhdidlər haqqında əməliyyat məlumatları olduqda, gömrük və digər aidiyyəti orqanların iştirakını təmin etmək mümkün olmadığı hallarda isə milli təhlükəsizliyi və yaxud dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədilə müstəqil surətdə) açdırılmasını təmin etmək; Azərbaycan Respublikasının dövlət sərhədindən keçən ayrı-ayrı şəxslərə, nəqliyyat vasitələrinə, yüklərə və başqa əmlaka münasibətdə qanunvericiliklə müəyyən edilmiş həcmdə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini təmin etmək; Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi ilə əlaqədar səlahiyyətləri daxilində kəşfiyyat və əks-kəşfiyyat tədbirləri planlaşdırmaq, həyata keçirmək və bununla bağlı məsələləri həll etmək, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə istintaq və digər prosessual hərəkətləri həyata keçirmək; əməliyyat-məlumat, əməliyyat-sorğu, axtarış məlumatlarının və digər informasiyaların, hesabatların məlumat banklarını yaratmaq, bu məlumatların təhlilini və onlardan istifadəni təşkil etmək, arayış-məlumat fəaliyyətini həyata keçirmək; səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Azərbaycan Respublikasının qanunvericilik aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin sərhəd xidməti orqanları tərəfindən icrasına nəzarət etmək; Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin təmin edilməsi üçün hüquqi və fiziki şəxslərlə müqavilələr bağlamaq; milli təhlükəsizliyin, mülkiyyətin, insan hüquq və azadlıqlarının təmin edilməsi məsələləri üzrə müvafiq dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək; müvəqqəti saxlama yerlərində xidmətin təşkilinə nəzarət etmək; qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə digər fəaliyyəti həyata keçirmək.

Qeyd olunmuş komitə və Hazirliklərin Fəaliyyət istiqamətlərində göründüyü kimi. Əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinə prokuror və məhkəmə nəzarəti ilə yanaşı idarə nəzarətinin də nəzərdə tutulması əməliyyat axtarış fəaliyyətinin özünəməxsus xüsusiyyətlərində irəli gəlir. Əməliyyat axtarış fəaliyyətinin



downloaded from KitabYurdu.az

təşkili məsələləri prokuror nəzarətinin predmetinə daxil deyildir. Əməliyyat axtarış fəaliyyətinin təşkili və taktiki məsələləri isə yalnız insan hüquq və azadlıqlarının pozulması ilə bağlı məhkəmə nəzarətinin predmeti ola bilər. Bununla əlaqədar olaraq, «Əməliyyat axtarış fəaliyyəti haqqında» Qanun həmin fəaliyyətin təşkili və həyata keçirilməsi zamanı qanunçuluğa riayət olunmasına nəzarəti, bu zaman insan hüquq və azadlıqlarının pozulmasına, şəxsi və dövlət mənafeyinə ziyan vurulmasına görə məsuliyyəti əməliyyat orqanı rəhbərlərinin üzərinə qoyur. Əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların rəhbərləri həmin orqanların qüvvə və vasitələrindən düzgün və səmərəli istifadə olunmasına görə fərdi məsuliyyət daşıyırlar. Onlar həm bütünlüklə əməliyyat axtarış fəaliyyətinin təşkilinə görə, həm də əməliyyat axtarış tədbirlərinin aparılması zamanı qanunçuluğa riayət olunmasına görə cavabdehdirlər.

Əməliyyat orqanlarının rəhbərləri tərəfindən əməliyyat axtarış fəaliyyətinin aparılmasında qanunlara riayət olunması, əməliyyat axtarış tədbirlərinin həyata keçirilməsinin əsaslı olmasına nəzarət funksiyaları aşağıdakı formalarda həyata keçirilir:

- əməliyyat axtarış tədbirlərinin təşkilində və aparılmasında şəxsən iştirak etməklə;
- əməliyyat qeydiyyat işinin başlanmasını sanksiyalaşdırmaqla;
- vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran əməliyyat axtarış tədbirlərinin aparılmasına məhkəmənin sanksiyasını alarkən;
- əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinə kömək edən şəxslərlə kontrakt bağlayarkən;
- əməliyyat axtarış tədbirlərinin təşkilati cəhətdən təmin olunması ilə bağlı iş planını təşkil edərkən.

Bununla yanaşı, əməliyyat axtarış orqanlarının rəhbərləri idarə nəzarətini həm də həmin orqanların nəzdində mövcud olan müfəttiş bölmələri vasitəsilə həyata



downloaded from KitabYurdu.az

keçirirlər. Idarə nəzarətinin məqsədləri aşağdakılardan ibarətdir:

Əməliyyat axtarış tədbirlərinin təşkili və aparılmasının əməliyyat axtarış fəaliyyətini tənzim-ləyən qanunlara və idarədaxili normativ aktların tələblərinə uyğun olmasını müəyyən etmək üçün;

Əməliyyat axtarış tədbirlərinin təşkili və aparılması ilə bağlı qanun pozuntularını vaxtında aşkar edib, aradan qaldırmaq, qarşısını almaq üçün;

Hüquq pozuntusuna yol vermiş şəxsi məsuliyyətə cəlb etmək üçün.[1]

«Əməliyyat axtarış fəaliyyəti haqqında» Qanuna nəzarət səlahiyyətlərinin əməliyyat orqanları əməkdaş-larına həvalə edilməsini nəzərdə tutmur. Əməliyyat axtarış tədbirlərinin aparılmasına icazə vermək hüququna malik olan rəhbərlərin sayı tədbirlərin xarakterindən asılı olaraq idarədaxili normativ aktla müəyyən olunur.

Təcrübədə, bir qayda olaraq, insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə əlaqəli olan əməliyyat axtarış tədbirlərinin aparılmasına icazəni onu həyata keçirən orqanın rəhbərinin birinci müavini verir. Lakin bu, orqanın rəhbərlərini məsuliyyətdən azad etmir.

---

[1] Məmmədov F.M. Gömrük orqanlarında Əməliyyat Axtarış Fəaliyyəti. Bakı, 2004



downloaded from KitabYurdu.az

## §2. Nəzarət orqanları tərəfindən konkret profilaktik tədbirlərin aparılması.

Əməliyyat axtarış fəaliyyətində nəzarət fəaliyyətinin inkişafının mühüm şərti və səmərəliliyinin idarə olun-masının əsası nəzərdən keçirilən sahədə şəxsiyyətin hüquq və azadlığın pozulmasının qarşısının alınması üzrə profilaktik işlərdən ibarətdir. Profilaktikanın məqsədi şəxslərin və vətəndaşların konstitusion hüquqlarının po-zulmasının səbəblərini və şəraitini aşkar etmək, yeni səhvlərə yol verməməkdir.[1]

Əməliyyat axtarış fəaliyyəti sahəsində nəzarət fəaliyyəti subyektlərinin müxtəlifliyinə baxmayaraq, onla-rın hamısı müəyyən dərəcədə profilaktik tədbirləri həyata keçirir.

Profilaktikanın məqsədlərinə aşağıdakı hallarda nail olunur:

a) pozuntuları və təqsirli bilinən şəxsləri aşkarlamaq üçün nəzarət fəaliyyətinin həyata keçirilməsi;

b) nəzarət nəticəsində aşkar olunan pozuntuların yaranma şəraitlərinin aradan qaldırılması ilə bağlı tövsi-yələri formalaşdıran qərarların qəbul edilməsi;

c) nəzarət orqanları tərəfindən konkret profilaktik tədbirlərin aparılması.

Nəzarət subyektlərinin fəaliyyətində konkret profi-laktik iş zamanı aşağıdakı hallar birinci dərəcəli əhəmiyyət daşıyır:

a) yoxlamaların nəticələrinin ümumiləşdirilməsi;

b) bu və ya digər çatışmazlıqları və pozuntuları yaradan səbəblərin aşkar edilməsi və öyrənilməsi;

c)təşkilati və tərbiyəvi xarakterli önləyici tədbirlərin həyata keçirilməsi;

ç) müvafiq tədbirlərin qəbul edilməsinə dair tövsiyə və məcburi tədbirlərin təqdimi.

Araşdırılan sahədə nəzarət fəaliyyətinin profilaktik funksiyası məhz yuxarıda sadalanan hallarda təzahür edir.

---

[1] Ефремов А.М. Оперативно-розыскная деятельность и личность. Санкт-Петербургский Университет МВД России 2000 г.



downloaded from KitabYurdu.az

Əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsində nəzarətin əsas vəzifələri bunlardır:

–bu fəaliyyəti nizama salan qanun və əlavələrin arasıkəsilmədən təmini;

–Əməliyyat axtarış fəaliyyətinin gedişatı zamanı qəbul olunan qərarların vaxtında və keyfiyyətli təmini;

–təşkilati və əməliyyat xidməti fəaliyyəti səviyyəsini artırmaq, işdə olan çatışmazlıqların qarşısını almaq, aşkarlamaq və aradan qaldırmaq;

–müsbət təcrübəni aşkarlamaq və tətbiq etmək;

–kadrların düzgün qiymətləndirilməsinə və onlardan istifadəyə (yerləşdirilməsinə) yardım etmək.

## §3. Əməliyyat-axtarış fəaliyyətində nəzarət fəaliyyətinin spesifik əlamətləri

Nəzarət fəaliyyətinin spesifik əlamətlərini də fərqləndirmək lazımdır.[1]

Birincisi, nəzarət fəaliyyəti qarşısında duran vəzifə və məqsədli təyinatına görə geniş əhatəli məsələləri həll etməlidir: a) nəzarət altında olan obyektin təşkilati, icraçılıq-bacarıqlılıq fəaliyyətində qoyulan idarə qərar-larının faktiki icrasını müəyyən etmək; b) düzgün (obyektiv) xüsusi hüquqi qiymətləndirmək; c) nəzarətdə olan obyektin fəaliyyətinin təkmilləşdirilməsi üçün səmərəli qərarlar qəbul etmək, hüquqa zidd hərəkətlər aşkar olunduqda isə müvafiq hüquq-mühafizə vasitələrini hərəkətə gətirmək, gələcəkdə əməliyyat axtarış fəaliy-yətində şəxsiyyətin hüquq və azadlıqlarının pozulmasının qarşısını almaq üçün profilaktik tədbirlər görmək; ç) qəbul olunmuş qərarın operativ, tam və daha keyfiyyətli icrasına nail olmaq.

Ikincisi, nəzərdən keçirilən aspektdə yoxlama fəaliyyətinin fərqləndirici əlamətlərinin sırasına onun

---

[1] Bayramzadə X.Ə. Əməliyyat Axtarış Fəaliyyətinə idarə nəzarəti. Bakı, XXİ əsr dircəliş, 94-96, 2006



downloaded from KitabYurdu.az

vadaredici şəraitlərini də aid etmək lazımdır. Vadaredici şərait dedikdə, ƏAF-ni həyata keçirən subyektlərin fəaliy-yətində, davranışında normativ-hüquqi göstərişlərin reallaşdırılması üçün əlverişli şəraitin yaradılmasına obyektiv tələblər, hüquqi nizamlamanın səmərəliliyinin təmini pozulmuş hüquq və maraqların bərpası başa düşülür.

Üçüncüsü, nəzərdən keçirdiyimiz sahəyə nəzarət fəaliyyəti onu həyata keçirən subyektlərin müxtəlifliyi ilə səciyyələnir.

Praktiki təcrübənin öyrənilməsi və idarə normativ aktlarının təhlili əsasında ƏAF-də şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunmasına idarə nəzarəti subyektlərini aşağıdakı qruplara ayırmaq olar:

1. Fəaliyyət vəzifələri əməliyyat bölmələrinin işinin düzgünlüyünə və qanuniliyinə tam nəzarət etmək, həmçinin şəxsiyyətin hüquq və azadlıqlarına aid daha mürəkkəb, ƏAF-ni həyata keçirməkdə məsul olan orqan rəhbərləri.

2. Əməliyyat bölmələrinin rəhbərləri. Onların vəzifə borcları şəxsiyyətin konstitusion hüquq və azadlıqlarının təmininə gündəlik nəzarətin iki istiqamətdə təmin olun-masını nəzərdə tutur:

a) tabelikdə olan hissələrin fəaliyyətinin təşkili və həyata keçirilməsi sistemində;

b)konkret əməliyyat-axtarış tədbirlərinin aparılma-sında.

3. Əməliyyat axtarış fəaliyyətinin həyata keçirmək hüququna malik orqanların təftiş bölmələri. Onun əsas vəzifələrindən biri bütövlükdə hüquq-mühafizə fəaliy-yətini, qismən də əməliyyat axtarış fəaliyyətinin əsasını təşkil edən idarə normativ aktları məsələsinə dair qanunverici orqanların faktiki fəaliyyətinin icrasını yoxlamaq olan orqanların inspektor bölmələri.

4. Tutduğu vəzifədən asılı olmayaraq bilavasitə ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin hazırlanması və aparılmasında iştirak edən operativ hissələrin vəzifəli şəxsləri (məsul icraçılar).



downloaded from KitabYurdu.az

Dördüncüsü, nəzarət fəaliyyətinin xüsusiyyətləri, həmçinin, çıxarılan maddi-hüquqi nəticələrin də tərki-bindən asılıdır. Yoxlamanın obyektləşdirilmiş nəticəsi nəzarətdə olan obyektin fəaliyyətinin qiymətləndirilməsi ilə yanaşı, əməliyyat axtarış fəaliyyəti həyata keçirilən zaman səhvlərin aradan qaldırılması, subyektlərin hüquqazidd fəaliyyətinin qarşısının alınması və qoruyucu tədbirlərin müəyyənləşdirilməsi üzrə mütləq əhəmiyyətli səlahiyyətə malik hüquqi aktdır.

Nəzarət məqsədinin müxtəlifliyi əməliyyat axtarış fəaliyyətinin həyata keçirilməsinə idarə nəzarətinin bir neçə növünün olmasını şərtləndirir.

1. Idarə dövründə yerinə görə: xəbərdaredici, cari, növbəti.

Xəbərdaredici (önləyici) nəzarət – qərar qəbul edilən dövrdə həyata keçirilir. Məsələn, hər hansı tədbirin keçirilməsi, planın təsdiqi və s. Bu yoxlama, həmçinin tabelikdə olanların planlaşdırılan tədbirlərin reallaşdırıl-ması, müəyyən şəraitlərdə fəaliyyətə hazır olub-olmama-larını yoxlamaq məqsədilə aparılır.

Cari (operativ) nəzarət qərarın icrası prosesində həyata keçirilir və təşkilati işin (orqan və əməliyyat bölməsi rəhbərliyinin aparılan əməliyyatın həyata keçirilməsinə nəzarəti) tərkib hissəsi (elementi) hesab edilir. Cari nəzarət növlərindən biri kimi, həmçinin, etibarlı əməliyyat mövqeləri yaratmaq, üzərində iş aparılan şəxslərin və kriminogen obyektlərin əməliyyat müşahidəsi ilə daha dolğun mühafizəsi məqsədilə namizədlərin yerləşdirilməsi üzrə əməliyyat heyətinin işinin düzgün-lüyünə nəzarət də çıxış edir. Məxfi əməkdaşlardan istifa-də edilməsi və onların hazırlanması dərəcəsinə nəzarət. Bu halda məxfi əməkdaşlara rəhbərliyin konkretliliyi tələblərinə riayət olunmasına xüsusi diqqət yetirilməlidir. Bu da, rəhbərliyin verdiyi tapşırıqların, göstərişlərin düzgünlüyünə nəzarətlə, icranın reallığı, konkretliyi, məqsədyönlülüyü, şəxsiyyətin hüquq və azadlığının təmininin qanunilik prinsipinə uyğun olması ilə əldə edilir.



downloaded from KitabYurdu.az

Idarə nəzarətinin araşdırılan növünün əsas vəzifə-lərinə bunlar da aiddir:

–Əməliyyat heyəti və məxfi əməkdaşların konspi-rasiya qaydalarına riayət etmələrinə nəzarət;

–Əməliyyat axtarış fəaliyyətiylə aid gizli sənədlərin etibarlı qorunub saxlanılmasının müntəzəm yoxlanılması;

–Əməliyyat axtarış fəaliyyətiylə buraxılan maddi vəsaitlərin düzgün və səmərəli istifadəsinə daimi nəzarət.

Növbəti nəzarət (icranın yoxlanılması) qərarın yerinə yetirilməsi bitdikdən sonra həyata keçirilir (məs., planın icrasının yoxlanılması və s.). Nəzarətin bu növü aşağı dərəcəli əməliyyatla səciyyələnir. O, tabelikdə olanların konkret qərarların reallaşması üzrə fəaliyyətinə müdaxiləyə yol vermir. Ona görə ki, fəaliyyət artıq bitmiş hesab olunur. Ola bilsin ki, burada müəyyən səhvlər və çatışmazlıqlar mövcuddur, lakin yoxlamanın bu növü əməliyyat aparatlarının fəaliyyətinin ümumi öyrənilməsi (onların işinin vəziyyəti) və ümumi çatışmazlıqların aradan qaldırılması üçün vacibdir.

2. Təyinatına görə, Əməliyyat axtarış fəaliyyətiylə idarə nəzarəti ümumiyə (nəzarətdə olan hissənin və əməliyyat işçisinin bütün fəaliyyətini əhatə edir) və xüsusiyə (məqsədli) (işin ayrı-ayrı istiqamətlərinə nəzarəti həyata keçirir) ayrılır.

Nəzərdən keçirilən sahədə nəzarət vasitələri, metodları və formaları da müəyyən əlamətləri ilə fərqlənir. Qeyd etmək lazımdır ki, idarə nəzarətində göstərilən kateqoriyaların fərqləndirilməsində aydınlıq yoxdur. Buradakı səbəblərdən biri, görünür, onların qarşılıqlı təsiridir, yəni bunun nəticəsində, məsələn, forma başqa konkret şəraitlərdə metod kimi, metod isə vasitə kimi çıxış edə bilər. Fəaliyyətin forma və metodları arasındakı qarşılıqlı münasibət öz ifadəsini bunda tapır ki, fəaliyyətin müəyyən formasının sistematik tətbiqi onun metodunu və s. yaradır.

Bunu nəzərə alaraq əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların işində əsas diqqəti şəxsiyyətin konstitusion hüquq və azadlıqlarının təminatına nəzarət sisteminin adı çəkilən elementlərinin reallaşmasına yönəltmək məqsədyönlü



downloaded from KitabYurdu.az

olardı. Bu, hər şeydən əvvəl, nəzarətin forma, vasitə və metodları ilə şərtlənən optimal səmərəliliyinə, yaxud da ki, sərtliyinə aiddir.

Nəzəriyyə və təcrübədə ümumqəbul olunmuş belə qayda var ki, normal şəraitdə nəzarət sistemin, hətta ən xırda fəaliyyət elementlərini əhatə etməklə çox da sərt olmamalıdır.[1]

Rəhbərliyin avtokratik üsulunun atributu olaraq belə nəzarət çox vaxt təşəbbüskarlığın itirilməsinə, rəsmiyyət-çiliyə və laqeydliyə səbəb olur, məsuliyyətdən əsassız çəkinmə və s. halları yaradır. Buna görə də, rəhbər, bir qayda olaraq, icraçıların fəaliyyətinə həddindən artıq qarışmamalıdır.

Bununla yanaşı, sərt yoxlamanın tətbiqi bəzi hallarda vacib və məqsədəuyğundur:

a) yüksək gərginlikli qüvvə tələb edilən ekstremal vəziyyətlərdə təşkilatçılıq xüsusilə vacibdir;

b) nəzərdə tutulmuş plandan hər hansı yayınma ağır nəticələr törədə biləcəyi güman edilən zaman xüsusi əhəmiyyətli məsələlərin qoyuluşunda;

c) icraçıların fəaliyyəti əvvəlcədən işlənib hazırlan-mış əlverişli alqoritmlər (alqoritmlərdən hər hansı yayınma bütün tədbirin pozulmasına səbəb ola bilər) üzrə həyata keçirilən standart şəraitlərdə.

Deyilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, əməliyyat axtarış fəaliyyətində şəxsiyyətin hüquq və azadlıqlarının təminatı sistemində yeganə mümkün olan nəzarət – sərt yoxlamadır.

Birincisi, bunu mövcud mühitdə tərəflərin hüquqi davranışının əlverişli modeli kimi xüsusi qüvvə, vasitə və metodların istifadəsini nizama salan hüquq normalarına sözsüz riayət olunmasının vacibliyi tələb edir.

Ikincisi, sosial-siyasi baxımdan, real ictimai təhlükə doğurmasından asılı olmayaraq, hüquq və azadlıqların pozulmasına qəti surətdə yol vermək olmaz. Onların məqsədə

---

[1] Ковалев А.Г. Коллектив и социально-психологические проблемы руководства. М., 1975 г. Стр.248



downloaded from KitabYurdu.az

uyğunluğuna istinad etməklə bu kimi pozuntulara heç cür bəraət qazandırmaq olmaz (məsələn, bu üsulla ağır cinayətlərin qarşısının alınması və ya açılması). Buna görə də planlaşdırılan və keçirilən tədbirlərin bütün aspektləri ciddi nəzarət altında olmalıdır. Məqsəd şəxsiyyətin konstitusion hüquq və azadlıqlarının pozula biləcəyi üsul, qüvvə, vasitə və metodların, risk elementləri seçiminin vaxtında qarşısının alınmasıdır.

Buna yoxlama işinin yalnız forması, metodu və vasitələrinin seçimi deyil, həmçinin tətbiq olunacaq mühitin xüsusiyyətləri də nəzərə alınmaqla onların spesifikasının müəyyənləşdirilməsi də tabe edilməlidir.

Tədqiqatlardan məlum olduğu kimi, onlardan ən çox yayılanı bunlardır: icraçıların fəaliyyəti ilə bilavasitə tanış-lıq; icraçıların işini səciyyələndirən informasiya material-larının öyrənilməsi; icraçıların işləri haqqında məlumatların dinlənilməsi.

Icraçıların fəaliyyəti ilə bilavasitə tanışlıq. Buraya aiddir:

– rəhbərin icraçının işini bilavasitə müşahidə etməsi (məsələn, əməliyyat-axtarış tədbirləri zamanı nəzarət);

–əməliyyat axtarış fəaliyyətin həyata keçirmək hüququ olan orqanın müvəkkil yoxlanışı (həm ümumi, həm də şəxsiyyətin hüquq və azadlıqlarının təminatı məsələləri üzrə);

– Əməliyyat axtarış fəaliyyətin həyata keçirən orqanın və ya onun əməliyyat aparatının kompleks yoxlanışı;

– Şəxsiyyətin hüquq və azadlıqlarının təminatı vəziyyətinin məqsədli yoxlanışı;

– Yerlərdə rəhbərlik tərəfindən, tabeliyində olanlar sarıdan insan və vətəndaşın hüquq və azadlıqlarına riayət olunmasının şəxsən yoxlanılması;

– Əməliyyat uçotu işinin açılması, məxfi əməkdaşlığa cəlbetmə ilə bağlı materialların və digər operativ sənədlərin tədqiqi zamanı şəxsiyyətin hüquq və azadlıqlarına riayət olunmasına nəzarət;



downloaded from KitabYurdu.az

– Vətəndaşların şikayət və ərizələrinə, həmçinin yol verilmiş hüquq və azadlıqların pozulması haqqında siqnallara baxılması;

– Qanunilik nöqteyi-nəzərincə konkret əməliyyat-axtarış tədbirlərinə, o cümlədən onların aparılmasında şəxsən iştirak etmək də daxil olmaqla, nəzarət.

- Icraçıların işini səciyyələndirən informasiya materiallarının öyrənilməsi

– Əməliyyat bölmələri və əməliyyat işçilərinin fəaliyyətində şəxsiyyətin hüquq və azadlıqlarının təminatı vəziyyətini əks etdirən ümumiləşdirilmiş analitik-informa-siya materiallarının sistemli təhlili (öyrənilməsi).

– Tabelikdə olan şöbə və əməliyyat işçilərindən şəxsiyyətin hüquq və azadlıqlarının təminatı vəziyyəti və aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üzrə görülən tədbirlər haqqında yazılı hesabatın tələbi.

– Konkret cinayət işi materiallarının, əməliyyat uçotunun, əməliyyat materiallarının və tabelikdə olanların işlərini xarakterizə edən digər sənədlərin öyrənilməsi;

– Tabelikdə olanların hazırladıqları iş planlarının və başqa sənədlərin qiymətləndirilməsi və təsdiq edilməsi.

Icraçıların dinlənilməsi

Şəxsiyyətin hüquq və azadlıqlarının təminatının vəziyyəti haqqında icraçının dinlənilməsi həm kollektiv (yığıncaqlarda, iclaslarda, təlimatdırmalarda və s.), həm də fərdi yolla, yəni rəhbərin icraçını şəxsən dinləməsi şəklində aparıla bilər.

Nəzarətin konkret formaları (eyni zamanda, onlara müvafiq metod və vasitələr), onların məqsədləri, vəzifələri, subyektləri və obyektləri nəzərə alınmaqla seçilir.

Beləliklə, kompleks və məqsədli yoxlamalar, həmçinin təlimatlandırmalar əməliyyat axtarış fəaliyyətini həyata keçirmək hüququna malik olan yuxarı orqanlar tərəfindən aparılır. Onların başlıca vəzifəsi xidməti fəaliyyəti yoxlamaq olsa da, şəxsiyyətin hüquq və azadlığının təminatı məsələsi mütləq öyrənilməlidir.



downloaded from KitabYurdu.az

Bu işin səmərəliliyinin artırılmasında yoxlamaların və təlimatlandırmanın metodiki cəhətdən düzgün təminatı əsas rol oynayır. Bir qayda olaraq onlar bütövlükdə təlimat xidməti fəaliyyətinin proqramı üzrə həyata keçirilir. Nəticədə, hər şey, başlıca olaraq, şəxsiyyətin hüquq və azadlıqlarının pozulması hallarının qeydə alınması, hüquqi və xidməti intizamın, həmçinin onların həlli üzrə materialların rəsmi təhlilinə doğru yönəlir (töhmətlərin, cərimələrin və s. tətbiq olunması). Belə yanaşma, hər şeydən əvvəl, insanların və vətəndaşların hüquq və azadlıqlarının pozulmasına, bu məsələlərdəki ənənələrə və s. bu kimi hallara kömək edən şəraitləri tam aşkarlamağa imkan verir.

## §4. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların fəaliyyətinin yoxlanılmasının xüsusi metodikası.

Əməliyyat-axtarış fəaliyyətinin yoxlanması, əməliy-yat-axtarış tədbirlərinin həyata keçirilməsinə nəzarət öz spesifik xüsusiyyətlərinə görə digər idarə, müəssisə, təşkilatların, ictimai birliklərin yoxlanmasından və onlara nəzarət edilməsindən fərqlənir. Buna görə də aşağıdakı təkliflər daha məqsədyönlü ola bilər:

a) şəxsiyyətin hüquq və azadlıqlarının təminatı üzrə ƏAF-ni həyata keçirən orqanların fəaliyyətinin yoxlanılmasının xüsusi metodikasının hazırlanması;

b)konkret-sosioloci tədqiqatların metodlarının yoxlanılmasının təcrübəyə tətbiq edilməsi.

Şəxsiyyətin hüquq və azadlıqlarının təminatı üzrə belə metodika ƏAF-ni həyata keçirən orqanların fəaliyyətinin öyrənilməsi və yoxlanılmasını təmin etməlidir. Bunun əsasını onların təmini, təbii ki, yoxlamanın parametrlərinin müəyyən edilməsinə amil yanaşması təşkil etməlidir. Metodikanın strukturuna yoxlama aparan orqanın fəaliyyətinin əsas istiqamətlərini əks etdirən bölümlər daxil edilməlidir:



downloaded from KitabYurdu.az

1) normativ tənzimləmənin vəziyyəti;

2)insan və vətəndaşın hüquq və azadlıqlarının orqanın bütün hissələrində (həmçinin onun xarici əla-qələri sistemində) təminatı haqqında məlumatın aparıl-ması və vəziyyəti;

3) şəxsiyyətin hüquq və azadlıqlarının təminatı üzrə təşkilati iş formaları;

4) yoxlama sistemi bu işin əsas elementi kimi;

5) hüquq və azadlıqların pozulması profilaktikasının təşkili;

6)xidməti tədqiqatların keyfiyyəti və əsaslandırılması, onun konkret pozulması üzrə nəticələr. Güman edilir ki, belə yanaşma gündəlik fəaliyyətdə konstitusion hüquq və azadlıqların təminatı üzrə inspeksiya orqanının tədbirlərinin məzmun və nəticələri haqqında hərtərəfli dəqiq məlumat alınmasını, qanuniliyi və nizam-intizam vəziyyətində neqativ və pozitiv halları, onların təminatı işində tipik çatışmazlıqların müəyyən edilməsini, bu işin təşkilinin qiymətləndirilməsini və onun Əməliyyat axtarış fəaliyyətinin məsələlərinin səmərəli həllinə təsirini; hüquq və azadlıqların aşkar olunmuş pozuntularının və onların baş verməsinə səbəb olan şəraitin dərhal aradan qaldırılması üzrə məcburi tədbirlərin işlənib hazırlan-masını, həmçinin hər bir xidmətdə, bütövlükdə isə orqanda nizam-intizamın və qanuniliyin yüksək səviyyə-sinin təminatının gələcəkdə də təkmilləşdirilməsini təmin edir.

Araşdırılan konkret-sosial tədqiqatlar metodları sahəsində şəxsiyyətin hüquq və azadlıqlarının təminatı vəziyyətinin öyrənilməsi zərurəti tədqiqat yoxlamasının həcm və məqsədlərinin mürəkkəbləşməsi ilə şərtlənir.

Təcrübə göstərir ki, bəzi şəraitlər (şəxsiyyətin hüquq və azadlıqlarının pozulmasının bir qayda olaraq, görünən əlamətinin olmaması, təqsirlilərin məsuliyyətdən qorxması, vicdanlı işçilərin qanunpozucular, həmçinin «evin sirrinin bayıra çıxmasından» ehtiyatlanan rəhbərlər tərəfindən təqib olunacaqlarından ehtiyatlanması) obyektiv şəkildə insanın və vətəndaşın hüquq və azadlıqlarının real təminatını, onların pozulmasını, bu pozuntuların əsas səbəblərini müəyyən etməyi



downloaded from KitabYurdu.az

mürəkkəb-ləşdirir. Hazırda istifadədə olan statistik, normativ və digər sənədlərin öyrənilməsi, həmçinin şəxsi heyətlə müsahibə kimi yoxlama metodları, adətən, bu məsələləri uğurlu həll etməyə imkan vermir. Əgər sənədlərə əsasən mühakimə yürüdülsə, bir çox, xüsusilə də aşağı səviyyəli orqanlarda insanın və vətəndaşın hüquq və azadlıqlarının konkret hallarda pozulması üzrə araşdırmalar istisna olmaqla, belə təəssürat yaranır ki, onların təminatında hansısa məqsədyönlü sistem, ümumiyyətlə, yoxdur. Daha dərin tədqiqatlar göstərir ki, bu belə deyil. Lakin həmin istiqamətdə gündəlik iş sənədlərdə tam əksini tapmaya da bilər. Digər tərəfdən təhlilin nəticələrinin qəsdən təhrif olunması halları da istisna edilmir.

Şəxsiyyətin hüquq və azadlıqlarının qorunması ilə bağlı həqiqi vəziyyəti müəyyənləşdirərkən nəzərə alınmalıdır ki, əsas informasiya dörd daşıyıcıda–insanların şüurunda, onların hərəkətində, sənəd və predmetlərdə əks olunur. Onlar hər bir daşıyıcı üçün daha səmərəli olan müşahidə, sənədlərin təhlili, təcrübi hərəkət və dindirilmə metodları ilə öyrənilməlidir.

Müşahidə metodunun təftiş və digər yoxlamalar çərçivəsində istifadəsi məhduddur. Onun köməkliyi ilə, adətən, insanların hərəkətləri öyrənilir. Məlumdur ki, heç bir kəs insanların və vətəndaşların konstitusion hüquq və azadlıqlarını açıq pozmağa cəhd etməz. Bununla yanaşı, müşahidə yoxlanılan hissədə şəxsiyyətin hüquq və azadlıqlarının təminatı vəziyyəti haqqında bilavasitə lazımi informasiya toplamağa imkan verir. Müşahidənin belə rəngarəngliyi dəqiq ölçülmə vasitəsi kimi rəhbərlərin, onların tabeliyində olanların işlərinə nəzarətə kifayət qədər diqqət yetirməmələrini göstərə bilər. Belə faktlar şəxsiyyətin konstitusion hüquq və azadlıqlarının təminatı işində nöqsanların dolayı əlamətləri kimi qiymətləndirilir.

Qeyd olunduğu kimi, yoxlama aparanlar bu məqsədlər üçün, hər şeydən əvvəl, insanların və vətəndaşların hüquq və azadlıqlarının təminatı və qanuniliyi məsələlərinə aid sənədlərin öyrənilməsi metodundan istifadə edirlər. Nəinki



downloaded from KitabYurdu.az

şəxsiyyətin hüquq və azadlıqlarının təminatının əsas amillərini, həmçinin zahirən qaydasında görünən adi tədbirlərin konkret pozulması hallarını müəyyənləşdirməyə imkan verən təhlilə daha az diqqət yetirilir. Beləliklə, əməliyyat uçotu işlərində onların rəhbərlər tərəfindən öyrənilməsinin sənədli təsdiqinin olmaması, onların qanunilik tələblərinə uyğunsuzluğu, həmçinin şəxsiyyətin hüquq və azadlıqlarının lazımi təminatının qanunilik çərçivəsində olmaması, aparılan işə nəzarətin zəif olmasına dəlalət edir, lakin iştirakçıların həm təqdirəlayiq, həm də təzadlı ifadələrinin aşkarlanması çox vaxt qanunsuz təsir metodlarından istifadə edilməsindən xəbər verir.

Təcrübədə sorğu metodundan demək olar ki, istifadə edilmir. Yalnız yoxlanılan şəxslə fərdi müsahibələr istisna təşkil edir. Lakin bu hallarda bir qayda olaraq müsbət nəticələrə nail olmaq mümkün deyil. Kütləvi sorğu formal xarakter daşıyır. Çünki yoxlayıcı bunu bildiyindən irəlicədən heç nəyə ümid bəsləmir. Fərdi söhbətlər bu baxımdan az səmərəlidir. Birincisi, yuxarıda göstərilən səbəblərə görə (bu zaman təmiz, düzgün, prinsipial, lakin bir çox hallarda kifayət qədər iradəli olmayan işçilərin təkbətək müsahibələrə neqativ münasibətini nəzərə almamaq mümkün deyil). Ikincisi, belə müsahibələr, bir qayda olaraq, ilkin hazırlıq proqramı olmadan aparılır.

Bundan anketləşdirmə və müsahibələr almaq kimi sorğu növlərindən istifadə etməklə qaçmaq mümkündür. Düzgün aparılan zaman onlar nəzarət edəni maraq-landıran məsələlərə işçinin düzgün münasibətini aşkarlamağa imkan verir. Dindirilənin səmimiliyini təmin etmək üçün anket anonim olmalı və orada həm birbaşa aidiyyətli suallar, həm də dolayı suallar verilməli, onlara cavablar şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunması üzrə işin həqiqi vəziyyətini kompozision şəkildə əks etdirməlidir. Anonimlik zəmanətli olmalıdır: həm anketləşdirilmə prosesində (paylama və toplama yalnız yoxlayıcı tərəfindən aparılır), həm də onların nəticələrinə yekun vurulan zaman (məcmu nəticələrin elan edilməsi və s.).



downloaded from KitabYurdu.az

Analoci anket müsahibənin də əsasını təşkil etməli, anketin məzmunu gizli saxlanılmalıdır. Bu tələblər yalnız soruşulanların cavablarına aid edilir, sualların oxşar siyahısını öncədən açıqlamaq məqsədyönlü olardı. Düzgün hazırlanmış və aparılmış müsahibə əhəmiyyətli nəticələr verə bilər. Məsələn, A.Q. Zdravomıslov, ümu-miyyətlə, müsahibələri sosial-psixoloci tədqiqatlarda «soruşulan şəxslərin sayı çox olmadıqda, məhdud və ya kiçik seçimli, həmçinin «icimai mühit tərəfindən təqdir edilməyən, normalardan kənar əxlaqa zidd və ya deviasiya hərəkətləri səbəblərinin öyrənilməsində» əvəzolunmaz hesab edir.[1] Hər iki vəziyyətə tədqiq olunan şəraitdə rast gəlinir. Doğrudur, burada (anketləşdirmədə olduğu kimi) subyektiv amilin yayınma təsiri qaçılmazdır, amma o, məsələnin qoyuluşuna və onlara verilən cavabların təhlilinə sistemli yanaşma zamanı aradan qaldırılır. Yoxlama aparan ümumi nəticəni bütün cavabların məzmuna görə bölüşdürülməsinin kütləviliyinə istinad edərək çıxarmalıdır. Eyni bir suala dəyişməz analoji cavabların aşkarlanması onların yoxlanılan hissədə işlərin həqiqi vəziyyətinə uyğunluğunun etibarlı sübutudur.

Nəzərdən keçirilən sahədə nəzarətin digər forma və metodları arasında, bizim zənnimizcə, bu məqsədlərlə işçi əməliyyat-axtarış materiallarının öyrənilməsi və nəzarət subyektinin əməliyyat tədbirlərində bilavasitə iştirakı öz səmərəliliyi ilə fərqlənir. Rəhbərin daha mürəkkəb məsələlərin həllində şəxsən iştirak etməsi rəhbərlik üsulu və metodunun təkmilləşdirilməsinin prinsipial şəraiti kimi təhlil edilməlidir (qiymətləndiril-məlidir).

Yoxlamanın yuxarıda göstərilən normalarının belə əhəmiyyəti, eyni zamanda, onların kütləviliyi, həmçinin həm şəxsiyyətin hüquq və azadlığının pozulması və onun ilkin şərtlərinin, həm də onlarla mübarizə tədbirlərinin qəbul edilməsi sahəsində vasitəsizliyi və operativliyi ilə izah olunur.

---

[1] Казак А.Е. Оперативно-розыскная деятельность органов внутренних дел и права человека Санк-Петербург 2001



downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az

## İstifadə olunmuş ədəbiyyatın siyahısı:


1. Афанасьев В.Г. Научное управление обществом. М., 1983 г.
2. Abdullayev F.S. Apellyasiya Məhkəməsində cinayət mühakimə icraatının təkmilləşdirilməsi problemləri. Aftoreferat. 2006.
3. Bayramzadə X.Ə. Əməliyyat Axtarış Fəaliyyətinə idarə nəzarəti. Bakı, XXI əsr dircəliş, 94-96, 2006.
4. Bayramzadə X.Ə. «Beynəlxalq hüquq» ictimai siyasi elmi təcrübi jurnal. Bakı, № 10, 2005-ci il.
5. Bayramzadə X.Ə. Məhkəmə ekspertizası, Kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı, 2006.
6. Басков В.И. Куср прокурорского надзора. М., 1999 г.
7. Горяинов К.К., Кваша Ю.Ф., Сурков К.В. Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., 1997 г.
8. Горяинова К.К., Овчинского В.С., Синирова Г.К., Шумилова А.Ю. Оперативно-розыскная деятельность. Учебник. М., ИНФРА-М., 2004 г.
9. Ефремов А.М. Оперативно-розыскная деятельность и личность. Санкт-Петербургский Университет МВД России 2000 г.
10. Hüseynov Ş. Qanun jurnalı № 4 (96) Bakı. 2002.
11. Kazak А.Е. Оперативно-розыскная деятельность органов внутренних дел и права человека Санк-Петербург 2001
12. Ковтун Н. Н.Судебный контроль в уголовным судопроизводствие России. Нијний Новгород: Нијегородская правовая Академия 2002, 332 стр.
13. Колоколов Н.А. Судебный контроль в стадии предварительного расследования Москва 2004.
14. Ковалев А.Г. Коллектив и социально-психологические проблемы руководства. М., 1975 г.
15. Məmmədov F., Mustafayev M. Cinayət Axtarış hüququnun əsasları. Bakı, Hərbi Nəşriyyat, 2002.




downloaded from KitabYurdu.az

16. Məmmədov F.M. Gömrük orqanlarında Əməliyyat Axtarış Fəaliyyəti. Bakı, 2004.
17. Mənsurov R.. Azərbaycan Respublikası Millik Təhlükəsizlik Orqanlarının Əmaliyyat axtarış fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, "Adiloğlu" Nəşriyyatı, 2005-ci il. 176 səh
18. Sarıcəlinskaya K. Q. Kriminalistika. Dərs vəsaiti. Bakı, 1999.
19. Смирнов М. П. Комментария оперативно розысконого законодательства РФ и зарубеjных стран. Москва.2003. Из-во «Экзамень»
20. Здравомыслов А.Г. Методология и процедура социологического исследования. М., 1979 г.
21. Шумиров А.Ю., Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., 1997 г.
22. Шумилова А.Ю. Оперативно-розыскной деятельности М., 2004
23. Шумиров А.Ю., Федеральный закон об оперативно-розыскной деятельности: Комментарий. М., Из-во «Шумирова И. М.», 2001г. 319 стр.
24. Хамкоров В.П. Организация управленя оперативно-розыскной деятельностью: системный подход. Москва, «Закон и право», Юнити, 1999 г.
25. Рушайло В.Б. Основы оперативно - розыскной деятельности Санк-Петербург 2002.
26. Azərbaycan Respublikasının Konstitisiyası. 12 noyabr 1995.
27. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. 2000
28. Azərbaycan Respublikası Statistika Komitəsi 2004 məcmuəsi
29. «Azərbaycan Respublikasının Prokurorluq haqqında» Qanunu. Bakı 1999
30. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun 17 noyabr 1999-cu il.



downloaded from KitabYurdu.az

31. "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Qanun 11 iyun 1999-cu il.
32. «Məhkəmələr və hakimlər haqqında». Bakı, 1999-cu il.
33. «Polis haqqında qanun» Bakı, 1999-cu il.
34. «Kəşfiyyat və əks kəşfiyyat fəaliyyəti haqqında » Azərbaycan Respublikasının qanunu. 7 avqust 2004-cü il.
35. «Dövlət sirri haqqında qanun» 7 sentyabr 2004-cü il
36. «Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi haqqında Əsasnamə» 31 mart 2004-cü il
37. «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə» 18 aprel 2006-cı il.
38. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə» 19 aprel 2006-cı il.
39. «Dövlət Gömrük Komitəsi haqqına Əsasnamə» 29 oktyabr 1998-ci il.
40. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə» 12 dekabr 2002-ci il.
41. Məlumatların Dövlət sirrinə aid edilməsi qaydaları. 3 iyun 2005-ci il
42. Xətai rayon Məhkəməsinin arxivi
43. Ağır Cinayətlərə Dair Işlər Üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi.
44. Ağır Cinayətlərə Dair Işlər Üzrə məhkəmənin arxivi.
45. Bakı şəhər Baş polis Idarəsinin arxivi.



downloaded from KitabYurdu.az

**M ü n d ə r i c a t**

Giriş ………………………………………………...... 3

**Fəsil 1 Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlər**

§ 1. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının mühafizəsi əməliyyat-axtarış fəaliyyətinin əsas prinsipidir....................................................………......... 4-10

§ 2. Nəzarət və yoxlamanın əməliyyat-axtarışn fəaliyyətin də mahiyyəti……………….................... 11-14

§ 3 Əməliyyat-axtarış fəaliyyətini yoxlayan və nəzarəti həyata keçirən subyektlərin təsnifatı……….............… 15-24

**Fəsil 2 Məhkəmə nəzarətinin həyata keçirilməsi**

§1. Əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti ……………………………........… 25-55

§2 Məhkəmə nəzarəti qaydasında işlərə yenidən baxılması ……………………………………............ 56-66

**Fəsil 3. Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarəti**

§1. Prokuror Əməliyyat-axtarış fəaliyyətinin subyekti kimi. .........................................................… 67-78

§2. Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin əsasları....................................................... 79-87

**Fəsil 4. Əməliyyat axtarış fəaliyyətinə idarə nəzarəti.**

§1. Əməliyyat-axtarış fəaliyyətinə idarə nəzarətini həyata keçirən orqanların hüquq və vəzifələri ............. 88-111

§2. Nəzarət orqanları tərəfindən konkret profilaktik tədbirlərin aparılması ..........................................…… 112-113

§3.Əməliyyat-axtarış fəaliyyətində nəzarət fəaliyyətinin spesifik əlamətləri................................... 113-120

§4. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən



downloaded from KitabYurdu.az

orqanların fəaliyyətinin yoxlanılmasının xüsusi
metodikası ......................................................…… 120-125
Istifadə olunmuş ədəbiyyat…………………………… 126-128



downloaded from KitabYurdu.az

Çapa imzalanmışdır; 23.04.2007.
**Formatı 60x84 1/16.**

**Həcmi 9 ç.v. Sayı 100.**

***Bakı Universiteti nəşriyyatı***
***Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.***



downloaded from KitabYurdu.az